Xalqın qəzeti!

# Xalq qəzeti

№ 147 (30551) 16 iyul 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycan paytaxtı COP29-u yenilənmiş libasda qarşılayacaq

## Prezident İlham Əliyev Bakıda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Bakının Nərimanov rayonunda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak edib.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, ərazisi 4,1 hektar olan park XX əsrin 50-ci illərində salınıb. Ötən müddətdə bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkana çevrilib. 1960-cı illərdə yaxınlıqda metro stansiyasının tikilməsi parka marağı daha da artırıb.

(ardı 2-ci səhifədə)



# Türk xalqı 15 iyulda qəhrəmanlıq dastanı yazdı

## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana



**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım!**

15 İyul hadisələrinin səkkizinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, ailələrinə və bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm.

Qardaş Türkiyənin qan yaddaşına əbədi olaraq həkk olunmuş bu gecədə baş vermiş mənfur çevriliş cəhdi ölkənizin milli maraqlarına, demokratik əsaslarına və hüququn aliliyinə qəsd idi. Müdrik və mərd Türkiyə xalqı Vətən, dövlətçilik və demokratiya uğrunda qətiyyətlə mübarizə apararaq və sinəsini sipər edərək növbəti dəfə qəhrəmanlıq dastanı yazdı. Bu hadisələr ilə əlaqədar təsis edilmiş 15 İyul – “Demokratiya və Milli Birlik Günü” mətin xalqınızın həmrəylik, mübarizlik və milli birlik rəmzi olaraq daim yaşayacaq və əsrlər ötdükcə daha böyük qürurla xatırlanacaqdır.

Türkiyə dövlətçiliyinə qarşı yönəlmiş bu çevriliş cəhdinin dəf olunmasında və bununla da ölkənizi böyük faciələrdən xilas edilməsində şəxsən Sizin gördüyünüz təxirəsalınmaz qəti addımların və liderliyinizin xüsusi rolu olmuşdur. Xalqınız Sizin ətrafınızda sıx birləşərək dövlətinə, azadlığına və demokratiyasına sahib çıxmaqla dünyaya milli qürurunu, gücünü və sarsılmaz iradəsini bir daha sübut etdi.

Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən bu xəyanəti şiddətlə qınamış və həmişə olduğu kimi qardaş Türkiyə dövlətinin və xalqının yanında yer almışdı. Bu bizim sevincimizi və kədərimizi birgə paylaşdığımız Türkiyəyə qardaşlıq və vəfa borcumuz idi.

Hörmətli cənab Prezident, bu yaxınlarda Sizinlə Astanada görüşümüzü, apardığımız ətraflı fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram. Əminəm ki, dostluğa, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan–Türkiyə əlaqələrini, çoxşaxəli əməkdaşlığını və strateji müttəfiqliyini genişləndirmək, dünyada bənzəri olmayan dövlətlərarası münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırmaq naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2024-cü il**

# “Qarabağ kartı”

## Cənubi Qafqazın sülh gündəmi və erməni sərsəmliyi



**“Qarabağ kartı” – başqa sözlə desək, Qarabağ erməniləri amili. Son günlər Ermənistanda bundan istifadəyə çalışan qüvvələrin siyasi aktivliyi müşahidə edilməkdədir. Əslində, ölkə xaricində də mövcud istiqamətdə müəyyən meyillər özünü göstərməkdədir.**

Qeyd edək ki, daxildəkilər məsələni daha çox baş nazir Nikol Paşinyan hakimiyyətini devirmək, xaricdəkilər isə Azərbaycana təzyiq vasitəsi kimi qabardırlar. Bakı – İrəvan sülh gündəminin aktuallaşdığı bir zamanda bu tendensiyanın güclənməsi suallar yaradır. Ən mühüm sual isə budur: Ermənistan hakimiyyəti təzyiqlər qarşısında zəif düşüb Cənubi Qafqazda barış mühitinin formalaşması üçün göstərilən səyləri heçə endirməyəcək ki?

Bəli, “Qarabağ kartı” sülh gündəminə alternativ müqəddimə qismində ortaya atılmaqdadır. Hiss olunur ki, Ermənistanın siyasi qüvvələrinin həm indi, həm də gələcək üçün “satışa çıxardığı” ən mühüm “siyasi məhsul” Qarabağı qaytarmaq, “Qarabağ xalqı” kimi qələmə verilən ermənilərin bölgəyə dönmələrini təmin etmək vədi olacaq. Yeri gəlmişkən, N.Paşinyan da 2021-ci ildə parlament seçkiləri öncəsi Şuşanı geri qaytarmağı özünün seçki platformasına daxil etmişdi. Nəticə necə oldu, hamı gördü...

İndiki vəd verənlər təkcə Şuşa ilə kifayətlənmir, “Qarabağın müstəqilliyinin” tanınması və Ermənistana birləşdirilməsi ideyalarını da gündəmə gətirirlər. Nəzərə alaq ki, ümumən Qarabağ məsələsi otuz ilə yaxın müddətdə erməni siyasi diskursunun başlıca mövzusu olub. Görünür, məsələ dəbdən düşməyib. Çünki Ermənistanda və xaricdə psevdovətənpərvərlik şüarları “satan” böyük bir qruplaşma var.

Məsələ ondadır ki, hazırda “Qərbi Ermənistan” kimi qələmə verilən ərazini, Naxçıvanı, Qarabağı, hətta ona yaxın yeddi rayonu qaytarmaq kimi iddialar səsləndirənlərdən bunun necə başa gələcəyini soruşanlara Türkiyənin və Azərbaycanın agenti, satqın və sair damğası vurulur. Səbəb çox sadədir – nağıl danışmaq onu danışanlar üçün həyati əhəmiyyət kəsb edir, belə demək mümkünsə, nağılpərəstləri siyasi arenada saxlayır. Buna görə də əksini düşünənlər nəinki xain qiyafəsində göstərilir, eyni zamanda, fiziki repressiya ilə də hədələnirlər.

(ardı 4-cü səhifədə)

# Dövlət Qarabağda özəl sektora meydan açıb



Səhifə ⇨ 7

# Səfir, yoxsa qərəzli “hüquq müdafiəçisi”?

Səhifə ⇨ 3

# ABŞ siyasi “olimpi”nə atılan güllə



Səhifə ⇨ 11

# Dini mərasimlərdə azyaşlıların iştirakı qəbuledilməzdir!

Səhifə ⇨ 6

# Olimpiya komandamızın yolasalma mərasimi




Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Bakıda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak edib







(əvvəli 1-ci səhifədə)

Məlumat verildi ki, şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib.

Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb. Mühəndis-kommunikasiya xətləri əsaslı şəkildə yenilənən park yağış sularının axıdılması üçün nəzərdə tutulan xətlərlə təmin edilib.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. “Yaşıl dünya naminə həmrəylik ili”ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması bu il COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

***AZƏRTAC***

# Əli Əsədovun Dünya Bankının regional direktoru ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 15-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Prays ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlıq çərçivəsində həyata keçirilən və müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurlu nəticələri təqdir olunub.

Hazırda icra olunan layihələrin gedişi, həmçinin Dünya Bankının fəaliyyət istiqamətlərinə və Azərbaycanın inkişaf prioritetlərinə uyğun olaraq bankın 2025-2029-cu illəri əhatə edəcək yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin hazırlanması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Azərbaycan ilə Dünya Bankı arasında bir sıra sahələrdə, o cümlədən COP29 çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə edilib.

***XQ***

# Biləsuvarda vətəndaş qəbulu

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev iyulun 15-də Biləsuvar rayonunda vətəndaşların müraciətlərini dinləyib.**



Görüşdə Biləsuvar və Cəbrayıl rayonlarının sakinləri iştirak ediblər. Onların müraciətlərində dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, müvəqqəti yaşayış sahələrinin təmiri, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq və Böyük Qayıdışla bağlı məsələlər üstünlük təşkil edib.

Görüş zamanı vətəndaşların qaldırdıqları məsələlərin bir qismi yerində həll olunub. Dövlət Komitəsinin sədri müraciətlərdə qaldırılan digər məsələlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

# Prezident İlham Əliyev: Trampa qarşı siyasi zorakılıq aktını şiddətlə qınayırıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Pensilvaniya ştatında Respublikaçılar Partiyasının builki prezident seçkilərində namizədi Donald Trampa qarşı təşkil olunmuş sui-qəsdlə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda deyilir: “Prezident Trampa qarşı edilən hücum şok və dəhşət doğurur. Biz bu siyasi zorakılıq aktını şiddətlə qınayırıq. Prezident Trampın tezliklə sağalmasını arzu edirik”.

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2367 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2567 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası”na aşağıdakı məzmunda 1.2-4-cü bənd əlavə edilsin:

“1.2-4. Bu Qaydanın müddəaları Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”nın 6.1-1-ci və 6.1-2-ci bəndlərinə uyğun olaraq sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin olunmasına şamil edilmir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 iyul 2024-cü il**

# “Sağlam məhəllə” layihəsinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin sağlam həyat tərzinin təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** “Sağlam məhəllə” layihəsi çərçivəsində cari ildə 25 şəhər və rayonda açıq meydançaların tikintisi və avadanlıqla təchizatı işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ilkin olaraq 1,9 milyon (bir milyon doqquz yüz min) manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 iyul 2024-cü il**

# O.İ.Abbasovun Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Orxan İrşad oğlu Abbasov Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 iyul 2024-cü il**

# İranda səfirliyimizin fəaliyyəti bərpa edildi

**Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında aparılmış danışıqlar nəticəsində 2024-cü il iyulun 15-dən etibarən ölkəmizin İrandakı səfirliyinin yeni ünvanda fəaliyyəti bərpa edilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, səfir və səfirliyin hazırkı heyəti İrana geri dönüb.

İran tərəfi akkreditasiya ölkəsi kimi “Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyası” çərçivəsində təhlükəsizliyin təminatına dair öhdəliyinə uyğun olaraq səfirliyimizin yeni binasının qarşısında diplomatik mühafizənin təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirib.

Hazırda İrandakı səfirliyin yeni binasında konsulluq xidmətinin təşkili üçün müvafiq işlər görülür və yaxın zamanda konsulluq xidmətinin bərpası barədə əlavə məlumat veriləcək.

Səfirlik Tehran şəhəri, Dərrus məntəqəsi, Şəhrizad prospekti, Yarməhəmmədi küçəsi, Saqi dalanı və Firuzkuh küçəsinin kəsişməsi, ev 8 ünvanında yerləşir.

Səfirliyin işinin bərpası qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin gələcək inkişafına, iki ölkə arasında əldə edilmiş razılaşmaların və həlli zəruri olan məsələlərin icrası işinə töhfə verəcək.

***XQ***

# Azərbaycan–Pakistan münasibətlərində yeni dövrün başlanğıcı

**Prezident İlham Əliyevin Pakistanda səfərdə olduğu günlərdə İslamabadda küçələrin Azərbaycanın dövlət bayraqları və Prezident İlham Əliyevin portretləri ilə bəzədilməsi, Bakı və İslamabadın qardaşlaşmış şəhərlər elan olunması Pakistan xalqının ölkəmizə böyük sevgisinin təzahürüdür. Pakistan Müdafiə Nazirliyinin sosial şəbəkə səhifəsində "Üç qardaş, bir ailə! Üç ölkə, bir millət!" paylaşımı da ölkələrimizin birlik və həmrəylik mövqeyinin ən səmimi ifadəsidir.**



Azərbaycan və Pakistan münasibətlərini səmimiyyət və hörmət, qarşılıqlı əməkdaşlıq üzərində quran və daim möhkəmləndirən dost və qardaş dövlətdir. Bu gün tərəflər bütün sahələrdə – siyasi, iqtisadi, enerji, hərbi, humanitar, mədəni müstəvidə əlaqələr davamlı olaraq gücləndirilməkdədir. Münasibətlərin mühüm xüsusiyyəti Pakistanın da Türkiyə kimi həmişə ədalətin tərəfində olması, Azərbaycanın haqq işini daim dəstəkləməsidir.

Pakistan İslam aləmində inteqrasiya və dostluq münasibətlərinə xüsusi önəm verən ölkələrin önündə gedir. 1991-ci ilin 12 dekabrında Azərbaycanın müstəqilliyini tanıyan Pakistanı bu məsələdə yalnız Türkiyə qabaqlaya bilib. 1993-cü il aprelin 30-da "Dağlıq Qarabağ münaqişəsi" ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin qəbul edildiyi iclasa Pakistan sədrlik edib. Pakistan BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. Azərbaycana qarşı hərbi təcavüzə etiraz əlaməti olaraq bu günədək Ermənistanla diplomatik münasibətlər qurmayıb. Azərbaycan da öz növbəsində bütün beynəlxalq platformalarda Kəşmir probleminin ədalətli həlli üçün dəstəyini əsirgəmir. 44 günlük Vətən müharibəsi zamanı Pakistan Azərbaycanın haqq işini daim dəstəkləyib, Azərbaycan Ordusunun işğal olunmuş əraziləri azad etməsini böyük ruh yüksəkliyi ilə alqışlayıb. Müharibədən az sonra Azərbaycana səfər edən Pakistan Quru Qoşunlarının komandanı, ordu generalı Qamar Caved Bacva "Azərbaycanın Qarabağ müharibəsində qələbəsi və öz ərazi bütövlüyünü bərpa etməsi hər bir müsəlman, hər bir pakistanlı üçün möhtəşəm hadisədir" – deməsi, ümumilikdə, Pakistanın Azərbaycana münasibətini tam şəkildə açıqlayır.

Vətən savaşından sonra bu münasibətlər daha da yaxınlaşıb. Türkiyə – Pakistan –Azərbaycan formatında ölkə rəhbərləri, parlament, hərbi və diplomatik heyətlər arasında üçtərəfli görüşlər keçirilib və müvafiq sənədlərin imzalanması ilə müttəfiqlik münasibətlərinin yaradılmasına və möhkəmləndirilməsinə başlanılıb. Bu format ilk olaraq 2017-ci ilin noyabrında Azərbaycan, Türkiyə və Pakistan xarici işlər nazirlərinin Bakıda ilk üçtərəfli görüşü zamanı rəsmiləşib.

Dünya miqyasında ədalətli mövqeyin müdafiəsi kontekstində Vətən müharibəsi zamanı Türkiyə və Pakistanın mənəvi-siyasi dəstəyi Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi. 44 günlük müharibə zamanı üçtərəfli format güc sınağından uğurla çıxaraq özünü həqiqi dostların ittifaqı kimi təsdiqlədi. Bu dəstək müharibədən sonrakı dövrdə də davam edir. Türkiyə və Pakistan işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və burada genişmiqyaslı bərpa işlərinin aparılması üçün Azərbaycana lazımi kömək göstərir. Bir sözlə, Bakı ilə İslamabad arasında müttəfiqlik əlaqələrinin qurulması, həmrəylik, ikitərəfli səmimi qardaşlıq və dostluq əlaqələrinin genişləndirilməsi hər üç ölkənin həyati maraqlarına cavab verir. İqtisadi sahədə də əlaqələrin inkişafı üçün ciddi potensial var.

Hazırda iki ölkə hökumətləri ticarət, investisiya, sənaye, enerji, nəqliyyat və nəqliyyat dəhlizlərinin praktiki məsələləri ilə məşğuldurlar, ikitərəfli ticarətin və birgə investisiyaların genişləndirilməsi istiqamətində planlar ardıcıl şəkildə həyata keçirilir. Pakistan hökuməti Azərbaycan şirkətlərinin ölkəyə sərmayə qoymasında çox maraqlıdır. Azərbaycanda sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində çox sayda Pakistan şirkətləri qeydiyyatdan keçib. Eyni zamanda, Pakistan şirkətləri azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərində iştirak etmək üçün də müraciət ediblər. Prezident İlham Əliyev səfər çərçivəsində keçirilən görüşlərdə vurğulayıb ki, Azərbaycan Pakistanla ticari-iqtisadi əlaqələrin genişləndirilməsini vacib hesab edir.

Prezident İlham Əliyevin Pakistan səfəri Azərbaycan diplomatiya tarixində xüsusi iz buraxmaqla yanaşı, həm də iqtisadi, geosiyasi baxımdan müstəsna rol oynadı. Səfərin mahiyyəti və imzalanan sənədlər nüvə dövləti olaraq qlobal arenada xüsusi çəkisi olan Pakistan kimi qüdrətli bir ölkə ilə Azərbaycanın strateji müttəfiqliyini daha yüksək səviyyəyə qaldırdı. Eyni zamanda, bu səfər Prezident İlham Əliyevin dünyada sülhə, barışa, bölgədə inkişafa yönəlik mükəmməl xarici siyasətinin zirvə nöqtəsi kimi yadda qaldı. Şübhə yoxdur ki, Prezident İlham Əliyevin Pakistana budəfəki səfəri uzunmüddətli perspektivdə əməkdaşlığın genişlənməsinə və dərinləşməsinə töhfə verəcək, həm ikitərəfli əsasda, həm də yeni əməkdaşlıq formatları çərçivəsində ölkələrimiz arasında münasibətlərə yeni məzmun və keyfiyyət gətirəcək.

Artıq bir neçə gündür ki, Prezident İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri bu ölkənin nüfuzlu media orqanlarının diqqət mərkəzindədir.

İngilis dilində nəşr olunan "The Express Tribune" qəzeti "Pakistanla Azərbaycan arasında əlaqələrin möhkəmləndirilməsinə dair 15 sənəd imzalanıb"; "Whenewsenenglish" nəşrinin "Azərbaycan Prezidenti İlham Əliyev İslamabada iqtisadi əməkdaşlıq gündəliyi ilə gəlib" və "The İnternational News" qəzetinin "Azərbaycan Prezidenti Pakistanda iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edir" sərlövhəli məqalələrində vurğulanır ki, iki ölkə energetika, infrastruktur, nəqliyyat daşımaları və bir sıra digər sahələrdə, o cümlədən müdafiə sənayesində bir sıra layihələri nəzərdən keçirib. Hər iki ölkənin Xarici İşlər nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu, tranzit və preferensial ticarət, mineral ehtiyatlar və geologiya, informasiya texnologiyaları və kommunikasiyalar, elm və texnologiya, kiçik və orta sahibkarlıq və digər sahələr üzrə sazişlər imzalanıb, həmçinin 2024-2029-cu illər üzrə mədəni mübadilə proqramı təsdiqlənib.

Səfər çərçivəsində imzalanmış sənədlərin Bakı ilə İslamabad arasında möhkəm dostluq və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafı üçün yeni perspektivlər açacağı şübhəsizdir. Bu gün Pakistan – Azərbaycan əlaqələri təbii səbəblərdən inkişaf edir və iki ölkəni yaxınlaşdıran bir çox amillər vardır. Əlbəttə, burada son illərdə Azərbaycanın artan diplomatik fəallığı və siyasi nüfuzunun da ciddi rol oynadığı danılmazdır. Prezident Əliyevin son səfəri ilə Pakistan – Azərbaycan əlaqələri yeni bir mərhələyə qədəm qoyub. Hindistan – Ermənistan yaxınlaşması və son illərdə Qərblə münasibətlərin soyuqlaşması Pakistanı Şərq blokuna daha çox yaxınlaşdırıb. Bu onunla eyni siyasi xətti izləyən Türkiyə və Azərbaycanla müttəfiqlik münasibətlərinin daha da dərinləşdirilməsi üçün əsas yaradır. Bu baxımdan, Azərbaycan Prezidenti Pakistana yalnız dost müsəlman ölkəsinin lideri və ya bir tərəfdaş ölkənin başçısı kimi deyil, həm də Pakistanla eyni geopolitik xətdə hərəkət edən müttəfiq və dost ölkənin rəhbəri kimi səfərə gedib.

Bütün bunlarla yanaşı Pakistan və Azərbaycan münasibətləri sadəcə bu günün reallığına əsaslanmır. Xalqlarımız arasındakı tarixi-mənəvi bağlılıqlar da bu münasibətlərin mahiyyətində özünə yer alır. Tarixən Qaraqoyunlular, Qızılbaşlar, Əfşarlar və sair türkmən tayfa birlikləri Hind coğrafiyasına İslamı yaymaqla uzun illər bu coğrafiyada müxtəlif dövlətlər quraraq fəaliyyət göstəriblər. Bu gün də Pakistanda bir çox ali rütbəli dövlət xadimləri, generallar, ictimai-siyasi və mədəniyyət xadimləri arasında Azərbaycan əsilli, türkmən tayfalarından olan şəxslər var.

Pakistanın 3-cü prezidenti, general Yəhya xan Qızılbaş, Pakistan kəşfiyyat xidmətinin rəhbəri və prezident katibliyin rəisi olmuş Ağa Şövkət Əli, hüquqşünas, insan hüquqları müdafiəçisi və Pakistan Qadın Fəaliyyət Forumunun qurucu üzvü Şahtac xanım Qızılbaş, Hərbi Hava Qüvvələrinin keçmiş rəisi Sayed Babar Əli, general Hüseyn Mehdi, Pakistanın Baş naziri, maliyyə naziri və Fransadakı səfiri işləmiş Müzəffər Əli Qızılbaş və onlarca digər yüksək vəzifələr tutmuş şəxsiyyətlərin bir qismi türkmən-qızılbaş əsilli, bir qismi isə tarixən Azərbaycan torpaqlarından köçmüş ailələrin nümayəndələri olublar. Bu mənada Pakistan – Azərbaycan münasibətlərinin həm də mənəvi kökləri var ki, bu da münasibətlərin doğmalığını təmin edən əsas amillərdən biri hesab oluna bilər.

Ümummilli lider Heydər Əliyevin 1996-cı ilin aprelində Pakistana səfəri çərçivəsində o vaxtkı Baş nazir Bənazir Bhutto ilə görüşü zamanı dostluq və əməkdaşlıq, ticarət, vergi, səhiyyə, turizm haqqında sazişlərin əks olunduğu 9 ikitərəfli sənəd imzalanmışdı.

Prezident İlham Əliyev bu səfərindən öncə 2017-ci ilin aprelində Nəvaz Şərifin hökuməti dövründə Pakistana səfər edib. Bu səfər İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü Zirvə toplantısı ilə bağlı olmuşdu.

Prezident İlham Əliyevin İslamabada bu günlərdə baş tutan səfəri isə təkcə Azərbaycan və Pakistanın deyil, bütün dünya mətbuatının gündəmində əsas xəbərlərdən birinə çevrildi. Səfər zamanı Prezident İlham Əliyevin təyyarəsinin Pakistanın Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələri tərəfindən qarşılanması və enənədək müşayiət edilməsi, dövlətimizin başçısının şərəfinə toplardan yaylım atəşi açılması, Azərbaycana və onun liderinə olan dərin hörmətin və ehtiramın təzahürü idi.

Prezident İlham Əliyevin beynəlxalq səviyyədə geniş maraq doğuran Pakistan səfərini ölkələrimiz arasında qardaşlıq münasibətlərinin və yüksək səviyyəli əməkdaşlığın yeni dövrünün başlanğıcı hesab etmək olar.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı,***
***fəlsəfə doktoru***

# Səfir, yoxsa qərəzli "hüquq müdafiəçisi"?

## Tehranın İrəvandakı ali diplomatik təmsilçisinə bəzi xatırlatmalar

**İranın Ermənistandakı səfiri Mehdi Sobhani "Azadlıq" radiostansiyasına müsahibəsində bildirib ki, Qarabağın erməni əhalisi bölgəni könüllü şəkildə tərk etməyib və ona görə də onların evlərinə qayıtmaları üçün şərait yaratmaq lazımdır.**



Əlbəttə, cənab Sobhaninin belə bir məsələyə münasibət bildirməsi maraqlıdır. O anlamdakı ki, hazırda istər Ermənistan hakimiyyəti, istərsə də xaricdəki ermənipərəst dairələr Qarabağ ermənilərinin qayıdışı məsələsi üzərinə fokuslanıblar. Belə təəssürat var ki, onlar Azərbaycanla Ermənistan arasındakı sülh gündəminə yeni element əlavə etməyi düşünürlər. İran səfiri isə bundan xəbərsiz olmaya bilməz. Daha dəqiq desək, xəbərsiz olmamalıdır. O zaman, necə başa düşək? Bir halda ki, ali diplomatik təmsilçilər öz ölkələrinin mövqelərini çatdırırlar, deməli, rəsmi Tehran da haqqında söz açdığımız dairələrin düşərgəsindədir? Suala birmənalı cavab vermək doğru sayılmaz. Hadisələrin axarını gözləmək lazımdır. Amma hələlik cənab Sobhaninin başqa nələri dilə gətirdiyinə diqqət yetirməklə, səfirin siyasi menyusu üçün də bəzi xatırlatmalar etməyi düşünürük.

Bəli, İranın Ermənistandakı səfirini, müəyyən mənada, haqlı saymaq mümkündür. Çünki Qarabağ erməniləri bölgədən könüllü surətdə çıxmayıblar. Elementar məntiq var. Heç kəs öz yaşadığı evi qoyub getmək istəməz. Otuz il əvvəl azərbaycanlılar da doğma yurd-yuvalarını tərk etmək istəməmişdilər. Ancaq... Deməli, əsas məsələ, əsl həqiqət ayrı-ayrı nüanslarda gizlənir, yaxud gizlədilir. Ortaya isə tamam başqa - haqsız və ədalətsiz mənzərə çıxarılır. Görəsən, Sobhani bu mənzərənin harasındadır?

Birincisi, Qarabağın erməni sakinləri ərazidən Ermənistan hakimiyyətinin və hazırda canını tapşırmış Qarabağdakı sabiq separatçı rejim rəhbərliyinin təhriki ilə uzaqlaşıblar. O zaman hər şey aydın idi. Rəsmi İrəvan və onun havadarları Qarabağ məsələsini, belə demək mümkünsə, erməni avantürizminin niskilinə çevirib, etnik təmizləmə şousu yaradıb Azərbaycana qarşı anti-təbliğat aparmağı düşünürdülər və planlarını reallaşdırdılar da. Onlar hesab edirdilər ki, əgər Qarabağ ermənisizləşdirilsə bu, rəsmi Bakıya qarşı beynəlxalq təzyiqlərin göstərilməsinə əsas verəcək. Beynəlxalq təzyiq isə ona görə lazım idi ki, Qarabağın erməni əhalisinə xüsusi status verilsin. Elə bir status ki, ölkəmizin konstitusyon quruluşunu heçə saymaq, şübhələndimək mümkünləşsin. Lakin həmin vaxt bu istək yerinə yetmədi. Yəni, avantüra beynəlxalq dəstək qazanmadı.

İkincisi, konstitusyon quruluşundan söz düşmüşkən, Azərbaycan 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri həyata keçirməklə ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Buna ən sonda gedildi. Rəsmi Bakının Qarabağ ermənilərinin ölkəmizə inteqrasiyası ilə bağlı təkliflərinə, çağırışlarına məhəl qoyulmayanda, başqa çıxış yolu qalmadı.

Yada salaq ki, antiterror tədbirlərindən sonra da Azərbaycan dövləti Qarabağ ermənilərini bölgədən uzaqlaşmamağa, ölkəmizin vətəndaşlığını daşımağa səslədi. Bu təklifə də məhəl qoyulmadı və bölgədən kütləvi köç başlandı. Yəni ki, Qarabağ erməniləri ölkəmizin çağırışını deyil, Ermənistan iqtidarının tələbini yerinə yetirdilər. Dolayısı ilə rəsmi İrəvanın alətinə çevrilməyə razılıq vermiş oldular. Əsl mahiyyət budur və cənab Sobhani də fikir bildirərkən məsələni nəzərə almalıdır.

Bəli, səfir nəzərə almalıdır ki, mövzuya dair hansısa açıqlama, daha doğrusu, Qarabağ ermənilərinin evlərinə qayıtmaları xüsusundakı fikir ənənəvi surətdə gündəmə gətirilən "Qarabağda etnik təmizləmə" kimi saxta klişeyə xidmətdir. Axı ortaya adi sual çıxır: Qarabağ erməniləri getmişdilərsə, niyə qayıtmaq istəyirlər? Elə əvvəldən qalıb evlərində yaşaya bilərdilər və yaşayanlar da var.

Doğrudur, İranın Ermənistandakı səfiri ölkəsinin Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşdığını bəyan edir. Ancaq: "Bizim Qarabağ sakinlərinin hüquqları ilə bağlı mövqeyimiz aydındır. Biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq və bunu vurğulayırıq. Lakin eyni zamanda hesab edirik ki, Qarabağın erməni sakinlərinin hüquqlarına hörmət edilməlidir. Bu sual yara kimidir və yaranın sağalması lazımdır. Əgər yara sağalmasa, bəlkə yenidən açılacaq. Ümid edirik ki, Qarabağ sakinləri evlərini tərk etmək məcburiyyətində qaldıqları kimi, onların könüllü olaraq öz evlərinə qayıtmaları üçün də şərait yaradılacaq".

M.Sobhaninin yara məntiqini anlamaq çətindir. Hesab edirik ki, cənab səfirin diqqətinə yalnız bir müqayisəni çatdırmaqla onun da baxış bucağını yeniləmək mümkündür. Götürək, İranda yaşayan qeyri millətləri. Onların sayı kifayət qədər çoxdur. Həmin millətlərin hər biri İran konstitusiyasına hörmətlə yanaşır və yanaşmağa borcludur. Çünki ölkənin vətəndaşlarıdırlar. O zaman sual yaranır: Qarabağın erməni sakinləri İranın ərazi bütövlüyünü tanıdığı Azərbaycanın vətəndaşı olmağa hazırdırlarmı? Nə zamansa hazır olublarmı? Ölkəmiz nə vaxt onların hüquqularını pozdu ki, ərazini tərk etmək qərarına gəldilər? Əgər rəsmi Bakı insan hüquq və azadlıqlarına hörmətsizlik kontekstində Qarabağın erməni sakinlərinə qarşı hansısa xoşagəlməz hərəkət reallaşdırsaydı, o zaman cənab Sobhaninin fikirlərini haradasa haqlı saymaq olardı. Hələ hər bir dövlətin özündə baş qaldıran asiliyə münasibətdə tədbir görmək hüququnu qabardıb, İranda kütləvi iğtişaş törətdiyi iddia edilənlərə qarşı nə üçün sərt tədbirlərin reallaşdırıldığını mübahisələndirmirik. Biz mübahisələndirmədiyimiz kimi, Tehran rəsmisi də eyni cür davranmalıdır.

Digər tərəfdən, M.Sobhani Qarabağın erməni əhalisinin təhlükəsizliyinin təminatının zəruriliyini qeyd edərək belə deyib: "Təbii ki, onların ərazidən çıxmalarının əsas səbəbi özlərini təhlükəsiz hiss etməmələri olub. Qaçqınlar gələndə mən şəxsən Qarabağ camaatı ilə əlaqə saxladım. Qafana getdim, onlarla söhbətləşdim, dedilər ki, "öz istəyimizlə evimizi tərk etməmişik". Heç kim evini könüllü tərk etmir. Onlar özlərini təhlükəsiz hiss etmədiklərini və bu səbəbdən evlərindən çıxdıqlarını bildiriblər. Onlar könüllü gəlməyiblər, amma ümid bəsləyirik ki, evlərinə könüllü qayıtmaları üçün şərait yaradılacaq".

İndi nə edək? Cənab Sobhaninin diqqətinə Qarabağ ermənilərinin ərazidən çıxarkən Azərbaycanın media orqanlarına açıqlamalarınımı çatdıraq? Axı bu adamlar bölgəni öz xoşları ilə tərk etdiklərini bildirirdilər. Azərbaycanın hakimiyyət orqanları bir yana, onlar heç Ermənistan hakimiyyətinin də bu məsələdə hansısa məcburedici rol oynadığını dilə gətirmirdilər. Əgər həqiqətən də dözülməz durum var idisə, danışardılar, fikirlərini bölüşərdilər. Bunu etməyib, sonra Qafanda Sobhaniyə nə isə deyiblərsə, məsələ ilə bağlı fikir bildirmək qəlizləşir. Başqa bir sual yaranır: Qarabağın erməni əhalisinin təhlükəsizliyini hansı tərəf təmin etməlidir? Hər halda Sobhani bildirmir ki, missiyanı gerçəkləşdirməli olan Azərbaycan hakimiyyətidir. Məsələn, o açıq-aşkar deyə bilər ki, İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır və buna görə hesab edir ki, Qarabağ erməniləri rəsmi Bakının təhlükəsizlik təminatlarına etibar etməlidirlər. Məgər İran əhalisinin təhlükəsizliyinin təminatçısı rəsmi Tehran deyil? Əlbəttə ki, Tehrandır, ümumən İranın hakimiyyət orqanlarıdır. Elə isə olmazdımı ki, cənab Sobhani diplomatik mücərrədçilikdən uzaq dayanaydı? Görünür olmazmış.

Olmazmış və mövcud durumda İranın Ermənistandakı səfiri erməni avantürizminin ənənəvi anti-Azərbaycan ritorikasının elementlərinə siyasi sərmayə yatırmış ampluasında görünür. Belə bir sərmayə Tehrana lazımdırmı və ya nə dərəcədə lazımdır? Yaxud nə üçün lazımdır? Əslində, suallar çoxdur. Cənab Sobhaniyə ünvanlanmış suallar da həmçinin. Onlarda birini diqqətə çatdıraq. Məsələn, səfirdən soruşulur ki, Qarabağ ermənilərinin təhlükəsiz şəraitdə yaşamaları üçün onlara müəyyən dərəcədə muxtariyyət verilməsinə necə yanaşır? Təsəvvür edin ki, suala bir qədər fərqli qoyuluşda Azərbaycanın Tehrandakı səfiri cavab verir. Yəni, İranda milli azlıqlara muxtariyyət verilməsi məsələsinə münasibət bildirir. Belə şeyə münasibət bildirmək absurd deyilmi? Ancaq cənab Sobhani sualı absurd saymır və guya diplomatiliyini qoruyaraq deyir ki, məsələ ilə bağlı danışıqlar və dialoq aparılmalıdır. "Orada şərait necə olursa-olsun, bununla bağlı dialoq və danışıqlar aparılmalıdır. Onlar qərar versin, siz yox. Düşünürəm ki, onlar danışıqlar aparmalıdırlar", - deyən səfirin danışıqların kimlər arasında və kimlər tərəfindən aparılmalı olduğu barədə dəqiqləşdirici suala cavabı da mücərrəddir: "Bunun necə başlaması iki tərəf arasında razılaşma məsələsidir. Məqsəd sizin qeyd etdiyiniz təhlükəsizlik və onların (Qarabağ ermənilərinin – red.) hüquqlarını qorumaq olmalıdır".

Bəli, məlum deyil ki, Sobhaninin tərəf paradiqmasında dayanan kimlərdir? Ancaq bir şey aydındır ki, İranın Ermənistandakı səfiri ortaya konkret mövqe qoymamaqla, ümumən həm erməni avantürası üçün illüziya verir, həm də ölkəsinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət kateqoriyasına mənasız, beynəlxalq hüquqa zidd alt kateqoriyalar gətirir ki, bu isə qətiyyən yolverilməzdir. İnanaq və arzulayaq ki, cənab Sobhani növbəti dəfə "Azadlıq " radiosunun mikrafonu qarşısına çıxanda siyasi manipulyasiyalar üçün alət ola biləcək, ölkəsinin mövqeyini şübhə altına alacaq fikirlərin işlədilməsindən uzaq dayanacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yolunu azan Hayastan

## Hindistanın Azərbaycan–Türkiyə–Pakistan hərbi-siyasi ittifaqına qarşı “erməni qalxanı”



– Dünən Ermənistan və ABŞ arasında birgə hərbi təlimlər başlayıb. Erməni şərhçilər məmnunluqla qeyd ediblər ki, amerikalılar Gürcüstanla analoji manevrləri ləğv ediblər;

– Baş nazir Paşinyan Vaşinqtonla münasibətləri “strateji tərəfdaşlıq” səviyyəsinə qaldırmağın məqamı çatdığını bildirib;

– Erməni mediası İrəvanın Hindistandan 500 kilometr mənzilli “Pralay” operativ-taktiki raketlərinin alınması ilə bağlı danışıqlar apardığı və “BrahMos” səsdən iti raketlərinə (uçuş məsafəsi 1000 kilometr) maraq göstərdiyi barədə məlumatlar yayıb;

– Hindistan Ermənistanla hərbi-siyasi tərəfdaşlığı daha da dərinləşdirir.

* * *

Az qala, müharibə xronikasını xatırladan bu xəbərləri hay mediası gen-bol tirajlamaqla məşğuldur. Məqsədin Ermənistanın güclənən “hərbi qüdrətini”, eləcə də bu yöndə böyük güclərdən aldığı dəstəyi qonşularına nümayiş etdirmək olduğu məlumdur. Bəs rəsmi İrəvan bununla son nəticədə nəyə nail olmağa çalışır? Bu sualın daha məntiqi cavabını hindistanlı ekspertlər verirlər. Onların fikrincə, Dehli ilə İrəvan arasında hərbi-texniki əməkdaşlığı və Ermənistanın silahlandırılması Türkiyə, Pakistan və Azərbaycan arasında son illərdə möhkəmlənən müttəfiqlik münasibətləri ilə bağlıdır. Bu yeni “üçlük” Hindistanın maraqları üçün təhlükə hesab olunur və Dehli Ermənistana hərbi-texniki dəstək verməklə onu gücləndirməyə çalışır. Yəni, Hindistan Azərbaycanın Türkiyə və Pakistanla hərbi-siyasi ittifaqının genişlənməsinə qarşı “erməni strategiyası”nı işə salıb.

“Indian Defence Updates”in məlumatına görə, Banqalor ştatında odlu silahların istehsalı üzrə ixtisaslaşan “SSS Defence” şirkəti Ermənistana 338 “Lapua Magnum” çaplı snayper tüfənglərinin tədarükü ilə bağlı müqaviləni nəinki bağlayıb, hətta onu yerinə yetirib. Hindistan silah tədarükü ilə yanaşı, müharibədə darmadağın edilmiş Ermənistan ordusunun bərpası ilə də məşğuldur. Bu ilin mayında Dehli rəsmiləri ilk dəfə Ermənistanla müdafiə məsələləri üzrə ikitərəfli məsləhətləşmələr aparıblar. Hindistan nümayəndə heyətinə bu ölkənin Müdafiə Nazirliyinin beynəlxalq əməkdaşlıq üzrə katibi Vişveş Neqi, Ermənistan nümayəndə heyətinə isə nazirliyin müdafiə siyasəti və beynəlxalq əməkdaşlıq departamentinin rəhbəri Levon Ayvazyan başçılıq ediblər. Məsləhətləşmələr zamanı Ermənistan və Hindistan arasında müdafiə sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri, o cümlədən şəxsi heyətin hərbi-texniki, hərbi-təhsil və döyüş hazırlığı, təcrübə mübadiləsi və digər mövzular müzakirə edilib.

Hindistanın ekspert dairələri Dehli ilə İrəvan arasında hərbi-texniki əməkdaşlığı, Ermənistanın silahlandırılmasını Türkiyə, Pakistan və Azərbaycan arasında son illərdə möhkəmlənən hərbi müttəfiqlik münasibətləri ilə izah edirlər. Rəsmi Dehlinin fikrincə, bu ittifaq Hindistanın maraqlarına təhlükə hesab olunur.

* * *

Aydındır ki, Hindistan və Ermənistan arasında intensiv hərbi əməkdaşlıq Bakının haqlı narazılığına səbəb olduğu kimi, Moskvada da qıcıq yaratmaya bilməz. Ermənistan guya Rusiyadan silah asılılığını aradan qaldırmaqla Qərblə yaxınlaşma sayasində daha çox manevr imkanları əldə edir. Ümumiyyətlə, Rusiya Cənubi Qafqazda Hindistan kimi böyük geosiyasi oyunçunu görməyi arzulamır. İntəhası, Moskva Hindistan–Ermənistan əlaqələrinə rəsmən reaksiya verməməyə çalışır. Amma İrəvanla Qərb arasında hərbi əməkdaşlığın hər hansı təzahürünə, xüsusən Ermənistanın Fransadan və digər NATO ölkələrindən silah almasına son dərəcə qısqanc yanaşır. Pakistanla dostluq və qardaşlıq münasibətlərinə görə Azərbaycana arxa çevirən Hindistan nəinki xaricə silah ixrac edir, həm də bir çox silah növlərini Rusiyadan alır. Dehli Ermənistanı silahlandırmaqla, dolayısı ilə, kollektiv Qərbin “Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq” strategiyasını dəstəkləyir. Hindistanın hərbi sənaye kompleksi əsasən sovet və rus hərbi texnologiyalarına əsaslanır. Çin və Pakistan kimi güclü düşmənləri olan Hindistanın hava qüvvələrini və hava hücumundan müdafiə sistemlərini gücləndirmək üçün Rusiyanın köməyinə ehtiyacı var. Bu məsələ Baş nazir Narendra Modinin Moskvaya son səfəri zamanı vurğulanıb. Rusiya sorğuya baxacağına söz versə də, dəqiq müddəti göstərməyib.

Bir yandan Rusiyaya arxa çevirən, ABŞ ilə birgə hərbi təlimlər keçirən, NATO ilə münasibətlərini “istiləşdirməyə” çalışan Ermənistan, digər tərəfdən Şimali Atlantika Alyansına əks qütbdə yer alan ölkələrlə hərbi əməkdaşlıq edir. İrəvanda bu “taktika” Ermənistanın Qərbdən dəstək alması, hətta onu Qafqazdakı əsas tərəfdaşına çevirməsi istiqamətində atılan addım kimi qəbul edilir. Əslində isə bu, xəyalpərəst düşüncələrdən xilas ola bilməməyin fəsadlarıdır. Reallıq isə ondan ibarətdir ki, Qərbin Ermənistana marağı, əsasən, ondan Rusiya ilə qarşıdurmada istifadə etməkdən irəli gəlir. NATO-nun Vaşinqton Sammitinin nümayiş etdirdiyi kimi, dünyada kollektiv Qərbin imkanları və ambisiyaları getdikcə daralmaqdadır.

Keçən həftə Azərbaycan XİN başçısının da iştirak etdiyi NATO Sammiti bu alyansın Avropadan və Asiya–Sakit okean hövzəsindən kənarda ciddi müdaxilə üçün resurslarının olmamasından xəbər verirdi. Qafqazla ikibaşlı oyun oynayan alyansçılar və Qərb düşərgəsi indi daha çox öz gələcəyindən narahatdırlar. Gündəmdə NATO-nun qurucusu və lideri kimi ABŞ-nin parçalanması və zəifləməsi məsələsi durur.

Bəs Paşinyan Azərbaycanla sülhə gəlmək, qonşu ölkələrlə münasibətləri normallaşdırmaq əvəzinə NATO və ABŞ ilə hərbi əməkdaşlığı inkişaf etdirməyə güvənərək nəyə ümid edir? Təəssüf ki, o, onun komandası hələ də tipik Şərqi Avropa liberal siyasətçilərinin problemlərini təkbaşına həll etməyə qadir olan qüdrətli Qərb haqqında utopik fikirlərin əsiridir. Onlar anlamaq istəmirlər ki, “o Qərb” artıq yoxdur və ya, bəlkə də, heç vaxt olmayıb.

* * *

Bu həftənin sonu, iyulun 22-də Aİ ölkələrinin xarici işlər nazirləri büdcədənkənar “Avropa Sülh Fondu”ndan (ASF) Ermənistana on milyon avro vəsaitin ayrılması prosedurunu tamamlayacaqlar. Erməni isteblişmentindəki revanşist ünsürlər bunun yalnız “birinci” tranş olduğunu deyirlər. Fəqət, gələcəkdə bu “ianənin” artacağı ehtimalı azdır. ASF-nin pulu, yəqin ki, Fransanın Paşinyana verdiyi “hədiyyələr”ə görə kompensasiyaya gedəcək. Ümumiyyətlə, cəmi on milyon avro Ermənistanın Qərbin siyasi palitrasındakı yerini aydın şəkildə göstərir. Nəzəri cəhətdən, Aİ Cənubi Qafqazda daha “aktiv siyasətə” başlaya bilər. Belə kiçik məbləğlər isə bəlkə, erməni ekspansionizmini canlandırmaq üçün kifayət edər. Qərb yolunu azmış Hayastanın ideoloji ehtiyacını ödəyə bilər. Ona bu işdə erməni diasporunun yaxından kömək edəcəyi şübhəsizdir.

Yolunu azmışın siyasətinin gec-tez iflasa uğrayacağı aksiomdur. Onu yanlış səmtə yönəldən Aİ-nin timsalında həmin Qərbin də sonda Azərbaycanın ayağına gələcəyi heç kəsdə şübhə doğurmamalıdır. Çünki obyektiv ehtiyacın ödənməsinə məhəl qoyulmaması mümkünsüzdür. İqtisadiyyat onu Azərbaycan, Türkiyə, eləcə də Gürcüstanla əməkdaşlığa məcbur edəcək.

* * *

Beləliklə, hər şeydən göründüyü kimi, kollektiv Qərb diqqəti Çin və Rusiyaya yönəltmək, digər istiqamətlərə müdaxilələri azaltmaq üçün özünün strateji planlarına yenidən baxır. Bu zaman, təbii ki, Qərbin bəzi dövlətləri və birlikləri tərəfindən Cənubi Qafqazda münasibətlərin normallaşması, əməkdaşlığın bərpası prosesinə problemlərin yaradılmasını istisna etmək olmaz. Fəqət, son dörd ilin təcrübəsi göstərdi ki, bu cür təxribatçı-dağıdıcı cəhdlər uğursuzluğa məhkumdur. Ən azı, ona görə ki, həmin kollektiv Qərbin Cənubi Qafqaza əvvəlki müdaxilə imkanları daha yoxdur. Üstəlik, mövcud reallıq, eləcə də Aİ-yə üzv ölkələrin özəl maraqları onları regionda yeni tərəfdaşlar və rollar axtarışına çıxmağa sövq edir. Bu zaman üzlərini hansı səmtə çevrilsələr də, onların önündə qarşılıqlı faydalı tərəfdaşlığa açıq olan Azərbaycan duracaq. Söhbət təkcə Bakının qazandığı siyasi nüfuzdan, malik oldyuğu iqtisadi və strateji resurslardan getmir. Axı Aİ ölkələrinin regiondakı maraqlarına Rusiya və İranın nəzarətində olan alternativ marşrutların bağlanması fonunda Azərbaycan Xəzərin və Mərkəzi Asiyanın resurslarının tranzit marşrutlarına malikdir. Azərbaycan bölgədə məhz bu cür çıxışı təmin edən əsas ölkədir və onun alternativi yoxdur.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Görünən odur ki, Dehli Pakistanın Qafqaz regionunda güclənməsindən narahatdır. Eyni zamanda Azərbaycan–Türkiyə–Pakistan alyansının yaranmasının bu narahatlığı artırdığı şübhəsizdir. Amma onu qeyd etməliyik ki, Azərbaycanın da daxil olduğu “üçlük” heç kəsə, xüsusilə də, Hindistana qarşı deyil. Biz sülh istiqamətində öz təkliflərimizi irəli sürmüşük. Hərbi cəhətdən ona görə güclənirik ki, torpaqlarımız otuz il ərzində işğal altında qalmışdı. Bu müddətdə heç bir dövlət bizə kömək əlini uzatmadı. Doğrudur, beynəlxalq təşkilatlar bizim xeyrimizə, işğalçıya qarşı bir neçə qətnamə çıxardı, amma real və konkret addımlar atılmırdı. Problemi özümüz həll etdik, tarixi ədalət bərpa olundu və bununla da bizim missiyamız bitdi.

İndi Ermənistan aldığı silahları kimə qarşı istifadə etmək barədə düşünür? Azərbaycana qarşı? Belə məlum olur ki, özünü “sülh göyərçini” cildində göstərməyə çalışan Nikol Paşinyan yenə silahlanır və Azərbaycana ərazi iddiaları irəli sürür. Yəni müharibəyə hazırlaşır. Yaxud da həmin revanşist qüvvələrin tələb və maraqlarına cavab verən addımlar atır. Bu, rəsmi İrəvan üçün olduqca təhlükəli bir siyasətdir. Ernmənistan başa düşməlidir ki, paralel olaraq, Azərbaycan da silahlanır. Bizim əldə etdiyimiz müasir silahlar texnoloji baxımdan onların aldıqlarından daha üstündür. Bu amili də yadlarından çıxarmasınlar. Heç nəyə də nail ola bilməyəcəklər.

Konstitusiyasında qonşulara ərazi iddiaları olan müddəaları aradan qaldırmayan, sülahlanan Ermənistan rəhbərliyini revanşistlərin yönəltdiyini ehtimal etmək olar. Təbii ki, biz bütün təhlükə və risklərə hazır olmalıyıq. Bu mənada Azərbaycan zəruri tədbirlərini görür və adekvat addımları da atır.

### Ekspert rəyi



**Arzu NAĞIYEV,**
**Milli Məclisin deputatı**

– İyulun 15-dən 24-dək Ermənistanda ABŞ ilə birgə hərbi təlimlər başlayıb. Bundan məqsəd Ermənistan ordusunun müəyyən bölükləri ilə Birləşmiş Ştatlar Silahlı Qüvvələrinin müvafiq qoşun növlərinin birgə manevrlər keçirmələridir. Həmin təlimlərdə Ermənistanın sülhməramlı briqadaları və ABŞ-nin Avropa və Afrikada dislokasiya olunmuş quru qoşunlarının və Kanzasın Milli Qvardiyasının hərbçilərinin iştirakı nəzərdə tutulub. Burada məqsədin, guya, münaqişə tərəfləri arasında toqquşmaların qarşısının alınmasında beynəlxalq təcrübənin öyrədilməsidir.

Amma diqqətlə baxanda məlum olur ki, bu hərbi təlimlərin əsas məqsədi nəyin bahasına olursa-olsun Ermənistan ərazisindəki Rusiya hərbi kontingentinin nüfuzunu aşağı salmaqdır. Bundan başqa, dünyaya nümayiş etdirilir ki, Ermənistan KTMT-dan çıxmaq istədikdən sonra məhz ABŞ-nin və Qərb dövlətlərinin orduları ilə birgə təlimlərə başlayırlar. Əlbəttə ki, buna Rusiya çox kəskin reaksiya verdi. Bildirdi ki, bu təlimlər sülhə deyil, əksinə, hansısa geosiyasi platformanın, hərbi platsdarmın yaradılmasına xidmət edir. Bu isə Cənubi Qafqazda sülhün bərqərar olmasına yalnız ziyan vura bilər.

Birgə təlimlər həm Rusiyanın, həm də İranın əleyhinədir. Bölgə ölkələrinin təhlükəsizliyinə təhdid də ola bilər. Azərbaycan da bu mümkün təhdidləri nəzərə alır və zərurət yaranacağı təqdirdə, adekvat tədbirlər görməyə hər cür imkanı var.

Ermənistanın Fransadan, indi də Hindistandan silahlar alması sönmüş münaqişə ocağının körüklənməsi kimi başa düşülməlidir. Qərb odla oynayır. Vasitəçisiz, birbaşa dialoqla sülhə gəlməyə çalışan tərəflərə öz varlığını məhz bu kimi yollarla göstərməyə çalışır. Kollektiv Qərb və ABŞ bu cəhdlərin hansı nəticələrə səbəb ola biləcəyini unutmamalıdır.

### Ekspert rəyi



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik,**
**hərbi ekspert**

– Hazırda Ermənistan və Azərbaycan müharibə vəziyyətindədirlər. Bu şəraitdə işğalçı qonşunun silahlanması, hərbi təlimləri, manevrləri Bakının diqqətindən yayına bilməz. Ermənistanın yürütdüyü Qərbyönlü siyasətini bölgə üçün potensial təhlükə saymaq olar. Çünki Ermənistan ərazisində Rusiya hərbi kontingenti var. Əgər buraya digər dövlətlərin müdaxiləsini geosiyasi baxımdan dəyərləndirsək, kənar qüvvələrin anti-Rusiya koalisiyasının öz maraqlarını genişləndirmək cəhdlərini görə bilərik. Kollektiv Qərb bölgədə öz maraqlarını Rusiyanın hesabına reallaşdırmaq məqsədini güdür. Moskva Avropa İttifaqının mülki missiyasının Ermənistanda yerləşməsinə özünün mənfi münasibətini bildirib.

Aydın məsələdir ki, ABŞ–Ermənistan birgə hərbi təlimləri də Rusiya tərəfindən müsbət qarşılanmayacaq. Bu isə regionda hadisələrin gərginliyə doğru inkişaf edəcəyini, təhlükəsizliyə təhdid yaradacağını söyləməyə əsas verir. Təlimlərin özünə gəldikdə isə bu zaman kəşfiyyat fəaliyyətinin aparılmasından danışa bilərik. Buraya İranın da narahatlığı əlavə olunmalıdır.

Heç kəsə sirr deyil ki, Ermənistan ordusunda orta komandir heyəti məhz Rusiyada təhsil alanlardır. Düşünürük ki, təlimlərin bir məqsədi də bu kontingenti etibarlılıq testindən keçirməkdir. Hindistana gəldikdə isə, bu dövlət bölgənin silah bazarındakı boşluqdan istifadə edərək, burada yer tutmağa çalışır. Amma onun istehsal etdiyi məhsullar beynəlxalq silah bazarında yüksək standartlara cavab vermir. Dehli snayper tüfənglərini ilk dəfədir ki, xaricə satır. Hindistanın Pakistanla strateji müttəfiq olan ölkələrə soyuq münasibət bəsləyənlərin yanında olması təbiidir. Yeni silahlar əldə edən Ermənistanın yerli mütəxəssislər üçün hərbi təlim və məşğələlər keçirməsi isə təəccüb doğurmamalıdır.

(əvvəli 1-ci səhifədə)

# “Qarabağ kartı”

Ermənistanda hərbi vətənpərvər seqmentin etimadını qazanmaq uğrunda yarışan qüvvələrin bir hissəsi Qarabağı Rusiya ilə münasibətləri bərpa etməklə geri qaytarmağa söz verirlər. Digərləri isə bunun Qərblə yaxınlıqla reallaşma üsullarını ortaya atırlar. İkincilər hansısa beynəlxalq təşkilatın və ya məhkəmənin qərarına, qətnamələrə söykənir, presedentlər axtarışına çıxıb müxtəlif interpretasiyalara baş vururlar. Məsələn, Kosovo variantını ortaya atanlar, yüksək muxtariyyət əldə etmə xüsusunu qabardanlar tapılır. Guya ki, Azərbaycan nəyəsə məcbur qalacaq.

“Qarabağ kartı” məsələsində Ermənistanın sırf intiqama köklənmiş siyasi kəsimi də var. Belələri “qisas alarkən” hazırda onları alqışlayanların da cəhənnəmə gedəcəklərini hamıdan gizlədir, ucuz populizmə güc verirlər. Ucuz populizmə güc verirlər ki, yeni müharibənin, bütövlükdə, Ermənistan dövlətçiliyinin itirilməsi riskini doğuracağını xalqdan gizlətsinlər. Elementar insan resursunu da nəzərə almırlar. Düşünmürlər ki, 2,7 milyonluq Ermənistan 10 milyonluq Azərbaycanla necə mübarizə aparacaq? Birinci Qarabağ müharibəsini yada salırlar. Həmin müharibədəki uğurun ermənilərin özləri tərəfindən qazanılmadığını tamamilə yaddan çıxarırlar. Bəlkə də sadəlövh deyillər. Axı yalnız bir istəkləri var ki, o da baş nazir N.Paşinyana qarşı keçiriləcək mitinqlər daha izdihamlı alınsın, aksiyalar iqtidarı devirmək gücünə sahib olsun.

Daha bir məqama diqqət yetirək. Söhbət dünyanın Cənubi Qafqaz bölgəsində marağı olan Fransa kimi qüvvələrinin Ermənistanı Azərbaycana qarşı yeni müharibəyə təhrikindən gedir. Şübhəsiz, müharibədən məqsəd də Qarabağdır. Sözügedən qüvvələr Qarabağ məsələsində erməni milli identikliyindən dəm vuraraq, ümumi mənzərəyə daha tünd çalarlar gətirmək yolunu tuturlar.

“Qarabağı qaytarmaq” ritorikasını diri tutmağa çalışanların növbəti tezisi bundan ibarətdir ki, Azərbaycan və Türkiyə üçün perspektivdə hansısa çətin zamanların yaranacağı dövrü gözləmək lazımdır. Beləleri sərsəmləyirlər ki, guya, hər iki ölkə daxilindəki milli azlıqlar üsyana qalxacaq, beləliklə parçalanma gedəcək və mövcud şəraitdə Ermənistan öz torpaq payını götürmək üçün əlverişli şans qazanacaq. Görəsən, hazırda Ermənistandan qat-qat güclü olan Türkiyəni və ya Azərbaycanı məhv edəcək hansı fəlakət baş verə bilər ki, erməni siyasilər buna ümid bəsləsinlər? Yaxud necə ola bilər ki, güclü siyasi fəlakət Azərbaycanı və Türkiyəni cənginə alsın, Ermənistandan yan ötsün? Hazırda beynəlxalq aləm, faktiki olaraq, Üçüncü dünya müharibəsi dövrünü xatırlatmaqdadır. Qərblə Rusiya arasında ziddiyyətlər özünün ən pik nöqtəsinə çatıb. Mövcud durumda nəyə görə Ermənistan Qarabağı əlində saxlaya bilmədi? Nə üçün beynəlxalq vəziyyət ölkənin xeyrinə işləmədi? Ermənistandakı müxalif revanşist-şovinist kəsim də, onun xaricdəki havadarları da bu sualların üstündən sükutla keçirlər. Çünki Azərbaycanın gücünü, qüdrətini, təmkinini etiraf etməyəcək qədər zavallı, miskin və rəzildirlər. Eyni keyfiyyətləri ilə ölkələrinə də oxşar aqibət formalaşdırırlar.

Qeyd edək ki, bütün vurğuladığımız meyillərlə yanaşı, Ermənistanda Qarabağ ermənilərinin qayıdışı məsələsində nisbətən real düşünənlərə də rast gəlinməkdədir. Bu kəsimin təmsilçiləri bildirirlər ki, hazırda sözügedən məsələni Bakının Qərbi Azərbaycan mövzusunu aktual tutmasının qarşısını almaq üçün gündəmdə saxlamaq lazımdır. Nəzərə alaq ki, Ermənistan ərazisi olan Qərbi Azərbaycandan köçkün düşmüş soydaşlarımızın sayı Qarabağı tərk etmiş ermənilərin sayından ən azı iki dəfə çoxdur. Praqmatik ermənilər bu sayın nə demək olduğunun fərqinə varırlar. Üstəlik, onu da bildirirlər ki, hazırda ermənilərlə azərbaycanlılar arasında düşmənçilik dərinləşdiyindən, bu iki xalqın genetik cəhətdən uyğunsuz olduğuna dair yetkin təsəvvür var. Yəni istənilən halda Azərbaycanda erməninin, Ermənistanda isə azərbaycanlının yaşaması mümkün deyil. Ən azından indi və gələcək illərdə.

Realist erməni siyasi kəsiminin təmsilçiləri bir qədər də həyəcan təbili çalaraq, eyni zamanda ənənəvi şivən ritorikalarını işə salaraq bildirirlər ki, Qarabağ ermənilərinin qayıdışı məsələsindən istifadə yalnız bir baxımdan faydalıdır – guya Azərbaycanın Ermənistanı işğalının qarşısını almaq üçün. Bu təxminən qabaqdangəlmişliyə oxşayır. Amma erməni siyasi düşüncə tərzi üçün təəccüblü məqam sayılmamalıdır.

Əlbəttə, işğal məntiqinin qabardılması tam mənasızdır. Müsbət hal isə odur ki, bu məntiqi qabardanlar ölkəmizin gücünü düzgün dəyərləndirirlər. Necə deyərlər, ilan ulduz görməsə, ölməz.

Qarabağ ermənilərinin bölgəyə qayıtmaları məsələsini irəli sürənlər sırasında ABŞ-nin, İranın, Fransanın, elə Rusiyanın özünün də bəzi rəsmi şəxsləri var. Haqqında söz açdığımız nisbətən mütərəqqi erməni kəsimin təmsilçilərinin sözlərinə görə, sözügedən ölkələr bu məqsədlə hansı əməli addımlar atmağa hazır olduqlarını bildirmirlər, boş-boş danışıqdan o tərəfə keçmirlər. Halbuki mövcud istiqamətdə aydın platformaları olmalıdır. Amma yoxdur.

Bəli, əvvəldə də diqqətə çatdırdığımız kimi, bəzi qüvvələr sırf Qarabağ erməniləri məsələsində Azərbaycana təzyiq göstərməyə çalışırlar. Ancaq beləleri yaxşı bilməli və dərk etməlidirlər ki, ölkəmizə qarşı əks gedişlərin heç biri keçməyəcək. Azərbaycan – Ermənistan sülh gündəminə sərsəm elementlər daxil etmək istəkləri uğur qazanmayacaq. Ona görə ki, rəsmi Bakı mövqeyində qətidir, əmindir. Sülh sazişinin imzalanmasına gəlincə, bu, yalnız İrəvanın üzərinə götürdüyü öhdəlikləri, şərtləri yerinə yetirəcəyi təqdirdə mümkündür.

***Ə.CAHANGİROĞLU***
***XQ***



# Milli Məclisə seçkilərə 46 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**İyulun 15-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

Əvvəlcə MSK-nın iyulun 12-də keçirilən iclasının protokolu təsdiqlənib.

Sonra sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokollarının hazırlanma qaydası və sayı məsələsinə baxılıb. Protokolların MSK tərəfindən müəyyənləşdirilmiş nümunələrin forma və mətninə uyğun olaraq, bir-bir ardıcıl nömrələnməklə və seriyaları göstərilməklə, 3 nüsxədən ibarət və hər bir nüsxəsi müxtəlif rəngdə karbonlaşdırılmış kağızdan buklet formasında olmaqla, dairə və məntəqə seçki komissiyaları üçün onların sayına uyğun hazırlanması qərara alınıb. Qərara əsasən, səsvermənin nəticələrinə dair protokollar, habelə aşağı seçki komissiyalarının hər biri üçün 30 ədəd nömrələnməmiş və karbonlaşdırılmamış kağızdan protokollar Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində mətbəə üsulu ilə hazırlanmalıdır.

İclasda daha sonra qarşıdan gələn Milli Məclisə növbədənkənar seçkilərdə Müasir Müsavat Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası və Müsavat Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verib.

Media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin cari məsələlərə baxılıb.

## Seçki hüququ ilə bağlı müraciətlər ciddi araşdırılacaq

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin yüksək səviyyədə təşkil olunması, demokratik azad və şəffaf keçirilməsi, o cümlədən müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının (MSK) Milli Məclisə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına uyğun genişmiqyaslı kampaniyası ardıcıl şəkildə davam edir.**



İyulun 15-də MSK-nın Milli Məclisə seçkilərlə əlaqədar fərqli istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən maarifləndirmə proqramı çərçivəsində növbəti tədbir ekspert qrupları üzvləri üçün təşkil edilmişdi. “Seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına” həsr olunan regional seminar ekspert qruplarının üzvlərinin bilik və bacarıqlarının, seçki prosesi zamanı qarşılaşdıqları problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Ümumrespublika miqyaslı layihə həm də qarşıdan gələn seçkilərdə vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasına, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

MSK sədrinin müavini Rövzət Qasımovun giriş nitqi ilə başlayan tədbirdə MSK nəzdində ekspert qrupunun üzvləri, Katibliyin aidiyyəti struktur bölmələrinin əməkdaşları, həmçinin Bakı və ətraf rayonların 52 seçki dairəsi üzrə dairə seçki komissiyalarının müraciətlərin araşdırılmasına məsul 156 eksperti iştirak edirdi.

Sonra MSK katibi Arifə Muxtarovanın seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına dair təqdimatı dinlənildi. Seminarda iştirak edən MSK-nın digər üzvləri də seçki hüququnun pozulması ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması ilə əlaqədar tövsiyələrini bildirdilər. Eyni zamnad, əyani vəsaitlərdən də istifadə olunmaqla keçirilən təqdimatlarda seçki hüququnun pozulmasını iddia edən subyektlərin müraciətləri zamanı qarşıya çıxan məsələlər, şikayət və müraciətlərin xarakteri, araşdırılma müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, ekspert qrupu üzvlərinin həyata keçirəcəyi tədbirlər, qərarların qəbulu və tərtibi, eləcə də digər mühüm məsələlər ətraflı şəkildə izah edildi. Seminara qatılan dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərinə MSK tərəfindən hazırlanan “Yaddaş kitabçası” da təqdim olundu.

Tədbirin praktiki hissəsində seçki qanunvericiliyi, müraciət və şikayətlər, o cümlədən ekspert fəaliyyəti ilə bağlı fərqli kazuslar üzrə məşğələlər keçirildi və tədbir iştirakçıları sınaq testlərinə cəlb edildilər.

Sonda fikir mübadiləsi və müzakirələr aparıldı, həmçinin iştirakçıları maraqlandıran suallara aydınlıq gətirildi.

Regional seminarların növbəti mərhələsinin iyulun 17-də Gəncə, Naxçıvan, Şəki və Masallıda keçirilməklə, ümumilikdə, ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərini əhatə etməsi nəzərdə tutulur.

## Parlament seçkilərinə namizədlərin qeydiyyatı başlayıb

**Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin müavini Rövzət Qasımovun verdiyi məlumata görə, 401 nəfər parlament seçkilərinə namizədlik üçün müraciət edib. Onlar artıq sənədlərini müvafiq DSK-lara təqdim ediblər.**

R.Qasımovun sözlərinə görə, növbədənkənar seçkilərdə siyasi partiyalar kifayət qədər fəallıq göstərirlər. 261 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib, 213 nəfərə imza vərəqəsi verilib. 9 nəfər isə imza vərəqəsini qaytarıb. Sənəd təqdim edənlərin 168-i siyasi partiya təmsilçisidir. Onlar 13 siyasi partiyanı təmsil edirlər. Bu say artmaqdadır.

MSK-da 22 siyasi partiyadan 551 səlahiyyətli nümayəndə qeydə alınıb.

## Azərbaycanda seçkilərin demokratik, şəffaf və ədalətli keçirilməsi reallığa çevrilib

### Müsahibimiz Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazovdur

***– İlkin müəllim, hazırda respublikamızda çox ciddi siyasi kampaniyaya – növbədənkənar parlament seçkilərinə start verilib. Təbii ki, seçki prosesində əsas yük və məsuliyyət Mərkəzi Seçki Komissiyasının üzərinə düşür. Hazırda növbədənkənar seçkilərlə bağlı hansı proseslər həyata keçirilir?***

– Hazırda ölkəmiz əlamətdar ictima-siyasi hadisə astanasındadır. Prezident İlham Əliyevin 28 iyun 2024-cü il tarixli sərəncamına əsasən, sentyabrın 1-də ölkəmizdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Seçkilərin hazırlanıb keçirilməsinə məsul olan orqan kimi Mərkəzi Seçki Komissiyası dərhal həmin sərəncamdan irəli gələn hüquqi prosedurların həlli baxımından Milli Məclisə seçkilərin keçirilməsi və hazırlanması dövründə əsas hərəkət və tədbirlərin təqvim planını təsdiq etdi. Həmin təqvim planında seçki prosesinin bütün iştirakçılarına münasibətdə seçki qanunvericiliyi ilə müəyyən edilmiş hüquq və vəzifələrin ətraflı, prosessual müddətlər baxımından icrası göstərilib. Azərbaycan vətəndaşlarının seçki hüququ Konstitusiyamızın 56-cı maddəsində təsbit olunub. Həmin maddədə deyilir ki, vətəndaşların seçkidə iştirak etmək hüququ var. Yalnız fəaliyyət qabiliyyətinin olmaması məhkəmə qaydasında təsdiq edilmiş şəxslərin seçki hüququ yoxdur. Qalan 18 yaşına çatmış bütün vətəndaşlarımızın seçki hüququ var.

Seçki prosesini şərti olaraq mərhələlərə bölsək, artıq indiki mərhələdə biz passiv seçki hüququ mənsublarının öz fəaliyyətlərinin icrası dövründəyik. Artıq namizədliyin irəli sürülməsi, imzaların toplanması və Seçki Məcəlləsi ilə müəyyən edilmiş müddətlər daxilində onların namizədliklərinin qeydə alınması prosesi başlanıb. Namizədliyin irəli sürülməsi, qeydə alınması və digər seçki hərəkətlərinə dair MSK-nın ənənəvi olaraq maarifləndirmə tədbirləri keçirilir. Seçkilərin keçirilməsi dövründə qanunvericiliklə müəyyənləşdirilmiş dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə iyulun 10-da dairə seçki komissiyalarının sədrləri üçün geniş müşavirə keçirildi. Bu tədbir qarşıdakı müddətdə keçiriləcək bütün maarifləndirmə proqramının başlanğıcı kimi qiymətləndirilir. Yəni dairə seçki komissiyalarının sədrləri üçün müşavirə ilə MSK genişmiqyaslı maarifləndirmə kampaniyasına start vermiş oldu.

***– Yəqin ki, bu tədbirdən sonra aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirmə tədbirlərinə də start veriləcək.***

– Əlbəttə, aşağı seçki komissiyalarının maarifləndirilməsi prioritet vəzifələrdəndir. Bu proses MSK tərəfindən intensiv aparılır və təqvim planında da mütəmadilik xarakteri daşıyır. Belə ki, bütün seçki subyektlərini əhatə edəcək maarifləndirmə tədbirləri keçiriləcək. Miqyasına və iştirakçıların sayına görə onlardan ən mühümlərindən biri də aşağı seçki komissiyası üzləri üçün treninq tədbiridir. Həmin mərhələdə bütün məntəqə seçki komissiyası üzvlərinin maarifləndirilməyə cəlb olunması nəzərdə tutulur. Xatırladaq ki, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənmiş treninq layihəsinin əsası hələ 2002-ci ildə müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində qoyulub və ilbəil təkmilləşdirilərək, 2008-ci ildən sonra daha da genişləndirilib.

Müxtəlif metodiki və əyani vəsaitlərdən istifadə edilməklə keçirilən maarifləndirmə tədbirlərində iştirakçılara təqdimat bacarıqları, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səsvermə günü müstəsna hallar, səslərin sayılması və protokolların doldurulması da daxil olmaqla bütün səsvermə günü prosedurları barədə müfəssəl məlumat veriləcək. Tədbir zamanı, həmçinin MSK-nın treninq qrupunun mütəxəssisləri tərəfindən bir sıra aktual mövzularla bağlı çoxsaylı praktiki məşğələlər keçiriləcək, seçki günü müxtəlif səsvermə prosedurları səhnələşdiriləcək, müzakirələr aparılacaq və meydana çıxan suallar cavablandırılacaq.

Seçki qanunvericiliyində vətəndaşların seçki hüquqlarının təmin edilməsi vəzifəsi seçki komissiyalarının üzərinə düşür. Ölkəmizdə seçki komissiyaları üçpilləli komissiyalar sistemi vasitəsilə öz fəaliyyətini həyata keçirir. Bura MSK, DSK və məntəqə seçki komissiyaları daxildir. MSK dairə və məntəqə seçki komissiyalarının maddi - texniki bazasının daha da gücləndirilməsi, habelə müvafiq metodiki vəsaitlərlə təmin olunması məqsədilə mütəmadi şəkildə müxtəlif səpkili layihələr reallaşdırır. Belə ki, seçki məntəqələri normativ bazadan tutmuş, öz fəaliyyətində minimum şərtləri nəzərdə tutan hər cür ləvazimatla təchiz olunur. MSK bu məsələni daim diqqət mərkəzində saxlayır. MSK vətəndaşların seçki hüquqlarının təmin edilməsi istiqamətində hərtərəfli tədbirlər görür və bundan



sonra da lazımi addımlar atılacaqdır.

***– Deputatlığa namizədliyini irəli sürmək istəyənlərə və onların namizədliklərinin qeydə alınmasına hər hansı süni əngəllər yaradılması halları baş veribmi?***

– Bəri başdan deyim ki, bəhs etdiyiniz hallara ümumiyyətlə rast gəlməmişəm və seçkilərdə iştirak üçün yaradılan hərtərəfli imkanlar hansısa formada əngəlləri istisna edir. Seçki Məcəlləsinin tələblərinə əsasən, namizədlərin irəli sürülməsi və qeydə alınması dairə seçki komissiyaları tərəfindən həyata keçirilir. Namizədlər ilkin olaraq, bildirişi və öhdəlik ərizəsini DSK-lara təqdim edirlər. Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada bütün namizədlərə və namizəd olmaq istəyən şəxslərə bərabər şərait yaradılıb. Belə ki, bütün seçki sənədlərinin nümunələri, yəni metodiki vəsaitlər, hazır bildiriş formaları, öhdəlik ərizələri, ümumilikdə, tələb olunan bütün sənədlər dairə seçki komissiyalarında var. Seçki hüququ olan, deputat mandatı qazanmaq istəyən bütün şəxslər, bilavasitə DSK-lara müraciət edərək heç bir maneə ilə rastlaşmadan lazımi seçki sənədlərini əldə edə bilərlər. Onlar öz konstitusion seçki hüququnun realizə olunmasında hər hansı bir maneə ilə qarşılaşmırlar. Deputat olmaq istəyənlərin hər birinə öz namizədliyini irəli sürmək üçün hər cür şərait yaradılır. Ölkəmizdə mövcud olan hərtərəfli imkanlar və yaradılan şərait seçkilərdə çoxsaylı namizədlərin iştirakı ilə xarakterizə olunur. Biz namizəd olmaq istəyənlərə bütün imkanlardan yararlanmaq üçün əlverişli şərait yaradırıq. Bu məsələdə siyasi mənsubiyyət ümumiyyətlə müzakirə mövzusu ola bilməz.

***– Seçkilərin şəffaf və aşkarlıq şəraitində keçirilməsində yerli və beynəlxalq müşahidəçilərin rolu böyükdür. Seçki prosesini izləmək üçün müşahidəçilər müraciət edirlərmi?***

– Seçki Məcəlləsinə əsasən seçki komissiyalarının fəaliyyəti aşkardır. Seçkilərdə aşkarlıq institutlarının əsas təmsilçilərindən biri də müşahidəçilərdir. Müşahidəçilərin seçki komissiyalarında baş verən prosesləri əvvəldən-axıra qədər tam izləmək hüququ var. Eləcə də media subyektləri də bu hüquqa malikdirlər. MSK artıq xarici ölkələrin ali seçki qurumlarına müvafiq dəvətlər göndərib. Müxtəlif dövlətlərdən müşahidəçilərin gəlməyi gözlənilir. Həm MSK-ya, həm də DSK-ya yerli müşahidəçilərdən də müraciətlər daxil olmaqdadır. Seçki Məcəlləsinə görə, müşahidələr ölkə və müvafiq dairənin ərazisində aparıla bilər. Səsvermə gününə 10 gün qalanadək ölkə ərazisində müşahidə aparmaq niyyətində olan şəxslər öz ərizələrini MSK-ya təqdim edirlər. Müvafiq dairənin ərazisində müşahidə aparmaq istəyənlər isə səsvermə gününə 5 gün qalmış həmin DSK-ya müraciət edirlər və onlara qeydiyyatdan keçməklə müvafiq lövhəciklər verilir. Seçki Məcəlləsinin bir tələbi də ondan ibarətdir ki, səsvermə günü seçki məntəqəsində olan bütün müşahidəçilərin üzərində lövhəcik olmalıdır. Müşahidəçilər lövhəciyi şəxsiyyəti təsiqləyən sənədlə birlikdə təqdim etdikdə etibarlı hesab olunur. Bundan sonra müşahidəçilər seçki məntəqələrində səsvermə günü seçki hərəkətlərini sərbəst şəkildə müşahidə edirlər.

***– Ötən tədbirlərin birində MSK sədri belə bir fikir səsləndirdi ki, Azərbaycan dünyada yeganə dövlətdir ki, media orqanları seçkiləri sərbəst müşahidə etmək imkanına malikdir. Bu təcrübə ilk dəfə bizim ölkəmizdə həyata keçirilir?***

– Ümumiyyətlə, seçkilərin aşkar, şəffaf və demokratik keçirilməsi sahəsində bir sıra yeniliklər ilk dəfə Azərbaycanda tətbiq edilib. Onlardan biri də media subyektlərinin seçki məntəqələrinə sərbəst daxil olmaları, müsahibələr almaları və seçki prosesini müşahidə etmələridir. Bu təcrübənin yaranmasına səbəb Seçki Məcəlləsində olan mütərəqqi müddəalardır. Yəni media nümayəndələri səsvermə günü istədikləri seçki məntəqəsinə daxil ola bilirlər. Onlar seçki məntəqələrində öz peşə fəaliyyətlərində heç bir problemlə üzləşmirlər. Müşahidəçilər qeydiyyatdan keçmək üçün ərizə ilə müraciət edirlər. Amma media subyektləri üçün bu tələb də yoxdur. Jurnalistlər xidməti vəsiqələrini təqdim etməklə seçki məntəqələrinə daxil olur və bütün seçki hərəkətlərini müşahidə edirlər. Bəli, həqiqətən də media subyektlərinin nümayəndələrinə yaradılan geniş imkanlar baxımdan ölkəmiz bir nümunədir.

***– Yeri gəlmişkən, beynəlxalq müşahidəçilər də Azərbaycanda keçirilən seçkilərdə bir sıra yeniliklərin olduğunu təsdiqləyiblər. Bu barədə sizin də fikirlərinizi bilmək maraqlı olardı.***

– Məlum olduğu kimi, seçkilərin keçirilməsində əsas aşkarlıq institutlarından bir də ölkəmizdəki seçki məntəqələrində 2008-ci ildən etibarən mütəmadi şəkildə bütün seçkilərdə quraşdırılan və bütün coğrafiyamızı əhatə edən veb-kameralardır. Bu vasitənin ən üstün cəhəti ondan ibarətdir ki, dünyanın istənilən yerindən heç bir qeydiyyat tətbiq olunmadan veb-kameralar vasitəsilə seçki məntəqəsində olan bütün prosesi arasıkəsilmədən, əvvəldən axıra qədər, hətta yekun protokolun rəsmiləşdirilməsi də daxil olmaqla, bütün səsvermə günü prosedurlarını müşahidə etmək mümkündür. İctimaiyyətdə haqlı olaraq, bu təcrübənin məhz Azərbaycana məxsus olduğunu vurğulanır. Söz yox ki, veb-kameralardan istifadə sonradan bəzi ölkələrdə də tətbiq olunmağa başlanıldı, ancaq həmin ölkələrdə veb-kameralar vasitəsilə prosesləri izləmək üçün əlavə qeydiyyatdan keçmək də lazım gəlir. Ancaq bizim ölkəmizdə istənilən internet istifadəçisi heç bir qeydiyyat tələb olunmadan bu imkandan maksimum istifadə edir. Bu da seçkilərdə aşkarlığın ən bariz nümunələrindən biridir. Sevindirici haldır ki, veb-kamera vasitəsilə seçkiləri izləyənlərin sayı da durmadan artır.

Seçki günü ən mühüm məsələlərdən biri də ultrabənövşəyi lampa vasitəsilə seçicilərin barmaqlarında gözə görünməyən mürəkkəbin olub-olmadığının yoxlanılması, eləcə də səs verərkən onların barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsidir. Bu , seçicinin bir dəfədən artıq səs verməsinin qarşısını alır. Sözügedən üsul seçkilərin demokratik, şəffaf, ədalətli keçirilməsində önəmli amillərdən biridir. Seçki Məcəlləsinin 104-cü maddəsinə görə seçki məntəqəsinin qapısında seçicini qarşılayan komissiya üzvü, ilk növbədə, onun şəxsiyyət vəsiqəsinə nəzər yetirir və ultrabənövşəyi lampa ilə barmağının işarələnib-işarələnmədiyini yoxlayır. Əgər barmaqda hər hansı bir işarələnmə aşkar edilərsə, həmin seçici seçki məntəqəsinə buraxılmır. Bu, seçkilərin ədalətli və şəffaf keçirilməsinə mühüm töhfədir.

***– Bu gün həm Azərbaycan, həm də dünya ictimaiyyətinin marağında olan vacib məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə seçki prosesinin keçirilməsidir. Həmin ərazilərə köçürülənlərin sayı getdikcə artır. Bu, seçki məntəqələrinin sayının artırılmasına təsir edə bilərmi?***

– İşğaldan azad edilmiş ərazilərdə məskunlaşan və orada uzunmüddətli bərpa, yenidənqurma, tikinti-quruculuq işlərinə cəlb olunmuş seçicilərin seçki hüquqlarının təmin edilməsi daim MSK-nın diqqət mərkəzində olan zəruri məsələlərdəndir. Bu məqsədlə həmin ərazilərdə daimi əsaslarla seçki məntəqələri yaradılıb. Orada olan seçicilərə öz konstitusion hüquqlarının realizə olunması üçün hər cür şərait təmin olunub. O ərazilərdəki seçki məntəqələri müasir tələblər səviyyəsində qurulub və hər cür ləvazimatla təchiz olunub. Təbii ki, həmin ərazilərdə məskunlaşan əhalinin sayı çoxaldıqca seçki məntəqələrinin də sayı artacaq. Müqayisə üçün deyim ki, işğaldan azad edimiş ərazilərdə 26 daimi seçki məntəqəsi olduğu halda, indi əlavə olaraq daha 8 seçki məntəqəsi yaradılmaqla, işğaldan azad olunmuş ərazilərdəki daimi seçki məntəqələrinin sayı 34-ə çatdırılıb.

***– Güman etmək olarmı ki, Azərbaycan dünyaya daha bir demokratik, şəffaf və ədalətli seçki nümayiş etdirəcək?***

– Əlbəttə, Azərbaycanda bu vaxta qədər keçirilən seçkilərin demokratik, şəffaf və ədalətli olması reallığa çevrilib. Belə ki, seçkilərin demokratik keçirilməsi üçün ən mühüm amillərdən biri normativ hüquqi bazanın olmasıdır. Ölkəmizdə 2003-cü ildən bəri beynəlxalq təşkilatlar tərəfindən də qiymətləndirilən Seçki Məcəlləsi qüvvədədir. Zaman-zaman həmin sənədə əlavə və dəyişikliklər edilərək daha da təkmilləşdirilib və beynəlxalq standartlara tam uyğunlaşdırılıb. Bundan əlavə, Seçki Məcəlləsindən irəli gələn ayrı-ayrı məsələlərin daha da təkmilləşdirilməsi məqsədilə MSK –nın normativ xarakterli aktlar qəbul etmək səlahiyyəti var və həmin aktlarla Seçki Məcəlləsindən irəli gələn bütün münasibətləri tənzimləyir. Bundan əlavə, MSK-nın gerçəkləşdirdiyi irimiqyaslı maarifləndirmə layihələri, habelə bizim seçki komissiyalarının öz fəaliyyətlərində daim qanunun aliliyini rəhbər tutması ümumi işə əhəmiyyətli töhfə verir. Ona görə də ölkəmizdə seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi beynəlxalq aləmdə də etiraf olunur. Azərbaycan daha bir demokratik seçki nümayiş etdrməklə, bu sahədə zəngin təcrübəyə və təkmil qanunvericilik bazasına malik olduğunu bir daha təsdiqləyəcək.

***Səhifəni hazırladı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

II məqalə

*Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik.*

*Rəcəb Tayyib ƏRDOĞAN, Türkiyə Respublikasının Prezidenti*



# Şuşa Bəyannaməsindən Qarabağ Bəyannaməsinədək

Öncəki məqalədə Şuşa Bəyannaməsi haqqında vurğuladığımız məqamlar müasir mərhələdə Azərbaycan dövlətçiliyi üçün əhəmiyyəti olan iki faktorun rəmzidir. Onlardan biri bu bəyannamənin Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfər savaşının siyasi və hüquqi nəticəsi olması ilə bağlıdır. İkincisi, 2020-ci ildə 44 gündə təcavüzkar üzərində böyük qələbənin məntiqi ifadələrindən biri kimi Şuşa Bəyannaməsi müstəqil dövlətçilik maraqları kontekstində başqa türk dövləti ilə uğurlu müttəfiqliyin özəl təsbitidir. Səfəvidən bu yana buna bənzər hadisə baş verməmişdir. Məsələnin bu tərəfi üzərində bir qədər geniş dayanmağa ehtiyac vardır.

## İmperiyadan respublikaya transformasiya

İki türk imperiyası olan Səfəvi ilə Osmanlı əsrlərlə çəkişmişlər. Onlar bir-birinə dost və qardaşdan çox nüfuz uğrunda rəqib kimi baxmışlar. Uzun müddət davam edən bu münasibət türklər üçün bir acı həqiqəti ortaya çıxardı: imperiya üsul-idarəsi çərçivəsində türk dövlətləri dost və qardaş olmağı bacarmırlar! Həmin acı həqiqət hər iki güclü türk imperiyası üçün faciəvi oldu – Azərbaycan milyon kvadratkilometrlik ərazidən kiçik dövlətə çevrildi. O da birbaşa olmadı: əvvəlcə ikiyə bölündü, sonra bir il müstəqil respublika oldu, daha sonra isə sovetlərin tərkibinə qatıldı. Osmanlı isə XX əsrin əvvəllərində aldığı zərbələrdən parçalandı və bir hissəsində Türkiyə Cümhuriyyətini yarada bildi. Artıq həmin mərhələdə türk siyasətçilərə aydın idi ki, türklər imperiya kimi perspektivli deyillər – yeni dövlətçilik modeli zəruridir. Bu da respublika oldu! İndiki vəziyyət göstərir ki, respublika üsul-idarəsini seçmək türklərin tarixi qələbəsidir.

Ancaq bir ciddi strateji məsələ həllini tapmalı idi. Azərbaycan Demokratik Respublikasının sürətlə süquta yetirilməsi göstərdi ki, azərbaycanlılar respublikanı qorumaq üçün fərqli dövlət quruculuğu strategiyası seçməlidirlər. Bu vəzifənin öhdəsindən ulu öndər Heydər Əliyev gəldi.

Digər tərəfdə Türkiyə Respublikası formalaşdı. Bu proseslər keçən əsrin 90-cı illərindən yeni geosiyasi şərtlər daxilində Azərbaycan–Türkiyə münasibətlərini müsbət əsasda məzmunlaşdırmaq zərurətini meydana çıxardırdı. Məhz həmin mərhələdə ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamı Azərbaycanla Türkiyənin müstəqil dövlətlər kimi əlaqələrini qurmasında və onu davamlı inkişaf etdirməkdə istiqamətverici rol oynadı. Şuşa Bəyannaməsi məhz bu kontekstdə çox əhəmiyyətli bir sənəddir. Çünki həmin sənəd Azərbaycanla Türkiyənin "bir millət, iki dövlət" formulu üzrə əməkdaşlığının konkret siyasi-hüquqi təsbitidir.

Beləliklə, dövlətçilik tariximizdə Şuşa Bəyannaməsi türk dövlətlərinin uğurlu əməkdaşlığının ilk siyasi-hüquqi təcəssümüdür! Burada nə Qars müqaviləsinin, nə də öncəki məqalədə vurğuladığımız digər sənədlərin əhəmiyyətinə qətiyyən kölgə salmırıq. Lakin ilk olaraq Şuşa Bəyannaməsində iki dost və qardaş türk dövlətinin respublika kimi müttəfiqiliyinin strateji məqamları konkret bəndlərdə məzmunlaşdırılmışdır. Azərbaycanla Türkiyənin müttəfiqliyini bu dərəcədə ifadə edən digər sənəd hələlik yoxdur.

Əlbəttə, belə bir sənədin Azərbaycanın mədəniyyət və dövlətçilik tarixində xüsusi rolu olan Şuşada imzalanmasının da bir rəmzi mənası vardır. Həmin məna ondan ibarətdir ki, Azərbaycanla Türkiyənin münasibətləri müstəqillik və bərabərhüquqluluq əsasında beynəlxalq hüquq normaları çərçivəsində perspektivli ola bilər. Ankara və Bakı türk dövlətçiliyinin müasir iki rəmzidirlər və əbədi olaraq qoşa dayanmağa istiqamətlənmişlər. Buradan fəlsəfi xarakterli iki nəticə çıxara bilərik.

## Strateji müttəfiqliyin inteqrativ potensialı

Bəli, Şuşa Bəyannaməsi dövlətçilik baxımından bu prinsipial məqamı da özündə ehtiva edir. Çünki strateji müttəfiqliyin müəyyən həddi və sərlövhəsi olmalıdır. Onlar müttəfiqliyin mənəvi, siyasi, ideoloji bazası olan "bir millət, iki dövlət" formulunda ifadəsini tapmışdır. Şuşa Bəyannaməsi həmin əsasda müttəfiqliyin inteqrativ potensialının kriteriyalarını dəqiq əks etdirir.

Brincisi, Azərbaycan və Türkiyə müttəfiqliyi hər iki dövlətin müstəqilliyinə hörməti ifadə edir.

İkincisi, Azərbaycan və Türkiyə iki dost və qardaş dövlət kimi bir-birinin daxili işlərinə müdaxilə etmirlər.

Üçüncüsü, Azərbaycanla Türkiyənin strateji əməkdaşlığı dövləti, iqtisadi, təhlükəsizlik və sosial-mədəni fəaliyyətin bütün sferalarını əhatə edir.

Dördüncüsü, Azərbaycan və Türkiyə hər hansı birinə olası təcavüzə birlikdə müqavimət göstərirlər.

Beşincisi, Azərbaycan və Türkiyə beynəlxalq arenada daim bir-birinə dəstək verirlər.

Altıncısı, Azərbaycan və Türkiyə əməkdaşlığı daim inkişaf etdirməkdə qərarlıdırlar.

Yeddincisi, Azərbaycan və Türkiyə birlikdə Türk dünyasında əlaqələrin inkişafına və ayrıca Türk Dövlətləri Təşkilatının güclənməsinə çalışırlar.

Deməli, Şuşa Bəyannaməsi yalnız Azərbaycanla Türkiyənin əlaqələrinin gücləndirilməsi ilə məhdudlaşmır – o, daha geniş miqyasda, bütövlükdə, Türk dünyasının inteqrasiyasının mərkəzi faktoru rolunu oynayır. Bu aspektdə Şuşa Bəyannaməsi, ümumiyyətlə, regional miqyasdan multiregional miqyasa əməkdaşlıq və inteqrasiya kontekstində keçidin ilk siyasi-hüquqi nümunəsidir, həmin prosesin beynəlxalq hüquq normaları çərçivəsində sitmullaşdırıcı faktorudur!

Belə çıxır ki, Şuşa Bəyannaməsi faktiki olaraq iki funksiyanı paralel şəkildə yerinə yetirməkdədir. Bir tərəfdən, Azərbaycanla Türkiyə arasında əlaqələri siyasi-hüquqi təmin edir və onların regional və multiregional miqyaslarda münasibətlərini tənzimləyir. Digər tərəfdən isə "bir millət, iki dövlət" formulunun genişlənərək bütün Türk dünyasına təsir etməsinin istiqamətverici və stimullaşdırıcı faktoru rolunu oynayır.

2021-ci ildən bu yana baş verən hadisələr göstərir ki, Şuşa Bəyannaməsi vurğuladığımız birinci cəhətin uğurlu şəkildə həyata keçirilməsində baza rolunu oynayır. Faktlar bunu sübut edir. Belə ki, son 4 ildə Azərbaycan və Türkiyə qarşılıqlı əlaqələri sürətlə inkişaf etdirmişlər. Bütün sferalar üzrə irəliləyiş baş vermişdir və bu proses davam edir. Məsələn, ordu quruculuğu və gömrük xidmətinin inkişaf etdirilməsini göstərə bilərik.

Ordu quruculuğunda artıq iki müstəqil dövlətin bir güclü ordusu anlayışı kontekstində ciddi irəliləyişlər əldə edilmişdir. Hərbi mütəxəssislər faktiki olaraq iki müstəqil dövlətin bir ordusu modelinin reallaşdığını ifadə edirlər. Azərbacyan komandoları Türkiyə ordusudur, Türkiyə komandoları isə Azərbaycan ordusudur. Ordunu idarə etməkdə və hərbi təchizat məsələsində əməkdaşlıq tarixdə görünməmiş səviyyədə oxşardır! Bu modelin dünyada hələlik analoqu yoxdur!

Gömrük xidməti, nəqliyyat-loqistika sferasında əməkdaşlıq, informasiya təhlükəsizliyi istiqamətində ortaq fəaliyyət, enerjinin bütün növləri üzrə sıx koordinasiyalı hərəkət, xarici siyasətdə dünyanın həsəd apardığı səviyyədə birgə fəaliyyət, bir-birinə bütün məsələlərdə yüksək səviyyədə dəstək vermək, ortaq diplomatik gedişlər və başqa məqamlar göstərir ki, Şuşa Bəyannaməsi dünyada real səmərə verən siyasi-hüquqi sənədlər sırasında birinci yerdədir! Bu baxımdan Şuşa Bəyannaməsinin Cənubi Qafqazın geosiyasi mənzərəsi üçün oynadığı çox təsirli rolu da vurğulamaq lazımdır.

## Şuşa Bəyannaməsi və Cənubi Qafqazın "geosiyasi sınma nöqtəsi"

Məsələnin bu aspekti çox aktualdır. Çünki hazırda dünyanın böyük gücləri Cənubi Qafqazı geosiyasi-hərbi və təhlükəsizlik baxımından olduqca həssas bir nöqtəyə gətirmişlər. Belə vəziyyətdə kiçik bir geosiyasi fluktuasiya (kənara çıxma) regionun tarazlığını poza bilər. Həm də ondan sonra geriyədönüş olmaya bilər. Buna politologiyada "geosiyasi sınma nöqtəsi" deyirlər. Region həmin nöqtəyə asimptotik yaxınlaşıb (ən kiçik xəta ilə həssaslıq məqamına maksimum yaxınlaşmanın riyazi ifadəsi). Məhz Şuşa Bəyannaməsi regionu həmin həssas nöqtəyə sıx yaxınlaşmağa imkan vermir. Bunun mexanizmi aydındır.

Şuşa Bəyannaməsinin müddəaları Azərbaycanla Türkiyəyə imkan verir ki, hər hansı riskli situasiyaya çevik reaksiya versinlər. Bunu dəfələrlə Qərbin bir sıra dövlətlərinin Cənubi Qafqazı tarazlıqdan çıxarmağa yönəlmiş addımlar atdığı zaman iki qardaş türk dövlətinin davranışları göstərdi. Məsələn, Fransa və Hindistan Ermənistana yeni silahlar satmaqla regionda fərqli vəziyyət yaratmağa ümid edirdilər. Azərbaycan və Türkiyə dərhal buna münasibət bildirdilər. Rəsmi Bakı bəyan etdi ki, kimin Ermənistana dəstək verməsindən asılı olmayaraq, sülh müqaviləsi Azərbaycanın verdiyi təkliflər əsasında və İrəvanın konstitusiyanın birinci maddəsini dəyişməsi halında imzalana bilər. Eyni zamanda, sülh müqaviləsinin yekunu Zəngəzur dəhlizinin açılması olmalıdır.

Azərbaycan – Türkiyə birliyinin bu mövqeyi əks tərəfi tədricən ağıllandırır. Artıq əvvəlki sərt ritorika və kor-koranə inadkarlıq hiss edilmir. Lakin hələ də Ermənistanın havadarları nəyəsə ümid edirlər. Buna baxmayaraq, Ankara və Bakı öz mövqelərində qətiyyətlə qalmaqdadırlar. Bu isə o deməkdir ki, Şuşa Bəyannaməsi öz funksiyasını real olaraq yerinə yetirir. Bu prosesdə çox maraqlı məqamlardan biri rəsmi Tehranın regional proseslərə münasibətlərində müəyyən korrektələr etməsi ilə bağlıdır. Belə ki, rəsmi Tehran Zəngəzur dəhlizi layihəsini dəstəklədiyini dilə gətirməsə də, Azərbaycan və Türkiyə ilə əlaqələrdə daha konstruktiv davranmağa meyillidir. Əlbəttə, bu prosesin hansı səviyyəyə qədər inkişaf edəcəyini proqnozlaşdırmaq çətindir, lakin rəsmi Bakı və rəsmi Ankara Tehranla əlaqələrin inkişafında maraqlı olduqlarını bir daha bəyan etmişlər.

Bunların fonunda Qərbin Gürcüstana münasibətində son zamanlar müşahidə edilən dəyişikliklər Şuşa Bəyannaməsinin təsir gücünün daha da arta biləcəyi ehtimalını çoxaldır. Belə görünür ki, Gürcüstan Qərb dayaqlarını itirir. ABŞ və Avropa Birliyi Tbilisi qarşısında elə şərt qoyur ki, o, müstəqilliyi və suverenliyinə zərər verir. Gürcüstan üçün Rusiya dost dövlət deyildir və Moskva ilə əlaqələrin inkişafı ehtimalı minimumdur. İran isə çox müxtəlif səbəblərdən Gürcüstan üçün strateji müttəfiq ola bilmir. Tbilisi üçün yeganə real variant Azərbaycan – Türkiyə birliyi ilə əməkdaşlıqdır, ona arxalanmaqdır. Bu baxımdan Şuşa Bəyannaməsi Azərbaycan – Türkiyə – Gürcüstan strateji müttəfiqliyinə aid yeni bir sənəd üçün baza rolunu oynaya bilər!

Bu ehtimal indi bəlkə də mücərrəd hipoteza təsiri bağışlayır. Lakin Şuşa Byannaməsinin Cənubi Qafqazda oynadığı geosiyasi rolun yuxarıdakı təsviri göstərir ki, bu sənəd faktiki olaraq iki istiqamətdə yeni imkanlar əmələ gətirir. Onlardan biri Cənubi Qafqaz miqyasında yeni strateji müttəfiqlik nümunələrinin formalaşması ilə əlaqəlidir. Digəri isə multiregional miqyasda yeni strateji müttəfiqlik sənədlərinin hazırlanmasıdır. Sonuncunun artıq konkret nümunəsi yaranmışdır. O, Qarabağ Bəyannaməsidir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***



# Dini mərasimlərdə azyaşlıların iştirakı qəbuledilməzdir!

## *Ölkəmizdə adət-ənənə məclislərinin təşkili qanunla tənzimlənir*

**Təkrar etməyə ehtiyac yoxdur ki, həm ulu öndər Heydər Əliyev, həm Prezident İlham Əliyev, həm Birinci vitse-prezident Mehriban xanım Əliyeva, həm də Heydər Əliyev Fondu daim milli-mənəvi və dini dəyərlərimizin qorunması istiqamətində lazım olan bütün addımları atıblar. Bu istiqamətdə yada salınmalı məqamlar yüzlərlə olsa da, onlardan cəmi birini – cənab Prezidentin və Birinci vitse-prezidentin işğaldan azad edilmiş ərazilərdəki dini abidələrimizin bərpasında şəxsən iştirak etmələrini xatırlatmaq kifayətdir.**

Ancaq xaricdən istiqamətləndirilən bəzi qaraniyyətli adamlar Azərbaycanda hansısa dini mərasimlərin keçirilməsinə imkan olmadığını söyləyirlər. Qətiyyən belə deyil. Ölkədə nəinki müsəlmanlar, hətta başqa dinlərin təmsilçiləri də öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirirlər. Bugünkü Aşura günü kimi...

Əslində, Aşura günü (Məhərrəm ayının 10-u) dini ibadət və ya ayin deyil, müqəddəs dinimizin tarixindəki ən faciəli günlərdən birinin xatırlanmasıdır. Hicri təqvimi ilə 61-ci ilin həmin günündə Məhəmməd Peyğəmbər (s.) nəvəsi İmam Hüseyn, onun ailə üzvləri və tərəfdarları Kərbəlada qətlə yetirilmişlər. O tarixdən bəri müsəlmanlar Məhərrəm ayının 10-da əzadarlıq edirlər.

Bəli, dindar soydaşlarımız bu gün Aşuranı qeyd edəcəklər. Allah bütün şəhidlərə rəhmət eləsin! Ancaq Azərbaycan qanunlarının bizə verdiyi mühüm hüquqların biri də uşaqların həyatının və sağlamlığının qorunması, onların düzgün istiqamətdə tərbiyə edilməsidirsə, əsas vəzifələrimizdən biri də onların psixoloji zədə almaması üçün lazım olan addımların atılmasıdır. Bu baxımdan dövlət qurumları öz vəzifələrini yerinə yetirərək, uşaqların, xüsusən, azyaşlıların və körpələrin dini mərasimə aparılmasını məqsədəuyğun saymırlar. Üstəlik, o da xatırladılır ki, son zamanlar müşahidə edilən isti havada uşaqların kütləvi tədbirlərə aparılması təhlükəlidir.

Əvvəlki illərin təcrübəsi göstərir ki, müvafiq dövlət qurumlarının maarifləndirmə tədbirlərinə baxmayaraq, bəzən azyaşlıların psixikasına mənfi təsir edəcək hadisələr yaşanır. Bu baxımdan da, mərasimlərdə azyaşlı uşaqların iştirakı onların təhlükəsizliyi və sağlamlığı baxımından məqsədəuyğun deyil. Son günlər bununla bağlı Daxili İşlər Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin vətəndaşlara ünvanladığı müraciət də məhz ötən illərdə müşahidə edilmiş faktlara əsasən qələmə alınmışdır.

Həmin müraciətdə qeyd edilir ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dini mərasimlər yalnız məscid və ziyarətgahların ərazisində keçirilməlidir. Bütün mərasimlər zamanı, o cümlədən cari il iyulun 7-dən başlayan Məhərrəm ayında dini ibadət yerlərində təhlükəsizliyin təmin edilməsi və yollarda nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün müvafiq tədbirlər görülür.

Dövlət qurumları xatırladırlar ki, bəzi hallarda valideynlərin azyaşlı uşaqlarını dini ayinlərin icra olunduğu məkanlara aparması halları müşahidə olunur: "Valideynlərdən xahiş edirik ki, kütləvi mərasimlərin keçirildiyi yerlərdə, o cümlədən təziyə məclislərində azyaşlı uşaqların iştirakının onların təhlükəsizliyi və sağlamlığı baxımından məqsədəuyğun olmadığını nəzərə alsınlar, habelə qanunvericiliklə icazə verilməyən hallara diqqətlə yanaşsınlar".

Adıçəkilən nazirlik və dövlət komitəsi ümidvar olduğunu bildirirlər ki, ölkə əhalisi hər bir şəxsin həyatının, sağlamlığının, hüquqlarının, qanuni mənafelərinin qorunması məqsədi daşıyan bu müraciətə həssas yanaşacaq.

Xatırladaq ki, islamşünas alimlərin fikrincə, Məhərrəm "haram olan, qadağan edilən, müqəddəs və hörmət edilən" deməkdir. Quranda "məhərrəm" sözü ay adı olaraq keçmir. Lakin dolayı olaraq, döyüşün haram olduğu aylardan bəhs olunur və bu aylara hörmət göstərmək əmr edilir. Peyğəmbərimiz (s.) ayədəki haram ayların Zilqədə, Zilhiccə, Məhərrəm və Rəcəb ayları olduğunu bildirmişdir. İndi ortaya sual çıxır: Müqəddəs kitabımız Məhərrəm ayında döyüşün ( deməli, həm də qan tökülməsinin ) haram olduğunu yazırsa, onda nə üçün biz həmin ayda özümüzü döyüb, başımızı yarır, qan tökürük?

Onu da əlavə edək ki, Məhərrəm ayının özünəxas xüsusiyyətlərindən biri bu ayda Aşura gününün olmasıdır. Aşura "onuncu gün" deməkdir. Yəni Hicri təqviminin ilk ayı olan Məhərrəm ayının onuncu günüdür. İslam tarixçiləri yazırlar ki, bu günə "aşura" deyilməyinin səbəbi Allahın məhz həmin gün özünün peyğəmbərlərinə etdiyi lütflərə bağlıdır. Dini mənbələrdə yazılır ki, Aşura günü Allahın bəxş etdiyi möcüzə ilə dəniz yarılmış, Musa peyğəmbər (ə.) Firon və ordusunun təqibindən xilas olmuşdur. Nuh peyğəmbərin gəmisi Cudi dağının üstünə aşura günü çıxmışdır. Adəm peyğəmbərin (ə.) tövbəsi həmin gün qəbul olunmuşdur. İbrahim peyğəmbərin oğlu İsmail aşura günü dünyaya gəlmişdir və sair.

Yeri gəlmişkən, bir neçə il qabaq Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə bilavasitə Aşura günü kütləvi qanvermə aksiyaları keçirilirdi. Dünən mətbuat və sosial şəbəkələrdə oxuduq ki, həmin aksiyalar bu Aşura günü də davam edəcək. Yəni biz ehtiyacı olan insanlara qan verməklə öz müsəlman humanizmimizi və birliyimizi nümayiş etdirəcəyik. Əminik ki, o zaman Kərbəla şəhidləri başda olmaqla bütün şəhidlərimizin ruhu şad olacaq. Bir daha Uca Allahdan Kərbəla şəhidlərinə və Vətən müharibəsi şəhidlərinə rəhmət diləyirik!

***İttifaq MİRZƏBƏYLİ***

### Ekspert rəyi

**İlahiyyatçı Yaşar Qurbanov:**



– Düşünürəm ki, azyaşlıların, körpələrin belə mərasimlərə aparılması düzgün deyil. Çünki təhlükəsizlik və psixoloji baxımdan müəyyən fəsadlar yarana bilər. Doğrudur, qançıxarma, insanların özünü zəncirlə vurması İslamda qadağan olunsa da, bunu edənlər var. Buna görə uşaqların Aşura mərasimlərində azyaşlıların iştirakına icazə verilməməlidir. Bunu dinimiz də caiz saymır. Azyaşlıların, körpə uşaqların elə yerlərdə nə işi var axı? Uşaqlar həddi-buluğa çatana qədər namaz, oruc vacib buyrulmayıb. Əgər dinimizin əsası olan oruc, namaz vacib deyilsə, belə mərasimlərdə onların iştirakı, ümumiyyətlə, doğru deyil.

**İlahiyyatçı Mircəfər Əyyubov:**



– Əlbəttə, uşaqların, körpələrin belə mərasimlərdə iştirakı doğru deyil. Biz uşaqlarımızı hər cür psixoloji təsirlərdən qorumalıyıq. Uşaqlar dövlətin, millətin gələcəyidir. Dövlət də, din də uşaqları qoruyur, onları yad, mənfi təsirlərdən uzaq tutur. Biz də uşaq olmuşuq. İndi Aşura barədə sual verəndə o vaxtların izdihamları, hərəkətləri yadımıza düşür. Yəni, heç xoş ovqat deyil. Bu gün azyaşlıların belə mərasimlərə aparılmasını məqsədəuyğun saymıram. Güclü nəzarətlə yanaşı, ictimai qınaq da olmalıdır.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Dünya bazarında Azərbaycan mallarına maraq və tələbat artır

*5 ayda xarici alış-veriş 18 milyard 225 milyon dollara çatıb*



**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli, uğurlu siyasət nəticəsində hazırda Azərbaycan dünyada baş verən iqtisadi təlatümlər fonunda dünyanın sürətli inkişaf tempinə çatan ölkələrindən birinə çevrilib. Bu, özünü daha çox çevik və səmərəli iqtisadi idarəetmə hesabına, köklü struktur–institusional islahatların reallaşdırılması nəticəsində qeyri-neft sektorunun payının yüksəlməsində büruzə verib. Qeyri–neft sənayesinin inkişafı ölkəmizin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlər hesabına sürətlənib, eyni zamanda, bunun nəticəsində daxili istehsalın və istehlak bazarının idxaldan asılılığı azalıb, ixracın şaxələnməsi reallaşıb.**

Bu sektorda istehsalın davamlı artımı cari ilin 6 ayının iqtisadi göstəricilərində də öz əksini tapıb. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar–iyun aylarında ölkədəki sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 31,5 milyard manatlıq məhsul istehsal edilib. Son 1 ildə neft-qaz sektorunda məhsul istehsalı 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 7,4 faiz çoxalıb.

Sənaye məhsulunun 65 faizi mədənçıxarma, 29,2 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı sektorlarında istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik qaz hasilatı isə 5,3 faiz yüksəlib.

Respublikada yüzlərlə müasir sənaye müəssisəsinin, yeni istehsal sahələrinin, müxtəlif bölgələrdə sənaye parklarının yaradılması isə yerli məhsulların payının əhəmiyyətli dərəcədə artmasını şərtləndirməklə yanaşı, ixrac imkanlarının genişlənməsində önəmli rol oynayıb.

Təbii ki, ixrac imkanlarının genişləməsi üçün respublikada müxtəlif sahələri əhatə edən istehsalat sahələrinin, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühitinin və siyasi sabitliyin yaradılması diqqət mərkəzində saxlanılıb.

Yeri gəlmişkən, ölkədə əlverişli biznes mühiti dedikdə, şübhəsiz ki, sahibkarlar, iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühitinin mövcudluğu, bu sahədə dövlət tərəfindən müxtəlif dəstək tədbirlərinin, həmçinin vergi və gömrük güzəştlərinin reallaşdırılması nəzərdə tutulur və bunlar hazırda iqtisadi inkişafın dinamikasını şərtləndirir.

Respublikamızda xarici ticarət dövriyyəsi və ixrac əməliyyatlarının getdikcə genişləndirilməsi ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdən biridir. Bununla bağlı rəqəmlərə diqqət yetirəndə həm də aydın görünür ki, ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisi getdikcə artır. Məlumat üçün bildirək ki, son illər ölkəmizdə qeyri–neft sektorunun davamlı inkişafı ilə bağlı reallaşdırılan tədbirlər nəticəsində bu sahədə rəqabətqabiliyyətli məhsulların istehsalı xeyli artıb. Bu gün həmin məhsullara dünya bazarlarında getdikcə böyük maraq yaranır.

Azərbaycan hazırda ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verir. Son illərdə bu sahədə müsbət nəticələr əldə edilib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlər müəyyənləşdirilib. Prezident İlham Əliyevin xarici dövlətlərə səfərləri, eləcə də Azərbaycanın və tərəfdaş ölkələrin müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı görüşləri bu işə güclü təkan verib.

Diqqətəlayiq haldır ki, respublikamızın beynəlxalq əlaqələrinin coğrafiyası da ildən-ilə genişlənir. Ölkəmiz təkcə Avropa və Asiya dövlətləri ilə deyil, həm də Latın Amerikası, Mərkəzi Amerika və Afrika coğrafiyası ilə ikitərəfli əməkdaşlığa xüsusi diqqət yetirir.

Azərbaycanda aparılan islahatlar, sosial siyasət, həyata keçirilən infrastruktur layihələri və digər zəruri tədbirlər düzgün, düşünülən strategiyaya əsaslanır, ölkəmizin davamlı inkişafına və həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. Respublikamızda mövcud iqtisadi sərbəstlik, özəl bölmənin inkişafı üçün yaradılan münbit şərait, ən başlıcası isə Azərbaycanın yerləşdiyi əlverişli coğrafi şərait nəticəsində xarici ticarət əlaqələrinin həcmi və miqyası getdikcə artır.

Yeri gəlmişkən, xarici ticarət dövriyyəsi, idxal-ixrac əməliyyatları ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdəndir. Məhz buna görədir ki, dövlət başçıları, eləcə də nümayəndə heyətləri arasında keçirilən görüşlərin, danışıqların əsas mövzularından birini də məhz xarici ticarət dövriyyəsinin artırılması təşkil edir.

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Azərbaycanın xarici iqtisadi-ticari əlaqələrində diqqətçəkən mühüm məqamlardan biri də ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisinin artması ilə bağlıdır. Məlumat üçün bildirim ki, son illər ölkəmizdə qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlı həyata keçirilən layihələr nəticəsində bu sahədə rəqabət qabiliyyətli məhsulların istehsalı xeyli artıb. Artıq həmin məhsullara dünya bazarlarında maraq getdikcə güclənir.

Bu gün rəqabət indeksi göstəricisini ilbəil yaxşılaşdıran Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsinin tərkibində mühüm dəyişikliklər baş verib. Belə ki, ölkəmizdə yeni istehsal sahələrində buraxılan məhsullar daxili bazarda satılan analoji xarici malları tədricən sıxışdırıb çıxarıb, hətta bəzi hallarda ixraca da yönəldilib. Bu da son nəticədə daxili bazarın idxaldan asılılığının azaldılmasına imkan yaradır.

Azərbaycan hökuməti yerli iş adamlarını kreditlə təmin etməklə bərabər, xarici sahibkarları da Azərbaycan iqtisadiyyatına kapital qoyuluşuna maraqlandırır. Bu məqsədlə artıq ölkəmizdə qanunvericilik bazası dünya standartlarına uyğunlaşdırılıb. Nəticədə xarici şirkətlərdə Azərbaycana inam güclənib. Məhz elə buna görə də hazırda Azərbaycan MDB məkanında ən çox xarici kapital qoyulan ölkəyə çevrilib. Bu, beynəlxalq təşkilatların Azərbaycana dair hesabatlarında da öz ifadəsini tapıb. Başqa sözlə, beynəlxalq təşkilatlar tərəfindən respublikamızdakı əlverişli investisiya mühitinin təsdiqi ölkəmizə daha çox xarici kapitalın axmasına imkan yaradır.

**Ölkəmizin işğaldan azad olunmuş ərazilərində bərpa və quruculuq işləri sürətlə davam edir. Ötən müddətdə regionda yaradılmış əlverişli biznes mühiti dövlət-sahibkar işbirliyi müstəvisində yeni layihələrin reallaşdırılması üçün geniş imkanlar yaradıb. Bunun da nəticəsində biznes subyektlərinin bölgəyə marağı getdikcə artır.**

# Dövlət Qarabağda özəl sektora meydan açıb



Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü il iyulun 1-nə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərən mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin sayı 4978, fərdi sahibkarların sayı isə 91 min 881 təşkil edib. Ötən müddətdə Qarabağ iqtisadi rayonu üzrə 3791 mikro, 186 kiçik, 84 orta və 7 iri sahibkarlıq subyekti qeydə alınıb. Şərqi Zəngəzur iqtisadi rayonunda isə 835 mikro, 50 kiçik, 20 kiçik və 5 iri sahibkarlıq subyekti mövcud olub. Bu ayın əvvəlinə Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərən fərdi sahibkarların sayı 86 min 373, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5508 təşkil edib.

Yeri gəlmişkən, azad edilmiş ərazilərdə həyata keçirilən reinteqrasiya tədbirləri, yaşayış məskənlərində infrastrukturun yenilənməsi əhalinin öz yurdlarına geri dönməsinə imkan yaradıb. Artıq keçmiş məcburi köçkün ailələr mərhələli şəkildə qədim Azərbaycan yurdu Xankəndi şəhərinə və ətraf rayonlara qayıdırlar. Bununla yanaşı, bölgədə müxtəlif istiqamətlər üzrə sahibkarlıq fəaliyyəti üçün yaradılmış əlverişli imkanlar iş adamlarını bu fürsətdən lazımınca yararlanmağa sövq edir.

Ötən şənbə günü Xankəndi şəhərində keçirilmiş Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən iqtisadi məsələlər üzrə işçi qrupun növbəti iclasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında görülən bərpa-quruculuq işləri, burada reallaşdırılan layihələr barədə ətraflı məlumat verilib.

İclasda çıxış edən iqtisadiyyat nazirinin birinci müavini, işçi qrupun rəhbəri Elnur Əliyev ölkə başçısının tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərin inkişafı istiqamətində kompleks proqramların, genişmiqyaslı bərpa və quruculuq tədbirlərinin, o cümlədən infrastruktur layihələrinin icra olunduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, işğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması üçün əlverişli şəraitin yaradılması məqsədilə görülən işlər, o cümlədən vergi və gömrük güzəştləri, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, sosial sığorta haqlarının subsidiyalaşdırılması və digər güzəştlər özəl təşəbbüsləri hərtərəfli təşviq etmək və dövlət-özəl sektor tərəfdaşlığını inkişaf etdirməklə regiona investisiya qoyuluşunu artıracaq.

Nazir müavini deyib ki, bir sıra stimullaşdırıcı alətlər və güzəştlər Qarabağla yanaşı, regionda təhlükəsiz və layiqli həyat səviyyəsinin formalaşdırılmasına, sosial-iqtisadi potensialın xalqın rifahı naminə səmərəli istifadəsinə, xüsusilə insan kapitalının keyfiyyətinin yüksəldilməsinə, elmin və biliktutumlu sahələrin inkişafına, əmək məhsuldarlığının və rəqabət qabiliyyətinin yüksəldilməsinə, məşğulluğun artırılmasına təkan verəcək.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov işçi qrupun iclasında yaşayış məskənlərində infrastrukturun bərpası və yenidən qurulması, əhalinin öz yurdlarına geri qayıdışı, məşğulluğun təmin edilməsi prosesi barədə məlumat verib. Onun sözlərinə görə, bölgədə müxtəlif istiqamətlər üzrə sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar var və iş adamları biznes fürsətlərindən lazımınca yararlana bilərlər. Xankəndi şəhərində və ətraf rayonlarda sahibkarlar tərəfindən müxtəlif istiqamətlər üzrə layihələrin icra olunduğu və bu layihələrdə əsasən qayıdışı həyata keçirilən əhalinin çalışdığı vurğulanıb.

Tədbirdə, həmçinin işçi qrupun digər üzvləri tərəfindən təmsil etdikləri qurumların işğaldan azad edilmiş ərazilərimizin iqtisadi reinteqrasiyası məqsədilə gördüyü işlər barədə məlumatlar təqdim olunub.

İclasda işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi, regionun investisiya cəlbediciliyinin artırılması və dayanıqlı məşğulluğun təmin olunması istiqamətində müzakirələr aparılıb, zəruri tədbirlərin icrası ilə bağlı müvafiq tapşırıqlar verilib.

Xatırladaq ki, bir qədər əvvəl Şuşada 100-dən çox sahibkarın, eləcə də müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə "Sahibkarlar üçün yeni imkanlar: Qarabağı birlikdə quraq" mövzusunda keçirilən tədbirdə özəl sektor nümayəndələrinə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının investisiya imkanları və biznes perspektivləri təqdim edilib, dövlət-özəl sektor əməkdaşlığı modeli üzrə müzakirələr aparılıb. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərin biznes imkanlarına həsr olunmuş tədbirin iştirakçıları Xankəndi şəhərinin iqtisadi potensialı ilə tanış olublar. Tanışlıq zamanı Xankəndinin tarixi, burada görülən bərpa işləri və şəhərin sənaye mərkəzinə çevrilməsi istiqamətində aparılan işlər haqqında sahibkarlara və müvafiq dövlət qurumlarının nümayəndələrinə məlumat verilib. Bildirilib ki, işğal vaxtı separatçılar tərəfindən xarici görünüşü dəyişdirilmiş tikililərin əvvəlki siması qaytarılır, binalarda bərpa işləri aparılır, eləcə də biznes fəaliyyətinin genişləndirilməsi tədbirləri görülür.

Bununla yanaşı, Xankəndi şəhəri ilə tanışlıq çərçivəsində istehsal müəssisələrinə baş çəkən sahibkarlarımıza şəhərin iqtisadi potensialı, yeni yaradılmış infrastruktur və həyata keçirilməsi təklif edilən investisiya layihələri barədə məlumat verilib.

# BTC neft nəqlini 10 faiz artırıb

**Bu ilin ilk yarısında Azərbaycanın neft kəmərləri ilə 19 milyon 238,6 min ton neft nəql edilib. Bu barədə "XQ"yə Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, nəqletmənin 14 milyon 468,7 min tonu və ya 75,2 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri (BTC) ilə həyata keçirilib.**



Hesabat dövründə BTC ilə nəqletmənin 11 milyon 773,9 min tonu və ya 81,4 faizi Azərbaycan da hasil olunmuş neftin payına düşüb. Məlum olduğu kimi, artıq BTC ilə, həm də Qazaxıstan və Türkmənistan nefti daşınır. Bu ilin yanvar-iyun aylarında bu kəmərlə adıçəkilən ölkələrə məxsus 2 milyon 694,8 min ton neft ixrac olunub. Bu isə ümumi nəqletmənin 18,6 faizi deməkdir. Ümumilikdə, BTC ilə daşınmış Qazaxıstan və Türkmənistan nefti əvvəlki ilin eyni dövrünə nisbətən 9,8 faiz artıb.

Xatırladaq ki, ötən il ölkəmizin magistral neft kəmərləri ilə 39 milyon 753,2 min ton neft nəql edilib. İl ərzində nəql edilmiş neftin 30 milyon 191,6 min tonu və ya 75,9 faizi Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin payına düşüb.



# Qocaman "Bibiheybət" yatağının yeni həyatı

**Rusiyanın "Tatneft" neft şirkəti Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə birlikdə ölkəmizin ən qədim neft yataqlarından biri olan "Bibiheybət" yatağının işlənməsini həyata keçirəcək.**

Bu barədə "Tatneft"in baş direktoru Nail Maqanov məlumat verib. "Bu, köhnə yataqlardan biridir. SOCAR-dan olan həmkarlarımızla birlikdə bizdə olan texnologiyaları tətbiq edəcəyik", – deyə o, Almetyevskdə keçirilən Beynəlxalq Neft və Qaz Forumunda bildirib.

Tatarıstan və Azərbaycan şirkətlərinin Türkiyədə neft emalı zavodunun yenidən qurulması sahəsində birgə çalışdıqlarını vurğulayan baş direktor ənənəvi olaraq neft-kimya sahəsində yaxşı nəticələr əldə edildiyini və azərbaycanlı həmkarlarla birlikdə bu mövzu üzərində işlədiklərini diqqətə çatdırıb.

Qeyd edək ki, 2024-cü ilin mayında SOCAR və "Tatneft" arasında əməkdaşlığa dair Yol Xəritəsi imzalanıb. Bu sənədlə şirkətlər arasında neft hasilatı, emalı, neft və neft-kimya məhsullarının satışı, təcrübə mübadiləsi, insan kapitalının inkişafı və digər sahələr üzrə əməkdaşlıq nəzərdə tutulur.

# Kənd 6,2 milyard manatlıq məhsul yetirib



**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin ilk 6 ayında ölkəmizdə 6 milyard 19 milyon manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 0,3 faiz çoxdur.**

Son bir ildə respublikada istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 1,4 faiz azalaraq 2 milyard 881 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 2,1 faiz artaraq 3 milyard 138 milyon manat olub.

İyulun 1-nə qədər qarğıdalı da daxil olmaqla tarlalardan 1 milyon 957 min ton və yaxud ötən ilin eyni dövrünə nisbətən 5,6 faiz az dənli və dənli paxlalı bitkilər, 859 min ton (3,4 faiz çox) tərəvəz, 358 min ton (17 faiz az) kartof, 175 min ton (8,4 faiz çox) meyvə və giləmeyvə, 128 min ton (14,4 faiz çox) bostan məhsulları, 11 min ton (2 dəfə çox) şəkər çuğunduru yığılıb.

Hesabat dövründə diri çəkidə 290 min ton ət, 1 milyon 134 min ton süd, 1 milyon 189 milyon ədəd yumurta, 14 min ton yun, 239 ton barama istehsal olunub. Ötən ilə nisbətən ət istehsalı 1,7 faiz, süd istehsalı 1 faiz, yumurta istehsalı 7,4 faiz artıb.

# 5 ayda ölkəmizdən 8 milyon ton yük keçib

**Cari ilin yanvar-may aylarında Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri ilə 13 milyon 648,4 min ton yük daşınıb. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.**

Bildirilib ki, hesabat dövründə yüklərin 6 milyyon 227,4 min tonu və ya 45,6 faizi dəmir yolu nəqliyyatı, 4 milyon 245,2 min tonu və ya 31,1 faizi avtomobil nəqliyyatı, 3 milyon 175,8 min tonu və ya 23,3 faizi isə dəniz nəqliyyatı ilə daşınıb. Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 59,5 faizi və ya 8 milyon 124,3 min tonunu tranzit yüklər təşkil edib.



*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## "Yaşıl dünya" naminə həmrəylik



# COP29: Azərbaycan "yaşıl iqtisadiyyat"a keçidin önündə

**Cari il noyabr ayının 11-dən 22-dək dünyanın diqqəti Azərbaycanda, Bakı şəhərində olacaq. Həmin günlərdə paytaxtımız "Tərəflər konfransı"na – COP29-a evsahibliyi edəcək. Bəşəriyyəti narahat edən iqlim probleminin həlli yolları Azərbaycanda araşdırılacaq.**

Bəs Tərəflər Konfransının (COP) yaradıcıları tərəfindən bu platforma qarşısında hansı problemlərin həlli yollarının tapılması qoyulub? Sualın cavabı ilə bağlı, ilk növbədə, onu vurğulayım ki, Yer kürəsində mövcud olmuş orta hərarətin davamlı şəkildə artması 1990-cı illərin əvvəllərindən etibarən bəşəriyyəti ciddi narahat etməyə başladı. Aparılan araşdırmalar göstərdi ki, son 100 ildə dünyada havanın hərarəti hər 10 il ərzində əvvəlki dövrlərlə müqayisədə daha yüksək olub. Alimlər və aparıcı tədqiqat mərkəzləri Yer kürəsində havanın temperaturunun son 200 ilə yaxın bir zamanda təqribən, 1 dərəcə artmasını və bu artımın böyük bir hissəsinin son 30 ilin payına düşməsini ciddi bir siqnal kimi dəyərləndirərək həyəcan təbili çalmağa başladılar.

Havanın hərarətinin belə sürətlə artması bəşəriyyəti hansı təhlükələrlə üz-üzə qoya bilər? Bu sual beynəlxalq təşkilatları və ilk növbədə, BMT-ni ciddi narahat etməyə başladı. Vəziyyəti nizamlamağın yolları araşdırıldı. Bu məqsədlə 1992-ci il may ayının 9-da Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransında adıçəkilən beynəlxalq qurumun İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası qəbul edildi və həmin konvensiya 154 dövlət tərəfindən imzalandı.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası atmosferdə istixana qazlarının konsentrasiyalarını sabitləşdirməklə insanların iqlim sisteminə kobud müdaxiləsinə qarşı mübarizə aparmaq üçün ölkələr arasında bağlanmış beynəlxalq müqavilədir. Müqavilə rəsmi olaraq 1994-cü il martın 21-də qüvvəyə minmişdir. Yeri gəlmişkən, sözügedən konvensiyasının əsas hədəfi insanlar tərəfindən atmosferə buraxılan istixana qazlarının iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını alamaq və əsas məqsəd bu durumu sabitləşdirmək idi.

Qeyd edim ki, 1997-ci il dekabrın 11-də Yaponiyanın Kioto şəhərində bəşəriyyəti narahat edən iqlim probleminin araşdırılması məqsədilə müxtəlif ölkə qrupları üzrə fərqli öhdəliklər müəyyənləşdirən daha yeni bir sənəd – Kioto protokolu da qəbul edildi. Xatırladım ki, 2020-ci ildə Kioto Protokoluna artıq 192 ölkə tərəf kimi qoşulmuşdu. Bu Protokolda başlıca hədəf insan amili səbəbindən atmosferə buraxılan tullantı qazların həcmini minimallaşdırmaq və bu yolla Yer kürəsində havanın hərarətini sabitləşdirmək idi. Protokol ümumi, lakin fərqli öhdəliklər prinsipinə əsaslanırdı. Sənəd ayrı-ayrı ölkələrin iqtisadi inkişafı nəzərə alınaraq həmin dövlətlərin ərazilərində atmosferə buraxılan istixana qazlarının mövcud səviyyəsinə əsaslanır, bu sahədə onların üzərinə öhdəliklər qoyurdu.

Protokolun ilk öhdəlik dövrü 2008-ci ildə başlayaraq 2012-ci ildə yekunlaşdı. Bu öhdəliyə 36 ölkənin hamısı Protokola tam şəkildə əməl etsə də, atmosferə daha çox istixana qazı buraxan bəzi dövlətlər tərəfindən isə laqeydliklə yanaşıldı. Nəticədə 1990-cı ildən 2010-cu ilə qədərki 20 il ərzində atmosferdə qlobal emissiyaların həcmi 32 faizə qədər artdı.




Bəşəriyyəti ciddi narahat edən iqlim dəyişikliyi probleminin həlli yollarını tapmaq üçün 2015-ci il dekabr ayının 12-də Fransanın paytaxtı Paris şəhərində Kioto Protokolunu əvəzələyəcək yeni bir sənəd – Paris Sazişi qəbul edildi. Bu Sazişi hazırlayanlar onun yüksək ambisiyalı, lakin balanslaşdırılmış yanaşması olan bir sənəd olduğunu qeyd etmişdilər. Sazişin əsas hədəfi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tələblərini reallaşdırmaq, xüsusilə qlobal orta temperaturun artımını 2 °C-dən aşağı saxlamaqdan, daha doğrusu, temperatur artımını 1,5 ° C-ə qədər məhdudlaşdırmaqdan ibarət idi.

BMT başda olmaqla beynəlxalq təşkilatların dünyada iqlim dəyişikliyi ilə bağlı problemin həllinə yönəldilən səyləri müəyyən nəticələr əldə etməyə imkan versə də, bəşəriyyət bu problemin tam həllinə hələ ki, nail ola bilmir. Bu sahədə vəziyyətin ciddiliyini mövcud gerçək vəziyyət daha aydın bir şəkildə ortaya qoya bilir.

Baxın, əgər insanlıq atmosferə buraxılan istixana qazlarının həcminin azaldılması hesabına Yer kürəsində havanın hərarətinin sürətlə artmasının qarşısını ala bilməsə, 2050-ci ilə qədər dünyada dənizlərin və okeanların sahillərində yerləşən yaşayış məntəqələrinin böyük əksəriyyəti şimal və cənubdakı buzlaqların sürətlə əriməsi səbəbindən suyun altında qala bilər. Bu, o deməkdir ki, yaxın 25 il ərzində həmin ərazilərdən 300 milyona qədər insanın başqa yerlərə köçürülməsi təmin edilməlidir. Bu, ümumbəşəri humanitar bir fəlakət deməkdir.

Həmin ərazilərdə su altında qalan yüz minlərlə müəssisənin və əkin sahələrinin dövriyyədən çıxması dünya iqtisadiyyatına ciddi zərbə vurmuş olacaq. Dünyada əhalinin sayının sürətlə artdığı və hər il təxminən 9 milyon insan aclıqdan öldüyü, 30 faizə qədər insanın zəruri ərzaqla təmin edilə bilmədiyi indiki şəraitdə bunun nə demək olduğunu anlamaq çətin deyil.

Beləliklə, dünyanın iqlim problemlərinin kökündə dayanan əsas məqamları xatırlatmaqla bu ilin noyabr ayında Bakı şəhərində keçiriləcək və bu problemlərin həlli yollarının axtarışına həsr olunacaq COP29-un beynəlxalq əhəmiyyətini bir daha diqqətə çatdırmaq istədik.

Azərbaycan artıq yerləşdiyi regionu deyil, bəşəriyyəti düşündürən və ciddi narahat edən problemlərin həllinə həsr olunmuş beynəlxalq bir tədbirə evsahibliyinə hazırlaşır. COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq aləmdə ölkəmizin nüfuzunun yüksəlməsinə və siyasi çəkisinin artmasına xidmət edəcək.

Otuz il əvvəl dünyada o qədər də tanınmayan Azərbaycan bu gün beynəlxalq aləmin diqqət mərkəzinə çevrilən bir məkandır. Respublikamızın bu statusa yüksəlməsi isə ölkə rəhbərliyinin düşünülmüş, uzaqgörən və uğurlu daxili və xarici siyasəti nəticəsində gerçəkləşib.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***



# Bakıya elektrobuslar gəlir...

**Müasir texnologiyanın inkişaf etdiyi və ətraf mühitin mühafizəsinin daha da aktuallaşdığı bir dövrdə alternativ yanacaqla işləyən nəqliyyat vasitələrinin əhəmiyyəti getdikcə artır. Artıq bu cür avtomobillər müasir nəqliyyatın əsas tərkib hissələrindən birinə çevrilir.**

Təsadüfi deyildir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 2015-ci ildə keçirilən 21-ci konfransında qəbul olunan Paris Razılaşmasında elektrobusların istifadəsinin genişləndirilməsi ən mühüm məsələlərdən biri kimi qarşıya qoyulub. Bundan başqa, elektrobusların genişmiqyaslı tətbiqini təşviq etmək üçün Təmiz Avtobus Bəyannaməsi (BUS2025) imzalanıb. Belə ki, dünyada mövcud avtobusların təqribən yarısının növbəti 5 il ərzində tamamilə elektrobuslara keçidi planlaşdırılıb.

Ölkəmizdə də bu istiqamətdə böyük işlər görülür. Ekoloji təhlükəsizlik, ictimai nəqliyyatın atmosferə zərərli tullantılarının azaldılması əsas prioritet kimi nəzərdən keçirilir. Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli Qərarına əsasən, paytaxtda müntəzəm marşrut xətləri üzrə istismarda olan avtobuslar elektrik mühərrikli nəqliyyat vasitələri ilə əvəz edilməlidir. Hazırda ölkəmizdə 2 milyonadək avtomobil var. Bunların yarısı Bakı şəhərinin payına düşür. Son vaxtlar bu rəqəm bir qədər azalıb. Buna səbəb ölkə rəhbərliyinin ətraf mühitin qorunması ilə bağlı apardığı önəmli siyasətdir. Qarşıda isə COP29 kimi beynəlxalq tədbir var. COP29-a qədər Bakıya 160 yeni elektrikli avtobus gətirilərək istifadəyə veriləcək. Eyni zamanda 2024–2026-cı illərdə sərnişindaşımada "Brutto müqavilə" modelinə keçidin təmin edilməsi də planlaşdırılır. Bununla da dizellə istismarda olan avtobusların tamamilə dövriyyədən çıxarılaraq elektrobuslarla əvəzlənməsi gözlənilir. Artıq 2026-cı ildə 1100 ədəd elektrobusun istismara daxil olması planlaşdırılır.

Göründüyü kimi, elektrobusların ölkəyə gətirilməsi ilə bağlı ciddi işlər görülür. Bununla əlaqədar Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev bildirib ki, cari ilin əvvəlində paytaxtda 200 yeni avtobus xəttə buraxılıb və yaxın vaxtlarda daha bu qədər sözügedən nəqliyyat vasitəsinin ölkəyə gətiriləcəyi nəzərdə tutulur: "COP29 tədbirinə qədər Bakıya 160 yeni elektrobus gətirilərək istifadəyə veriləcək. Ümumilikdə, paytaxtda 360 avtobusun istifadəyə verilməsi nəzərdə tutulub. Bakının avtobus nəqliyyatı ilə bağlı AYNA yeni şəbəkə hazırlayıb. Hazırda şəbəkənin tətbiqinə başlanılıb".

AYNA-nın sədri qeyd edib ki, şəbəkə üzrə ilk 5 marşrut artıq istifadəyə verilib. Bunlar şəhərin uzaq məntəqələrini – Hövsan və Mərdəkanı mərkəzlə əlaqələndirən marşrutlardır.

Nəqliyyat eksperti Elməddin Muradlı isə qeyd edib ki, elektrobusların müsbət tərəfləri kifayət qədər çoxdur: "Noyabrda ölkəmiz ən böyük beynəlxalq tədbirə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcək. İqlim dəyişikliyi artıq bütün dövlətlər qarşısında danılmaz reallıq kimi dayanır. Mineral yanacaq növlərindən istifadənin geniş yayılması və bunun nəticəsində atmosferə atılan istixana qazlarının həcminin artması dünyada temperaturun yüksəlməsinə səbəb olur. Temperaturun qlobal səviyyədə artması səbəbindən isə hava şəraiti dəyişir – ekstremal təbiət hadisələri tez-tez baş verir. Sürətlə dəyişən iqlim insanlar üçün sağlamlıq problemləri də yaradır".

E.Muradlının sözlərinə görə, iqlim dəyişikliyi məsələsində beynəlxalq ictimaiyyətin üzərinə böyük məsuliyyət düşür. Azərbaycanda da bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir. Onlardan biri də ekologiyanın çirklənməsinin qarşısını almaq üçün elektrobusların marşrut xətlərinə buraxılmasıdır. Bu, çox müsbət addımdır. Düşünürəm ki, belə avtobusların sayını çoxaltmaq lazımdır. Ona görə ki, birincisi, elektrobuslar ekoloji təmiz nəqliyyat vasitələridir. Havanı karbon qazı ilə çirkləndirmir. Bu yolla paytaxt tüstüdən, zəhərli maddələrdən xilas olur. Şəhər sakinlərinin ağciyərlərinə tüstünün tərkibində olan bəzi metallar çökmür. Biz paytaxtda nəqliyyat vasitəsi kimi elektrobuslardan istifadə etməklə təmiz hava alırıq. Bu məqamda o da vurğulanmalıdır ki, Bakıda ətraf mühitin çirklənməsinin 80 faizi nəqliyyat vasitələrinin ixrac etdiyi zəhərli qazların payına düşür.

İkincisi, elektrobuslardan istifadə etməklə küçələrdə nəqliyyatın səs-küyü minimuma enir. Çünki elektrik avtobusları hər hansı bir nəqliyyat vasitəsi kimi səs-küy yaratmır. Onda təkərlərdən başqa, səs-küy yaradan hissələr yoxdur. Təkərlərin səsi də dizel və benzinlə işləyən avtomobillərin yaratdığı səs-küylə müqayisədə kifayət qədər azdır.

E. Muradlı sonda bildirdi ki, elektrobuslar benzin və ya dizellə işləyən avtobuslardan qat-qat az hissələrə malikdir. Təmiri də asandır. Eyni zamanda istənilən marşrut üzrə digər nəqliyyat vasitələri ilə müqayisədə manevr imkanı genişdir. Sürücülər üçün rahatlıq da var. Amma elektrobuslar sifariş verilərkən Bakının bəzi küçə və yollarının eni, manevr imkanları və tutumu nəzərə alınmalıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Özəl sektor "iqlim savaşı"na qoşulur




**COP29 Azərbaycan Əməliyyat Şirkəti özəl sektorla birgə dayanıqlılıq və iqlim fəaliyyətinin davamlılığının təşviqini genişləndirir. Bu barədə COP29-un "Milli Öhdəlik Proqramı" çərçivəsində özəl sektorun nümayəndələri ilə keçirilən növbəti rəsmi görüşdə ətraflı məlumat verilib. Görüş "COP29 Sponsorluq və Tərəfdaşlıq" strategiyasına uyğun olaraq dayanıqlılıq və ətraf mühit meyarlarının formalaşması, milli şirkətlərin korporativ strategiyalarının qlobal dayanıqlılıq hədəflərinə uyğunlaşdırılması üzrə cari ilin may ayında yerli özəl biznes iştirakçıları ilə başlanılan təşəbbüs çərçivəsində baş tutub.**

Tikinti, istehlak məhsulları və istehlakın müxtəlif sahələri, texnologiya, maliyyə, bank sektoru kimi istiqamətləri təmsil edən qabaqcıl milli şirkətlərin 40-dan artıq nümayəndəsinin qatıldığı tədbir korporativ arenada ekoloji məsuliyyətin və könüllü öhdəliklərin gücləndirilməsi strategiyalarına yönəlib. Bu seminar şirkətlərə dayanıqlılıq öhdəliklərinin nəzərdən keçirilməsinə, bu yöndə töhfələrin daha effektiv şəkildə icrasına, aparıcı biznes liderləri arasında sektorlararası əməkdaşlığın və mövcud potensialın gücləndirilməsinə xidmət edib.

Görüşdə Milli öhdəlik proqramının növbəti mərhələləri haqqında iştirakçılara ətraflı məlumat verilib, şirkətlərin "yaşıl" keçid zamanı üzləşdikləri imkan və çətinliklər, kollektiv fəaliyyətin səfərbər edilməsi və COP29-da iştirakçılıq çərçivəsində ölkəmizin milli öhdəliklərə daha çox töhfə verməsinin yolları barədə fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, COP29 tərəfdaşı olan və Milli öhdəlik proqramına qoşulan şirkətlər üçün xalis sıfır keçid planını dəstəkləyəcək maarifləndirmə təlimləri təşkil ediləcək. Eyni zamanda Milli öhdəlik proqramında iştirak edən şirkətlər təyin olunmuş sponsorluq meyarlarına cavab vermiş kimi tanınacaqlar.

***XQ***

# "AzerGold" təbiətə üz tutub




**"AzerGold" QSC-nin fəaliyyətinin prioritet istiqmətlərindən biri də ətraf mühitin mühafizəsi ilə bağlıdır. Ötən 8 ildə bu sahədə bir sıra uğurlara imza atan qurumun ekoloji monitorinq proqramına uyğun olaraq hazırda hasilat və istehsalat sahələrində hava, su və torpaq nümunələri davamlı şəkildə analiz edilir, toz, səs-küy və vibrasiya testləri aparılır.**

Eyni zamanda, "AzerGold" QSC ölkədə həyata keçirilən yaşıllaşdırma tədbirlərinə də töhfə verməyə çalışır. Bu məqsədlə meşələrin bərpası səylərinə dəstək olmaq, iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün müntəzəm ekoloji aksiyalar təşkil edilir. Ötən müddətdə Daşkəsən və Göygöl rayonlarında yerləşən qızıl mədənlərinin ətrafında 16 mindən çox ağac və kol bitkisi əkilib, yerli quş və balıq növlərinin artırılması məqsədilə lazımi işlər görülüb. Bununla yanaşı, bölgədə yerləşən çay və digər su hövzələri ətrafında təmizlik aksiyaları həyata keçirilib.

***XQ***

# "Yaşıl enerji" təhsilinə start!

**Ölkəmizin peşə təhsili sistemində ilk dəfə olaraq COP29-un keçiriləcəyi ildə yeni ixtisaslar yaradılır. Bunu İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) nəzdində fəaliyyət göstərən Peşə Təhsil Mərkəzinin direktoru Kənan Bağırov deyib.**

Onun sözlərinə görə, peşə təhsili sistemi üçün yenilik sayılan "Alternativ enerji qurğu və avadanlıqlarının istismarı ixtisası" üzrə İZİA-nın Peşə Təhsil Mərkəzinə 2 qrup üzrə 40 nəfər tələbənin qəbulu nəzərdə tutulur. Qeyd edilib ki, İsveçrə universiteti "SMBS – Swiss Montreux Business School" arasında əməkdaşlıq çərçivəsində ilk dəfə olaraq Peşə Təhsil Mərkəzində ikili diplom proqramından istifadə olunacaq. İlkin mərhələdə bu proqramdan "İnformasiya-kommunikasiya texnologiyaları üzrə texnik" ixtisası üzrə təhsil alan tələbələr faydalanacaqlar.

***XQ***



# “Kimsəsiz uşaqlar” himayəsiz deyillər

**“Kimsəsiz Uşaqların Sosial Müdafiəsi” İctimai Birliyi “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların psixoloji reabilitasiyası” adlı layihənin icrasına başlayıb. Donoru Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi olan 3 aylıq layihəni “Sağlam ruh, sağlam cəmiyyət naminə uşaqların psixoloji reabilitasiyası” adlı şüarla Gəncə Uşaq Evinə (sığınacaq) yerləşdirilən uşaqlarla ixtisaslı psixoloq reabilitasiya seansları aparmaqla həyata keçirir.**




Psixoloji reabilitasiyaya cəlb olunan uşaqlara 12 mövzu ətrafında psixoloji yardım göstərilməsi nəzərdə tutulub. Birinci mövzu “Uşaqlarda davranış pozuntularının müəyyən edilməsi və aradan qaldırılması”dır.

**Layihənin rəhbəri və icraçısı, “Kimsəsiz Uşaqların Sosial Müdafiəsi” İctimai Birliyinin sədri Lamiyə İsazadə XQ-yə müsahibəsində mövzu ilə bağlı öncə uşaqlardakı davranış pozuntularından söz açdı:**

– Bildiyimiz kimi, davranış pozuntusu uşaq psixiatriyasında ən çox rast gəlinən diaqnozlardan biridir. Davranış pozuntuları müxtəlif psixi və fiziki səbəblər ucbatından uşağın daxilində baş verənləri davranışlarında nümayiş etdirməsi nəticəsində aşkarlanır. Ən çox oğlan uşaqlarında rast gəlinən bu pozuntuların inkişafı həm bioloji, həm yaşadığı ailədaxili problemlərin, həm də ətraf mühitin təsirindən asılıdır.



İnkişafın özü ilə gətirdiyi çətinliklərlə yanaşı, uşağın həyatında baş verən dəyişikliklərin və neqativ hadisələrin də davranışlara böyük təsiri var. Davranış pozuntularının fizioloji proseslərdən və psixoloji xüsusiyyətlərdən asılı səbəbləri çoxdur. Bunlara yaşayış yerini, yaxud təhsil aldığı məktəbi dəyişdirmək, ailədə yeni bacı və ya qardaşın doğulması, ailə üzvlərinin itirilməsi, ata – ananın ayrılığı, valideynlər tərəfindən atılmaq qorxusu kimi hadisələr aiddir.

Tədqiqatçıların fikrincə, davranış pozuntusunun inkişafında əsas yeri tərbiyə tutur. Ailə və sosial mühit tərəfindən sevilən, dəstək görən, özgüvəni formalaşdırılmış uşaqlar belə hallara asanlıqla uyğunlaşa bilirlər. Valideyn dəstəyi görməyən, həyat təcrübəsi olmayan, iradəsi zəif uşaqlar isə belə hadisələrlə qarşılaşanda dözümsüzlük nümayiş etdirir, uyğunlaşmağa çətinlik çəkib uğursuzluqla üzləşirlər.

**– Reabilitasiya məqsədli ilk seansınız necə keçdi?**

– Davranış pozuntularının diaqnostikası və aradan qaldırılması üçün Gəncə Uşaq Evində təşkil olunan ilk seansda ixtisaslı uşaq psixoloqu iki nəfər uşaqla məşğul oldu və onlarla ilkin müayinə apardı. Bu seansda 9 yaşlı qız və 6 yaşlı oğlan ilə (bacı - qardaş) ilkin tanışlıq və psixoloji konsultasiya baş tutdu. Mövzuya uyğun olaraq həmin iki uşaqda davranış pozuntularının müəyyən edilməsi və aradan qaldırılması ilə bağlı müayinə və müşahidə aparıldı.

İlkin müayinə və müşahidəyə əsasən 9 yaşlı qızda psixoloji və fiziki olaraq dərin duyğu zədələnməsi, qorxu, stress, ailə fərdlərindən olan yaşlı atanın (70 yaşlı), gənc ananın itirilməsi duyğusu, natamamlıq hissi müşahidə olundu. 6 yaşlı qardaşında isə söhbət əsnasında onun üçün yeni düşdüyü şəraitə və yeni dostlara uyğunlaşmaq və adaptasiya olmaq çətinliyini, ailə üzvlərindən olan böyük qardaşı ilə mübahisəsini aşkarladıq.

Uşaqlarla söhbətlər edildi, onların hərəkətləri və davranışları izlənildi. Daha sonra sığınacaqda onların qayğısına qalan tərbiyəçi və müəllimlərlə, müəssisədə çalışan psixoloqla uşaqların emosional vəziyyəti müzakirə edildi.

**– Yəqin, sonrakı seans xəstəlik səviyyəsində problemlərə həsr olunduğuna görə fərqli keçdi.**

– 2-ci seans “Uşaqlarda nitq problemlərini yaradan səbəblərin aşkar edilməsi və aradan qaldırılması” mövzusunu əhatə edirdi. Təəssüf ki, dövrümüzün ən aktual məsələlərindən biri, uşaqlarda nitq ləngimələridir. Təbii ki, bunlar uşağın gələcək inkişafına, həyatına, təlim fəaliyyətinə, eləcə də psixi inkişafına birmənalı şəkildə mənfi təsir göstərir. Bəzən valideynlərin övladları ilə qeyri-düzgün davranışları da uşaqlarda nitq problemlərinə yol açır. Uşaq danışarkən onun sözünü kəsmək, fikrini çatdırmağa imkan verməmək, sözlərini qulaqardına vurmaq nitqdə ləngimələrin yaranmasına səbəb olur.

14 yaşlı qız və 13 yaşlı oğlan ilə keçirdiyimiz seansda müəyyən qədər fərqli situasiyalarla üzləşdik. Seansda 14 yaşlı qızın həm fiziki həm də psixi inkişafında ləngimə olduğu müşahidə olundu. Zəka testi və diqqət dağınıqlığı ilə bağlı oyunlar keçirildi. Lakin bununla bərabər nitqində “k” və “ç” hərflərinin tələffüzündə problem olduğu aşkar olundu. Oğlanda isə psixi inkişafın ləngiməsi müşahidə olunaraq nitqindəki problemin loqopedlə aradan qaldırılması məsləhət görüldü.

3-cü seans “Uşaqlarda düzgün ünsiyyət bacarığının formalaşdırılması” mövzusuna həsr edildi. 14 və 16 yaşlı Cavadov qardaşları ilə görüşdük.

Nəticədə 16 yaşlı oğlanda təlim fəaliyyətinə gecikmənin fəsadları, özünəinamın olmaması, ünsiyyətdən qaçmaq, verilən suallara qısa cavablar vermək, ən əsası isə özünü başqalarından aşağı sanmaq və natamamlıq hissi müşahidə edildi. Digərində isə onun ailə bağlarına daha çox önəm verməsi, ailə istiliyi və qayğısı hisslərini saxlayaraq duyğu dəyişimi yaşaması, söz ehtiyatının az olması ilə fikirlərini və düşüncələrini yetəri qədər ifadə edə bilməməsi aşkar olundu.

Uşaqlarla söhbət zamanı gördük ki, onlar, istər yaşıdları, istərsə də özlərindən böyük, yaxud kiçiklərlə ünsiyyət qurmaqda çətinlik çəkirlər.

**– Uşaqlarda nitq probleminin olduğu nə zaman aşkarlanır? Bəzən ailədəki böyüklər gec danışan uşaqların “düzələcək”– deyib həkimə, yaxud psixoloqa aparılmasına razı olmurlar.**

– Nitqdə yaranmış problem və ya gecikmə, uşaq böyüdükcə təfəkkürün inkişafına da mane olur. Nitqin inkişafına anadangəlmə zehni və nevroloji xəstəliklərin olması ciddi təsir edən amillərdən biridir. Diaqnoz, adətən, daha çox 5 yaşdan yuxarı uşaqlarda qoyulur. Lakin uşağın nitq ləngiməsinin müalicəsinə başlamaq üçün 5 yaş gecdir. Valideynlər nə qədər tez həmin əlamətləri aşkar etsələr, müalicənin təsiri o qədər yaxşı olar. Təcrübələrə əsasən, deyə bilərik ki, ideal olaraq 2 yaşa qədər aşkarlanan nitq gerilməsinin tam sağalma şansı var. Bəzi hallarda bu problemlər 5 yaşına kimi biruzə verməyə bilər, məktəb dövründə daha qabarıq şəkildə özünü büruzə verir.

**– Nitq probleminin əsas yaranma səbəbləri nədir? İrsiyyət amili varmı?**

– Nitq inkişafının ləngiməsi sağlam uşaqlarda da müşahidə oluna bilər. İrsiyyətin bu problemə təsirinin olması hələ öyrənilməyib. Nitq problemlərinin yaranma səbəbləri müxtəlifdir. Lakin əgər vaxtında aşkar edilib aradan qaldırılarsa, o qədər də ciddi problemə çevrilməz. Çox vaxt valideynlər özləri də bilmədən uşağın nitqində çətinliklər yaranmasına səbəb olurlar. Düzgün danışıq və zehni inkişaf üçün fizioloji normalar mövcuddur.

Qeyri-düzgün tərbiyə, uşağın ifrat dərəcədə valideyn qayğısında olması, yaxud, əksinə, qayğıdan məhrum olması, onların assosial ailələrdə böyüməsi, psixoloji travmalar, sağlam ailə mühitinin olmaması, uşaq danışmaq istəyəndə imkan verməmək, sözünü kəsmək də nitq inkişafını ləngidir. Uşağın davamlı şəkildə televizora baxması, kompyuter qarşısında çox vaxt keçirməsi, telefondan, planşetdən müntəzəm istifadə etməsi də nitq problemlərinə yol açır. Nəticə etibarilə belə uşaqlarda özünəqapanma da müşahidə olunur.

Qeyd edim ki, psixoloji reabilitasiyanın dördüncü seansı “Yeniyetmələrdə stress və onun idarə edilməsi” mövzusuna həsr edildi. Həmin seansı da uğurla tamamladıq. Problemi olanlar müəyyən edildi və onlara məsləhətlər verildi.

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların psixoloji reabilitasiyası” adlı layihə çərçivəsində yuxarıda göstərilən mövzularla bağlı təşkil olunan seansları uşaqların nitqində və psixikasında geriləmənin qarşısını almaq, davranış pozuntularını aradan qaldırmaq, yaşıdları ilə ünsiyyət qurmaları asanlaşdırmaq məqsədilə həyata keçirdik. Onlarda daha müsbət nəticələr əldə etmək üçün layihə bitdikdən sonra da təşkilat tərəfindən seansların davamlılığı təmin olunacaqdır.

*Söhbəti qələmə aldı:*
***Zərifə BƏŞİRQIZI***
***XQ***

## Təbiətin qəribəlikləri

**İlan zəhəri kəskinliyinə görə ən öldürücü zəhər kimi tanınır. Tarix boyu insanlar bu əlsiz-ayaqsız sürünənlərə həyatlarının qənimi, onun zəhərinə isə “ölüm iksiri” kimi baxıblar. Bu da ilanların kütləvi surətdə məhv edilməsi ilə nəticələnib. Yaxşı ki, bu “zəhər dağarcığı” insanlardan gizlənməyi, qorunmağı və nəslini artırmağı bacarıb.**

Zaman gəlib ki, alimlər ilan zəhərinin həm də ən şəfaverici vasitə olduğunu, bir çox dərdlərə əlac etdiyini öyrəniblər. İlan təsvirinin təbabətin emblemine çevrilməsi də bununla bağlıdır. Lakin ilanların öz zəhərləri ilə məlhəm mənbəyi olmasından hələ də çoxları xəbərsizdir. İlanlara qədimdən qalma “İlanı görüb öldürməyənə lənət” məsəlinin nəzəri ilə baxanlar isə, onların bir çoxunun zəhərsiz və ehtiyatla davrananda təhlükəsiz olduğundan xəbərsizlik nəticəsində, bu faydalı canlının başını əzirlər. Elə isə gəlin bir daha ilanların olduğu kimi tanıyaq.

# İlan zəhəri ölüm saçır

## Dərmana çevriləndə isə həyat bəxş edir

Təbii halda ətraf mühitlə tarazlıqda yaşayan bu sürünənlər çevik hərəkətləri və dişlərinin dibindəki zəhərlə öz düşmənlərindən qorunurlar. Zəhər ilanın tüpürcək vəzinin ifrazatıdır. Rəngsiz, sarımtıl, yaxud yaşılaçalan duru maye olan ilan zəhərindən təbabətdə ən nadir, bahalı və təsirli preparatların hazırlanmasında xammal kimi istifadə edilir.



Ən zəhərli ilan sayılan gürzənin 1 qram qurudulmuş zəhəri 80, zınqırovlu ilanda isə bu doza 125 nəfəri öldürməyə bəs edir. İlan zəhərinin tərkibi albumin, qlobilin, ferment, su, duz və s. maddələrdən ibarətdir. Lakin ilan zəhərinin hamısı eyni tərkibdə olmur. Məsələn, gürzə zəhərinin tərkibində qansızmaya səbəb olan toksin, gözlüklü ilanda sinir sistemini zəhərləyən neyrotoksin var. İlan sancmasının əlamətləri də müxtəlifdir. Gürzə sancması ödemə, gözlüklü ilan sancması ürəkdöyünmə, başgicəllənmə, ürəkbulanma və qusmaya səbəb olur, bəzən ölümlə nəticələnir.

Qızıldan qiymətli olan ilan zəhəri müxtəlif xəstəliklərin müalicəsində işlədilir. Zınqırovlu və gözlüklü ilanların zəhəri epilepsiya, bronxial astma, əzələ, xroniki oynaq ağrıları və nevrologiyada istifadə edilir. Vərəm, qaraciyərin qan dövranının pozulması və böyrək xəstəliklərinin ağır formalarına ondan istifadə etmək olmaz.

Vaxtilə zəhər istehsal etmək üçün ölkəmizdə herpetoloji kombinat yaradılmışdı. 1969-cu ildə Zirədə yaradılan həmin müəssisədə 3 minədək zəhərli ilan bəslənilir və onlardan alınan məhsul məlhəm istehsalı üçün Baltikyanı ölkələrə satılırdı. O vaxt hər il ölkəmizdə 20 kiloqram gürzə zəhəri istehsal edilirdi. Tallinndə ondan “Viproslav” mazı hazırlanırdı. Xatırladaq ki, vaxtilə dünyada kristallaşdırılmış zəhər istehsalının yarısı kombinatda saxlanılan ilanlardan əldə edilirdi və ölkəmiz zəhər istehsalına görə dünyada Braziliya və Vyetnamdan sonra üçüncü yeri tuturdu.

Lakin o vaxtdan sonra çox küləklər əsib, çox sellər axıb. Ötən illər ərzində bu qiymətli və əvəzsiz istehsal sahəsi tamamilə unudulub və başlı-başına buraxılıb. Həmin münasibətin nəticəsi olaraq kombinat 1996-cı ildə öz fəaliyyətini dayandırıb, burada bəslənən 300-ə qədər zəhərli ilan isə təbiətin qoynuna buraxılıb. İndi Zirədəki kombinatın yerində yel vurub yengələr oynayır. Uçulub-sökülməkdə olan bina, taybatay açılmış qapılar yeni sahibini gözləyir.

Dünyada 3,5 minə yaxın ilan növünün yalnız 600-ü zəhərlidir. Ümumdünya Səhiyyə Təşkilatı onlardan 200-nün insan üçün təhlükəli olduğunu qeyd edir. Ölkəmizdə yayılmış 28 növ ilandan 22-si zəhərsiz, 6-sı isə zəhərlidir. Ən zəhərli ilan növləri Qafqaz gürzəsi və iri levantin gürzəsi hesab edilir. Qafqaz gürzəsinin bir sancması zamanı 55–60 milliqram zəhər əldə olunur. İlan zəhəri həm də çox baha qiymətə satılır. Qablaşdırılmış halda 1 qram ilan zəhəri 1000, adi halda 250–300 ABŞ dollarına satılır. Qurudulmuş ilan zəhərini 23 il saxlamaq mümkündür.

Kobra və ya “kral eynəkli ilan”ın zəhəri insanın sinir sistemini sıradan çıxarsa da, ən bahalı zəhər hesab edilir. Herpentoloqlar insan qanında maddələr mübadiləsini dayandıraraq ölümə səbəb olan gürzə zəhərini kobra zəhəri ilə bərabər tuturlar.

İlan zəhəri əczaçılıq sənayesi üçün qiymətli tibbi xammal hesab olunur. Ondan müxtəlif xəstəliklərə arşı müalicəvi və profilaktik dərman preparatlarının, qan zərdablarının, habelə müxtəlif profilaktik kosmetika məhsullarının istehsalı üçün istifadə edilir. İlan zəhəri və onun tərkibindəki ayrı-ayrı bioloji aktiv komponentlər tibbi-bioloji və diaqnostik tədqiqatlarda geniş tətbiq edilir.

Hazırda ilan zəhərinin yeni tətbiq sahələrinin axtarışı davam etdirilir, o cümlədən xərçəng və QİÇS xəstəliklərinin müalicəsində istifadə perspektivləri öyrənilir.

***Süleyman QARADAĞLI***

# SOSİAL XƏBƏRLƏR

### 4 min 133 qaziyə əlillik təyin edilib




Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi indiyədək 4 min 133 nəfər Vətən müharibəsi iştirakçısına əlillik təyin edib. Əlilliyi təsdiqlənənlərin hər birinə proaktiv qaydada sosial ödənişlər təyin olunub.

Əlilliyin qiymətləndirilməsində obyektivliyin və şəffaflığın, ədalətli yanaşmanın təmin olunması daim diqqətdə saxlanılır. Agentlik bu kateqoriyadan olanların operativ və əyani müayinə olunmaları üçün müasir diaqnostik, instrumental, laborator avadanlıqlarla təchiz edilib. Qiymətləndirmə prosesində şəffaflığın təmin olunması məqsədilə müayinələrin foto və videoçəkilişləri də aparılır.

Hərbi səbəblə əlaqədar əlilliyin təyin edilməsi üçün vətəndaşa Hərbi Həkim Komissiyası şəhadətnamə təqdim etdikdən və qeydiyyatda olduğu səhiyyə müəssisəsi elektron göndərişi (forma 88) rəsmiləşdirdikdən sonra agentlikdə müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət komissiya əyani müayinə həyata keçirir.

### 203 mindən çox işsiz məşğulluq tədbirləri ilə əhatə olunub

Dövlət Məşğulluq Agentliyi yanvar–iyun aylarında 203 min 100 şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.

Onlardan 84 min 400 nəfərin münasib işlərlə təminatı həyata keçirilib. 1,9 min şəxs isə özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatlarını yaratmaları üçün aktivlərlə təmin olunub. Qeyd olunan dövrdə agentlik 8 min 500 işsiz və işaxtaran üçün peşə hazırlığı kursları təşkil edib, 108 min 300 şəxsə peşəyönümü xidmətlər göstərib.

### 22 əlil uşaq övladlığa verilə bilər

Sosial Xidmətlər Agentliyinin valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrində, uşaq evi və internat müəssisələrində və Uşaq Psixonevroloji Mərkəzində 22 əlil uşağın övladlığa verilə bilməsi müəyyən olunub. Onlar barədə məlumatlar nazirliyin “Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə” altsisteminə daxil edilib.

Övladlığa veriləcək həmin uşaqlar üçün fərdi inkişaf planı hazırlanıb. Bu zaman uşaqların yaşı, sağlamlığı, istəkləri, bacarıq və digər xüsusiyyətləri nəzərə alınıb. Qeyd edək ki, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrindən övladlığa götürülən əlil uşağa görə, onu övladlığa götürən şəxs üçün aylıq 600 manat müavinət nəzərdə tutulub. Bu müavinətin üzərinə uşağın orqanizmin funksiyalarının pozulması dərəcəsinə uyğun məbləğ də əlavə edilir.

Beləliklə, sosial xidmət müəssisələrindəki əlil uşağın övladlığa götürülməsinə görə aylıq sosial ödənişin ümumi məbləği uşağın əlillik göstəricisi 81–100 faiz olduqda, 1170 manat (gözdən əlilliyə görə olduqda, 1270 manat), 61–80 faiz olduqda, 920 manat, 31–60 faiz olduqda, 850 manat təşkil edir.

### 128 min şəxsə 350 min xidmət

Vətən müharibəsindən sonra həyata keçirilən genişmiqyaslı sosial dəstək paketi çərçivəsində şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min nəfərə 118 min aylıq sosial ödəniş, 23 min 200 şəxsə birdəfəlik ödəmə təyin olunub.

Şəhid ailələri, müharibə ilə əlaqədar əlil olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 min 72 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlil olan şəxslərə 528 avtomobil təqdim edilib. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 65 min 600 sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Bundan başqa, müharibə ilə əlaqədar əlilliyi olan 2 min 173 şəxs 58 min 700 reabilitasiya vasitəsi, o cümlədən 476 şəxs 572 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 22 min şəxs işə düzəlib, 10 min 600 şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 128 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 350 min xidmət göstərilib.

### 476 hərbçiyə müasir protez verilib




Prezident İlham Əliyevin tapşırığına əsasən, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial dəstəklə əhatə olunması və reabilitasiyası üçün aparılan işlərin bir istiqaməti də həmin şəxslərin yüksək texnologiyalı, son nəsil protezlərlə təmin edilməsidir.

Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi I və II Qarabağ müharibəsi ilə əlaqədar əlil olan 476 hərbçini 572 ədəd yüksək texnologiyalı, son nəsil protezlə təmin edib. Ötən ildən Vətən müharibəsi iştirakçılarının müasir idman protezləri ilə təminatına da başlanılıb.

Aktivlik və funksionallığı ilə seçilən yüksək texnologiyalı protezlərlə istifadəçi sərbəst hərəkət imkanına malik olur. Bu protezlərlə sosial həyata daha tez və rahat inteqrasiya edir, hətta idmanla məşğul olaraq idman yarışlarında da iştirak edə bilir.

### Çağırışçıların yekun tibbi müayinəsi

Bir sıra kateqoriyalar üzrə rəy verilmiş müddətli həqiqi hərbi xidmətə çağırılanların tibbi şəhadətləndirilməsi zamanı yekun tibbi müayinələr Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin nəzdində yaradılmış Tibbi Qiymətləndirmə Mərkəzində aparılır.

Mərkəzdə ixtisaslaşmış peşəkar həkim-mütəxəssislər 4 kateqoriya üzrə – sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında (B kateqoriyası); sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında (Ç kateqoriyası); dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında (C kateqoriyası); həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında (D kateqoriyası) rəy verilmiş çağırışçıların yekun tibbi müayinəsinə başlayıblar.

Sonda müayinəyə dair qərar elektron sistemə daxil ediləcək və bu barədə çağırışçıya elektron qaydada məlumat veriləcək.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Azərbaycan Yazıçılar Birliyi – 90

# Gənclik ruhlu “qocaman” birlik

**Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin 90 illik yubileyi münasibətilə ədəbi-bədii gecə keçirildi. Təntənəli mərasimdə Azərbaycanın görkəmli qələm sahibləri, eyni zamanda Turan ellərindən, Türk dünyasından dəvət olunmuş şair və yazıçılar, söz sahibləri iştirak edirdilər.**



**Ədəbi-bədii gecəni Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu açaraq sözü Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara verdi. AYB-i ruh etibarı ilə 90 yaşlı bir gənc adlandıran Anar ötən onilliklərdə yaradıcılıq qurumunun şərəfli, eyni zamanda mürəkkəb bir yol keçdiyini söylədi:**

– 30-cu illərin repressiyalarında bir çox yazıçılarımız haqsız olaraq qurban getdi. Biz, Yazıçılar Birliyi olaraq onların xatirəsini əbədiləşdirmək üçün memorial lövhə asmışıq. Keçmiş SSRİ respublikalarının heç birində belə bir iş görülməyib. Müstəqillik dövrümüzün əvvəlləri də bizim üçün ağır oldu. Çünki düşmənlərimiz Qarabağ məsələsini ortaya atdılar, torpaqlarımız işğal olundu. Bu dövrdə də Yazıçılar Birliyi mübarizənin önündə gedirdi. Məhz həmin illərdə Azərbaycan yazıçıları öz əsərləri ilə çıxışlar edirdi. İlk etirazlar da Yazıçılar Birliyi tərəfindən gəldi. Xalq Kommunist Partiyasına inamını itirəndə, etiraz edəndə Yazıçılar Birliyi onun səsinə səs verdi. Hətta torpaqlarından qovulmuş həmvətənlərimizin bir hissəsini Yazıçılar İttifaqının Yaradıcılıq Evlərində yerləşdirdik. Ən ağır günlərdə xalqımız üçün əlimizdən gələni edirdik. Biz özümüzə borc bilirdik ki, xalqımızla birgə olaq. Həmin ağır günlərdə Yazıçılar İttifaqı parçalanmadı, hamımız bir olduq. Sözümüzü birgə dedik.

Ulu öndər Heydər Əliyev 2-ci dəfə siyasi hakimiyyətə gələndən sonra Yazıçılar Birliyinə də 2-ci nəfəs verildi. O bizimlə bütün problemlərin həlli ilə bağlı öz sözünü deyirdi. Ədəbiyyatımıza, şeirə, sənətə Ulu öndərin qayğısı sayəsində Azərbaycan Yazıçılar Birliyinin işində yeni bir mərhələ başlandı. Biz həmin qayğını bu gün görkəmli dövlət xadimi İlham Əliyevdən görürük. Azərbaycanın söz, qələm əhli dövlətin tam qayğısı ilə əhatə olunub, ona görə də bu bayram günündə mən öz adımdan və Azərbaycan Yazıçılar Birliyinin çoxminli üzvləri adından cənab İlham Əliyevə təşəkkürümü bildirirəm.

**AYB sədri Anar yubiley tədbirinə qatılan Türk Cümhuriyyətləri ilə birlikdə Şuşaya səfər edildiyini bildirdi:**

– Bilirsiniz ki, bir neçə gün əvvəl Şuşada Türk dövlətlərinin qeyri-rəsmi zirvə toplantısı keçirildi. Ardınca isə həmin tədbirin davamı olaraq, özbək, qırğız, qazax, türk qardaşlarımız – şair və yazıçılar Şuşada gedən quruculuq işləri ilə tanış oldular. Bu qədim Azərbaycan torpağının ab-havası ilə nəfəs aldılar. Və bir də gördülər ki, bu 30 ildə biz nələr çəkmişik. Qonaqlarımıza bizimlə birgə olduqlarına və bayramımızda iştirak etdiklərinə görə minnətdarlıq edirəm.

**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli yubiley münasibətilə təbriklərini çatdırdı, Azərbaycan Yazıçılar Birliyinin 90 illik tarixinin bəzi səhifələrini vərəqlədi:**

– Azərbaycan Yazıçılar İttifaqı 1934-cü il iyunun 13-də yaradıldığı gündən xalqın səsi, yazan əli olmuşdur. Bir zamanlar ədəbi birliklər və məclislər tərkibində formalaşan bu İttifaqın üzvləri Azərbaycanın ictimai fikir tarixində, milli məfkurənin formalaşmasında böyük rol oynamışlar. Bu gün hörmətlə bu təşkilata rəhbərlik edən mərhum söz ustadlarının adlarını çəkməklə onların misilsiz zəhmətini bir daha hər birinizin xatirinə salmaq istəyirəm. AYB-nin ilk rəhbəri Məmmədkazım Ələkbərlinin, Seyfulla Şamilovun, Rəsul Rzanın, Səməd Vurğunun, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Mirzə İbrahimovun, İsmayıl Şıxlının və Sizin – Anar müəllimin adlarını qürurla çəkirəm. Bu insanların hər biri Azərbaycan mədəniyyətinə, ədəbiyyatına böyük xidmətlər göstərmişlər. Azərbaycan dilinin formalaşmasında, inkişaf etdirilməsində bu təşkilatın xidmətləri əvəzsizdir. Onu da qeyd edim ki, AMEA Azərbaycan Yazıçılar Birliyi ilə birgə bir çox layihələri həyata keçirir, əməkdaşlıq edir.

14 iyul 1969-cu ildə görkəmli dövlət xadimi Heydər Əliyev siyasi hakimiyyətə gəlmişdir. 55 il əvvəl Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev cəmiyyətin bütün sahələrinə qayğı göstərərkən qələm, söz əhlinin fəaliyyətini ön plana çəkmiş, Azərbaycan Yazıçılar Birliyinin inkişafı üçün diqqətini əsirgəməmişdir. Sizin bayramınızın məhz belə bir tarixi gündə keçirilməsində də sanki bir bağlılıq vardır. Çünki Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə ədəbiyyata, söz, qələm sahiblərinə ən yüksək səviyyədə diqqət göstərmişdir. Bu gün sevindirici haldır ki, Ümummilli liderin siyasi ideyaları dövlət rəhbərimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün də AYB Prezidentin diqqət və qayğısı ilə əhatə olunmuşdur.

Ədəbiyyat və mədəniyyət hər bir xalqın inkişafında müstəsna rol oynayır. Bu mənada Anar müəllimin rəhbərlik etdiyi təşkilatın uğurları müstəqilliyimiz dövründə öz bəhrəsini verməkdədir. AYB sanki bu yolda bir açar rolunu oynayır. Çünki sizin fəaliyyətiniz ictimai fikrin, milli mənsubiyyətin inkişaf etdirilməsində əvəzsiz rola malikdir. 90 illik tarix Azərbaycan ədəbiyyatına böyük, nadir simalar bəxş etmişdir. Müstəqillik dövründə qazanılan uğurlarımızda sizin də xidmətləriniz danılmazdır. AYB, başlıca olaraq, Azərbaycançılıq ideyalarına xidmət etmişdir. Bundan sonrakı fəaliyyətinizə uğurlar diləyirəm.

**Mədəniyyət nazirinin müavini Fərid Cəfərov nazir Adil Kərimlinin təbriklərini ədəbi-bədii gecənin iştirakçılarına çatdıraraq dedi:**

– Bugünkü tədbirdə qardaş ölkələrin yazıçı və şairləri iştirak edir. Onlara da xoş gəlmisiniz, deyirəm. Daha doğrusu, onlar öz vətənlərinə gəliblər. Azərbaycan Yazıçılar Birliyi 90 illik tarixi ərzində keşməkeşli bir həyat yaşamışdır. Azərbaycan mənəviyyatının, dilimizin qorunmasında və gənc nəslə aşılanmasında şair və yazıçılarımızın yazdıqları əsərlərin rolu böyükdür. Müstəqillik illərimizdə, 30 ilə yaxın davam edən işğal illərində AYB elə bir fəaliyyət göstərmişdir ki, gənclərimiz milli-mənəvi ruhda böyümüşlər. Bu illərdə yazılan əsərlərin rolu böyükdür. 44 günlük müharibədə qələbəmizin qazanılmasında, böyük Zəfərə imza atmağımızda, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşməyimizdə şair və yazıçılarımızın xidmətləri böyükdür.



Azərbaycan Yazıçılar Birliyinin bundan sonrakı fəaliyyəti özündə Zəfər tariximizi yazıb-yaratmağı, mədəni irsimizi mühafizə etməyi, dilimizin saflığını qoruyub saxlamaq kimi dövlət əhəmiyyətli məsələlərin həyata keçirilməsində yaxından iştirakı ehtiva edəcək. Bu müqəddəs işdə qələm sahiblərinə uğurlar diləyirəm. Növbəti həftədə AYB ilə birgə Vaqif Poeziya Günlərində iştirak edəcəyik. İnanıram ki, AYB ilə Mədəniyyət Nazirliyinin birgə layihələri, tədbirləri dövlətimizin uğurlarının ictimaiyyətə çatdırılmasında mühüm rol oynayacaq.

**Türkiyənin görkəmli şairi Ataol Bəhramoğlu** çıxış edərək, Azərbaycan Yazıçılar Birliyini 90 illik yubileyi münasibətilə həmkarları adından təbrik etdi və bildirdi ki, bu gün türk dünyasında Azərbaycanın 44 günlük Zəfər yolundan qürurla danışılır. Və qəhrəmanlıq göstərən Azərbaycan oğulları haqqında əsərlər yazılmağa başlayıb. Qədim Şuşa torpağında bir daha xalqınızın ulu köklərinin sarsılmaz olduğunu yəqin etdik. Qarabağa səfərlərimiz bizi çox düşündürür, yeni-yeni əsərlər yazmaq üçün ruhumuz bizə deyir ki, bu möhtəşəm türk xalqının qəhrəmanlığı bütün dünyaya bəyan edilməlidir. Azərbaycan Yazıçılar Birliyi ilə bundan sonra da birgə işləyəcəyik.

**Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, İLESAM-ın rəhbəri, şair Mehmet Nuri Parmaksız, “Türk Ədəbiyyatı” dərgisinin baş redaktoru İmdat Avşar, qırğızıstanlı şair, tərcüməçi Joldokbek Monoldorov, Özbəkistan Yazıçılar Birliyinin sədr müavini Minhaciddin Mirzo da** öz çıxışlarında AYB-nin türk dünyasındakı fəaliyyətini yüksək qiymətləndirdilər və səmimi təbriklərini çatdırdılar.

**AYB-nin Ağsaqqallar Şurasının sədri, Xalq şairi Nəriman Həsənzadə, Xalq şairi Sabir Rüstəmxanlı, AYB-nin 1-ci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov, AYB-nin katibi, Əməkdar incəsənət xadimi, tanınmış yazıçı Elçin Hüseynbəyli, AYB-nin katibi İlqar Fəhmi, “Ulduz” jurnalının baş redaktoru Qulu Ağsəs, 6-cı çağırış Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı, AYB Güney Azərbaycan şöbəsinin rəhbəri, şair Sayman Aruz** öz çıxışlarında 90 illik ömür yolu keçmiş Azərbaycan Yazıçılar Birliyinin onların hər birinin həyatında mühüm rol oynamasından, bu təşkilatın tarixi köklərinin milli-mənəvi körpülərin qurulmasında əvəzsiz xidmətlərindən, XX əsr Azərbaycan ədəbiyyatının korifey sənətkarlarının ədəbi mühitimizin formalaşmasında, inkişaf etdirilməsində, xüsusilə klassik irsə köklənən nəzm, nəsr yaradıcılığının yeni bir mərhələdə, milli ruhda təşəkkül tapmasından və nəhayət, müstəqillik dövründə Azərbaycan Yazıçılar Birliyinin səmərəli fəaliyyətindən söhbət açdılar, birliyin işinə uğurlar arzuladılar.

Ədəbi-bədii gecədə Opera və Balet teatrının solisti Mütəllim Dəmirovun, cənublu ifaçı Aref Mehmandustun ifasında muğamlar səsləndirildi.

**TÜRKSOY-un sabiq Baş katibi Düsenbay Kasseinov tədbirdən sonra “XQ”-yə müsahibə verərək dedi:**



– Azərbaycanda çox olmuşam. Ümummilli lider Heydər Əliyevlə bir görüşümün tarixçəsindən danışmaq istəyirəm. Dünya siyasətində öz dəst-xətti olan bu dahi insanla yanaşı dayanmaq, onunla təmasda olmaq özü bir xoşbəxtlikdir. Hələ 1997-ci ildə Bakıda bu böyük şəxsiyyətlə görüşən zaman dediklərini bu gün bir daha xatırlamaq istəyirəm: “Biz Qarabağımızı, Şuşamızı mütləq qaytaracağıq”. İnanın, Şuşada bərpa olunmuş 1 nömrəli məktəbin önündə dayanarkən Heydər Əliyevin həmin sözlərini yada saldım və Ulu öndərə bu inamına, uzaqgörənliyinə, İlham Əliyev kimi bir siyasətçini Azərbaycan xalqına bəxş etdiyinə heyran qaldım.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə 2004-cü ildə Qazaxıstanın mədəniyyət naziri olduğum dövrdə Astanada görüşmüşdük. O zaman İlham Əliyev çox gənc idi. Amma məndə ümidverici bir dövlət xadimi təəssüratı yaratmışdı. Hələ illər əvvəl Heydər Əliyev demişdir ki, biz iki dövlət, bir millətik. O, bu frazanı Azərbaycanla Türkiyə arasındakı münasibətlərə istinadən desə də, Prezident İlham Əliyev bu fikrin miqyasını daha da genişləndirərək: “Biz altı dövlət, bir millətik” birliyinin əsasını qoymuşdur. Qarabağa bu səfərimizdə işğaldan azad olunmuş bölgələrdə aparılan quruculuq işlərini görəndə cənab Prezidentin böyük yenidənqurma fəaliyyətinin şahidi oldum və ona ən xoş arzularımı bildirdim.

Mən yubiley tədbirindəki çıxışımda Azərbaycan yazıçılarına davamlı yaradıcılıq uğurları dilədim və Türkiyənin Bolu şəhərində – İstanbulla Ankaranın arasındakı yolun kənarında ucaldılan, Azərbaycan xalqının, eləcə də Türk dünyasının qəhrəmanlıq rəmzi olan Koroğlunun abidəsinin surətini əbədiyyət timsalı olaraq Anar müəllimə təqdim etdim. Çıxışımı isə Türk dünyasının ulu Dədə Qorqudunun duaları ilə belə tamamladım:

***Qarlı uca dağlarımız yıxılmasın,***
***Kölgə salan qoca ağaclarımız kəsilməsin.***
***Qarpışanda ağ boz atımız büdrəməsin!***
***Vuruşanda qara polad***
***üz qılıncımız kütləşməsin!***
***Ümidimiz üzülməsin, qanadlarımız qırılmasın!***
***Bulaqlarımız qurumasın!***
***Çıraqlarımız daima yanar dursun –***
***Xalqım heeey!***
***Vətənimiz, yurdumuz var olsun!***

Yubiley gecəsinin sonunda iştirakçılara bu görüşün xoş təəssüratını ifadə edən qızılgüllər paylanıldı. Qoy hər bir qələm sahibinin yaradıcılığı bu güllər kimi daim təzə-tər və ətirli olsun!

***Kəmalə ABDİNOVA,***
***Əli NƏCƏFXANLI,***
***Elşən AĞALAR (foto)***
***XQ***

Rasim Əliyev – 90

**Müasir Azərbaycan memarlıq məktəbinin tanınmış nümayəndəsi Rasim Əliyev Azərbaycandan kənarda da yaxşı tanınıb. Beynəlxalq Memarlıq Akademiyasının, Rusiya Memarlıq və İnşaat Akademiyasının, Şərq Ölkələri Memarlıq Akademiyasının həqiqi üzvü olub. 88 illik ömrünü doğma yurdumuzun memarlıq simasının gözəlləşdirilməsinə sərf edib.**

# Bakının unudulmaz baş memarı

Rasim Əliyev 1934-cü il iyulun 16-da Gəncədə görkəmli ziyalı alim, akademik Həsən Əliyevin ailəsində anadan olub, 50-ci illərin ortalarında Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsində təhsil alıb. Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun aspirantı olub. Azərbaycan Dövlət Layihə İnstitutunda əmək fəaliyyətinə başlayıb. Respublikamızda şəhərsalma və memarlıq sahəsində müxtəlif vəzifələrdə çalışıb. O, uzun illər Bakının baş memarı olub. “İstiqlal”, “Şərəf” və “Şöhrət” ordenləri ilə təltif olunub.



Xatırlayıram ki, 1999-cu ildə Ulu öndər Heydər Əliyev yenidən qurulan Bakı Beynəlxalq Hava Limanında işlərin gedişi ilə maraqlanmaq üçün ora getmişdi. Hələ 18 il əvvəl yeni limanın tikintisi barədə qərar qəbul edildiyini, layihəni o vaxt Bakının baş memarı olmuş Rasim Əliyevə tapşırdığını yada saldı (Rasim Əliyev də orada idi və deyilənləri başı ilə təsdiqlədi). Ümummilli lider sonradan müəyyən səbəblərdən işlərin yarımçıq qaldığını söylədi: “Belə çıxır ki, bunun əsasını da biz qoyduq, tikib başa çatdırmağı da tale bizim üzərimizə qoyubdur”. Sonra yenidənqurmanın qənaətbəxş olduğunu bildirdi. Birdən foyenin döşəməsindəki plitələrin naxışlarına baxaraq üzünü Rasim Əliyevə tutdu və dedi: “Nəsə xaç işarəsinə bənzəyir, bunları da təcili dəyişdirin”. Memar “Baş üstə, cənab Prezident!” – deyə cavab verdi. Heydər Əliyev yekun olaraq tövsiyə verdi: “İşlərinizi elə qurun ki, verdiyiniz söz yerinə yetsin və mənim bugünkü təəssüratım daha da artsın”. Bir neçə ay sonra dahi rəhbərin göstərişlərinə tam əməl edilməklə Binə Beynəlxalq Aerovağzalının yeni kompleksinin açılışı oldu. Buna ən çox sevinənlərdən biri də Rasim Əliyev idi. Artıq 25 ildir ki, Heydər Əliyev adına Beynəlxalq Hava Limanı “Azal”ın xidmətlərindən istifadə edənlərin, xarici qonaqların gözünü-könlünü oxşayır.

Ünlü sənətkarın memarlıq əsərləri, eləcə də yağlı və sulu boya ilə çəkdiyi rəsm əsərləri daim diqqət cəlb edib. O, Naxçıvanda Hüseyn Cavidin qəbri üzərində memarlıq-xatirə kompleksinin, Bakının bir neçə metro stansiyalarının, şəhərin əsas parklarının, Azərbaycanın Türkiyədəki Səfirliyinin binasının və digər bənzərsiz layihələrin müəllifi və həmmüəllifidir. Paytaxtda mikrorayonların, Əhmədli qəsəbəsinin salınması onun adı ilə bağlıdır.

Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Əliyevdən özəl kitablar da yadigar qalıb. Atası Həsən Əliyev, anası Zərqələm Əliyeva və əmisi Heydər Əliyevin ruhlarına böyük ehtiramla yazdığı “Xatirələr” kitabı bir çox maraqlı məqamlarla zəngindir. Kitabın “Ön söz” müəllifi, Xalq yazıçısı Anar həmin nəşrin böyük bir ömrün salnaməsi olduğunu vurğulayıb və bildirib ki, kamil bir Azərbaycan ziyalısı olan Rasim Əliyevin əsərləri onun zəngin sənət həyatını əks etdirir. Akademik Ömər Eldarov, memarlıq doktoru, professor Gülçöhrə Məmmədova və başqaları daim onun haqqında yüksək fikirlər söyləyiblər. Yeri gəlmişkən, Rasim Əliyevin müəllifi olduğu “Keçmişdən gələcəyə” kitabını da sənətsevərlər maraqla oxuyurlar.

Azərbaycan Memarlar İttifaqı idarə heyətinin sədri Elbəy Qasımzadə memarlıq sənətinin inkişafındakı, Bakının gözəlləşməsindəki xidmətlərini dəyərləndirərək deyib ki, Rasim Əliyev onlarla gözəl memarlıq əsərinin, əsl abidə statusuna layiq olan unikal binaların müəllifidir. “Onun əsərlərinin əksəriyyətində Vətənə olan məhəbbətinin təzahürləri hiss olunur. O həm də gözəl rəssamdır. Çəkdiyi portretlərdə insan xarakteri, onun gözəlliyi ön plandadır. Rasim Əliyevin rəng seçimi, rəssamlıq texnikası, tablolarında əks etdirilən lirika onun öz xarakterindən irəli gəlir”.

Monumental sənət nümunələri dünəndən sabaha bir körpü olan Əməkdar memar Rasim Əliyev 2021-ci ilin bir payız günü dünyasını dəyişib və Birinci Fəxri Xiyabanda dəfn edilib. Amma onun istedad və zəkasının məhsulu olan əsərləri, pozulmaz dəst-xətti daim göz önündədir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Musiqili Teatr mövsümü uğurla başa vurur

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı 114-cü mövsümü başa vurmaq üzrədir. Hər il olduğu kimi, sənət ocağı bu mövsümdə də fərqli dəst-xətti ilə seçilə bilib, bir çox uğurlu layihələrə imza atıb. Teatr bir sıra beynəlxalq müsabiqə və festivallarda da ölkəmizi layiqincə təmsil edib.**



**Teatrın direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev mövsüm ərzində burada 6 səhnə əsərinin hazırlandığını bildirdi:**

–Üzeyir Hacıbəylinin “Leyli və Məcnun”, Tuncər Cücənoğlunun “Qadınım", Zinoviy Saqalovun “Aysedora” və Anarın “Adamın adamı” əsərlərini tamaşaları tamaşaçı marağına səbəb olub. Sənət cameəsində böyük əks-səda doğuran bu tamaşalarla yanaşı, kollektiv balaca teatrsevərləri də diqqətdə saxlayıb, onlar üçün maraqlı, macəra dolu nağıl-tamaşalar göstərib. Bu il onların sırasına həm ana dilimizdə, həm də rus dilində hazırlanan “İki küpəgirən qarı” tamaşası da əlavə edilib. Həmçinin ötən mövsümdə yaradıcılıq fəaliyyətləri ilə Musiqili Teatr tarixinə töhfələr bəxş edən korifey sənətkarların yubileylərinin qeyd olunması ənənəsi uğurla davam etdirilib.

Əliqismət Lalayev əlavə etdi ki, teatr ötən mövsümdə ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr həsr olunmuş “Sən elə bir zirvəsən” musiqili-tarixi essesi ilə Gəncə Şəki, Mingəçevir və Lənkəranda qastrol səfərlərində olub, aparıcı solistlər, xor və balet artistlərinin çıxışları böyük rəğbətlə qarşılanıb. Əsərin ssenari müəllifi Mübariz Həmidova, quruluşu isə Cavid İmamverdiyevə aid idi. Həmçinin tanınmış rejissor və ictimai xadim, Xalq artisti Yuli Qusmanın 80 illiyi şərəfinə “Qorxma, biz səninləyik” yubiley tamaşasının premyerası keçirilib. 42 il öncə çəkilmiş “Qorxma, mən səninləyəm” filminin yaradıcı heyətinin xatirələri əsasında hazırlanan bu səhnə əsərini də teatr ictimaiyyəti maraqla qarşılayıb.

**Müsahibimiz teatrın yaradıcılıq əlaqələrindən də söz açdı:**

– Ötən mövsümdə Kalininqradda keçirilən ənənəvi “Rus teatrı – xaricdə rus mədəniyyəti institutu kimi” adlı V Beynəlxalq konfransda, “Rusdilli teatrların problemləri və inkişaf perspektivləri” mövzusununda peşəkar diskussiyalarda iştirak etdik, məşhur teatr xadimləri ilə görüşlərimiz oldu. May ayında Moskvanın "Pyotr Fomenkonun emalatxanası” teatrı səhnəmizin qonağı oldu. Onlar dünya şöhrətli yazıçı-dramaturq Aleksandr Ostrovskinin eyniadlı pyesi əsasında hazırladıqları “Qurdlar və qoyunlar” adlı ikihissəli komediyasını uğurla təqdim etdilər.

Özbəkistan teatrları ilə imzalanan əməkdaşlıq memorandumları da qarşılıqlı mədəni əlaqələrin inkişafına öz töhfəsini verməkdədir. Özbəkistanın Kattakurqon Şəhər Dram Teatrı və Muqimi adına Özbəkistan Dövlət Akademik Teatrlarının yaradıcı heyətlərinin ötən mövsümdəki qastrol səfərlərindən sonra bu mövsümdə də Özbəkistanın Namanqan Vilayət Musiqili Dram və Komediya Teatrı Bakıda qonaq olub və onlar “Ah, bu qocalar – qəribə qocalar” komediyasını nümayiş etdiriblər. Bundan başqa, TÜRKSOY-un 30 illik yubileyi, həmçinin Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi şərəfinə ölkəmizdə keçirilən I Beynəlxalq TÜRKSOY Teatr Festivalı günlərində şəhərimizin qonağı olan Səmərqənd Vilayət Musiqili Dram Teatrı ilə də əməkdaşlıq memorandumu imzalanıb.

Teatrın əməkdaşları ilə birgə Daşkənddə keçirilən Özbəkistan Dövlət Musiqili Komediya Teatrının 50 illik yubileyi ilə əlaqədar “Operetta.uz” Musiqili Teatrların II Beynəlxalq Forumunda yaddaqalan olub. Təmsilçilərimiz bu festivaldan öncə Qazaxıstanın Karaqanda şəhərində keçirilən “DosStar” XII Açıq Operetta və Müzikl Festivalının qala konsertində çıxışı da rəğbətlə qarşılanıb.

***Ceyhun ALIŞLI***

YENİ KİTABLAR

# Ulu öndərin xalqla tarixi təmasları



**Atatürk Mərkəzində bu adlı çoxcildliyin təqdimat mərasimi keçirilib. Tədbiri açan mərkəzinin direktoru, akademik Nizami Cəfərov müasir Azərbaycan tarixinin bütöv bir mərhələsinin ilk dəfə düz 55 il öncə hakimiyyətə gəlmiş ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib.**

Akademik qeyd edib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adı ölkəmizin dünəni, bu günü və gələcəyi ilə birlikdə çəkilir. O qeyd edib ki, Ulu öndər haqqında saysız-hesabsız kitablar yazılıb və yazılmaqdadır. Onlardan biri də yazıçı-publisist Vəsimə İsmayılqızının ərsəyə gətirdiyi “Heydər Əliyevin vətən səfərləri” adlı çoxcildlik kitabıdır. Müəllif nəşrin üzərində uzun illər işləyib. Kitab Ümummilli liderin 100 illik yubileyi münasibətilə hazırlanıb. Akademikin fikrincə, 3 seriyadan ibarət nəşrdə müəllif fərqli baxış ortaya qoyub.

Ulu öndərin xalq və Vətən qarşısında əvəzedilməz xidmətlərini qeyd edən yazıçı-publisist Vəsimə İsmayılqızı çoxcildliyin ilk kitabının çapdan yenicə çıxdığını diqqətə çatdırıb. Qeyd edib ki, ensiklopedik toplunun 1-ci kitabı Ulu öndərin respublikaya rəhbərlik etdiyi ilk dönəmi əhatə edir. Həmin illərdə Heydər Əliyevin rayonlara səfərləri, Bakı şəhərində Mərkəzi Komitədən kənarda iştirak etdiyi tədbirlərlə bağlı materiallar öz əksini tapıb. Seriyaya daxil olan “Goranboyda izim qaldı”, “Beyləqanda izim qaldı”, “Şuşada izim qaldı” kitablarının hər birində rəhbərin bu rayonlara səfərləri haqqında geniş söhbət açılır.

“Silsilə kitabın 2-cisi “Daxili səfərlər” seriyasından olan çoxcildlikdir. Bu cilddəki məqalələr Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı – Prezident İlham Əliyevin respublikaya rəhbərliyinin 20 illik dövrünü əhatə edir. Nəşrin 1-ci cildi dövlətimizin başçısının 2004–2006-cı illərdə ölkədaxili siyasi fəaliyyəti, bölgələrə səfərlərini özündə əks etdirir. 2006–2008-ci illəri əhatə edən 2-ci cilddə isə Prezident İlham Əliyevin regionların inkişafı istiqamətində fəaliyyətindən bəhs olunur.

Seriyanın çapdan çıxan növbəti kitabı isə “Zəfər səfərləri” adlanır və bu nəşrdə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbədən sonra 2020–2022-ci illərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin bölgələrə səfərləri ilə bağlı materiallar toplanıb. Bu cilddə ümumilikdə Zəfəri şərtləndirən amillərdən, dövlət–ordu–xalq birliyindən danışılır və dövlətimizin başçısının möhtəşəm Qələbəmizdən sonra regionlara səfərləri təfsilatı ilə verilib.

Elm və Təhsil Nazirliyi Neft-Kimya Prosesləri İnstitutunun direktoru akademik Vaqif Abbasov, professor, tibb elmləri doktoru Fuad Sərdarlı, Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, ADA Universitetinin müəllimi, “Ədibin evi” Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva, kitabın redaktorlarından Əməkdar jurnalist Əbülfət Mədətoğlu, Əməkdar müəllim İsgəndər Səklikov, filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy və digərləri çıxış edərək nəşrlə bağlı fikirlərini bölüşüblər. Vurğulanıb ki, kitabı vərəqləyərkən Ulu öndərin zəngin fəaliyyəti, Prezident İlham Əliyevin ölkəmizin inkişafı istiqamətində gördüyü işlər, yürütdüyü uzaqgörən siyasət, Vətən müharibəsində Zəfərimiz və regionlarda görülən işlər göz önündə canlanır.

Qeyd edək ki, silsilə nəşrin məsləhətçiləri və “Ön söz”ün müəllifləri Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, filologiya elmləri doktoru, professor, Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev, redaktoru şair Dilsuz Mustafayevdir.

***XQ***

Paris Olimpiya Oyunlarına 10 gün qalıb

# Olimpiya komandamızın yolasalma mərasimi



**İyulun 15-də Nardaranda “Sea Breeze” “Costa Coffe” məkanında Milli Olimpiya Komitəsinin təşkilatçılığı, Azərbaycan Olimpiya yığmasının tərəfdaşı VISA-nın dəstəyi ilə Paris Yay Olimpiya Oyunlarında iştirak edəcək olimpiyaçılarımızın yolasalma mərasimi keçirildi.**







Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, VISA-nın Azərbaycan üzrə baş direktoru Nurlan Hacıyev, Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanan idmançılar və idman ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

Mərasimdə çıxış edən Çingiz Hüseynzadə Parisə yollanacaq idmançılara uğurlar arzuladı.

Qeyd etdi ki, Azərbaycan yarışa böyük komanda ilə yollanacaq:

– Paris Oyunlarında 48 idmançımız mübarizə aparacaq. Azərbaycanın 100 nəfərdən artıq nümayəndə heyəti olimpiadaya yollanacaq. İnanırıq ki, lisenziya qazanan atletlərimiz onlara bəslənilən ümidləri doğruldacaq, bayrağımızı fəxri kürsüdə qürurla dalğalandıracaqlar. Düşünürəm ki, mükafatlarımız bundan əvvəlki olimpiadadan daha çox olacaq. Yarışdan 9-10 medal gözləyirik.

O, tədbirin təşkilində əsas məqsədin Oyunlar ərəfəsində olimpiyaçılara mənəvi dəstək vermək və komanda ruhunu artırmaqdır.

Nurlan Hacıyev çıxışında 1986-cı ildən etibarən VISA Olimpiya hərəkatının sadiq tərəfdaşı olduğunu bildirdi. Vurğuladı ki, VISA şirkəti olaraq həmçinin çalışırıq ki, idmanın populyarlaşmasına, yerli idmançıların ustalıq səviyyələrinin artırılmasına və zirvələrə yüksəlməsinə öz töhfələrimizi verək.

Rəsmi hissədən sonra Azərbaycan Dövlət Reklam Agentliyi, "Paşa Holdinq"in tərkibində "Paşa Malls" şirkəti, Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyətinin dəstəyi ilə Bakı, Sumqayıt və Gəncə şəhərlərinin müxtəlif yerlərində yayımlanan, idmançılarımızı bütün ölkəyə tanıdan videoçarx nümayiş etdirildi.

Bütün idman növləri üzrə idmançılarımız videoçarxda öz yerini alıb və ictimaiyyətə təqdim olundular.

Tədbirdə həmçinin VISA şirkəti tərəfindən idmançılara hədiyyələr təqdim edildi.

İyulun 26-dan avqustun 11-dək keçiriləcək Paris-2024 Yay Olimpiya Oyunlarında Azərbaycan 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunacaq.

**Tədbirdə jurnalistlərə açıqlama verən 3 qat Dünya, 4 qat Avropa çempionu, Olimpiya Oyunlarının bürünc, gümüş mükafatçısı Hacı Əliyev hazırlığın yaxşı getdiyini, formada olduğunu bildirdi. Vurğuladı ki, artıq 2 olimpiadada iştirak edib:**

– Bu 3-cü olimpiadadır ki, mübarizə aparacağam. Karyeramın son yarışıdır. İstəyirəm gözəl nəticə qazanım. Olimpiya Oyunlarının bütün mükafatları dəyərlidir.

İdmançı qeyd etdi ki, Olimpiadaya lisenziya qazanan idmançılarla görüş güləşçilərin istirahət vaxtına düşüb:

– Olimpiada ərəfəsində idmançıların bir araya gəlməsi xoş oldu. Belə bir tədbir sayəsində üzərimizdə olan stressi ata bildik. İnanıram ki, komandamız böyük naliyyətlə Vətənə qayıdacaq.

Tədbir bədii hissə ilə davam edib.

***Leyla QURBANOVA***
***XQ***

# Ordumuzun hərbi qulluqçusu həlak olub

**Azərbaycan Ordusunun hərbi qulluqçusu Abbasov Yunis Vasif oğlu bədbəxt hadisə nəticəsində həlak olub.**

Bu barədə Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib. “Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir” , - məlumatda qeyd olunub.

Allah rəhmət eləsin!

***XQ***

BEYNƏLXALQ HƏYAT

# ABŞ siyasi “olimpi”nə atılan güllə

## Sui-qəsd Donald Trampın qələbə şansını artırır

**Respublikaçılar Partiyasının prezidentliyə namizədi Donald Trampa qarşı sui-qəsd cəhdi Amerikanı şoka salıb. Bu hadisənin siyasi nəticələri hələ də qiymətləndirilməyib. Hələlik onu demək olar ki, son hadisə cənab Trampın populyarlığını artıracaq. Demokratlar isə seçki kampaniyasını yenidən qurmağa məcbur olacaqlar. Çünki Donald Tramp əvvəllər reytinqdə Cozef Baydeni ötüb və indi isə onun üçün tamamilə əlçatmaz ola bilər.**



Sabiq prezident Donald Tramp iyulun 13-ü axşam saatlarında Pensilvaniya ştatının Batler şəhərində növbəti təşviqat aksiyası keçirib. Bu zaman siyasətçiyə bir neçə dəfə atəş açılıb, bundan sonra qulağı qanlı halda səhnədən uzaqlaşdırılıb. Səhnəni tərk edərkən də cənab Tramp özünü itirməyib, üç dəfə yüksək səslə “döyüşün” sözünü qışqırıb və yumruğunu havaya qaldırıb. ABŞ-da əmindirlər ki, bu jest indi onun seçki kampaniyasının simvoluna çevriləcək. Prezident Co Bayden sələfi ilə danışıb və seçkilərdəki rəqibinin yaxşı olduğunu açıqlayıb. Bundan başqa, Co Bayden Donald Trampın təhlükəsizliyinin gücləndirilməsi barədə Məxfi Xidmət rəhbərinə göstəriş verdiyini bildirib.

Sonradan məlum oldu ki, atəş açan şəxs 20 yaşlı ağdərili amerikalı Tomas Metyu Kruksdur. Maraqlıdır ki, cinayəti törədən şəxs Respublikaçılar Partiyasının seçicisi kimi qeydiyyatda olsa da, eyni zamanda bir dəfə demokratlara ianə göndərib və bir gün əvvəl sosial şəbəkələrdə cənab Trampa nifrət etdiyini bildirib. Cinayətkar səhnədən təxminən 140 metr aralıda yerləşən binalardan birinin damında gizlənib və bir neçə KİV-in məlumatına görə, hüquq-mühafizə orqanları onu əvvəlcə “öz həmkarlarından biri” kimi qəbul ediblər. Məhv edilən 20 yaşlı amerikalının siyasi motivləri hələ məlum deyil, amma onun hüquq-mühafizə orqanlarında çalışmadığı dəqiqdir. Kruksun qocalar evində işlədiyi də qeyd edilir.

Gözlənildiyi kimi, cinayət artıq bir çox sui-qəsd nəzəriyyələrinin yaranmasına səbəb olub. Onların da hamısı hadisənin baş verdiyi şəraitə (tüfənglə silahlanmış cinayətkar hansısa yolla Trampın atəş məsafəsinə yaxınlaşa bilib) və atıcının şəxsiyyətinə əsaslanır. Nə hüquq-mühafizə orqanları, nə də mətbuat hələ ki, Kruksun motivləri haqqında anlaşılan heç nə deyə bilmir. Hələlik məlum olan budur ki, 20 yaşlı cinayətkar əvvəllər heç bir cinayət hadisəsi törətməyib və hər hansı bir radikal qrupa daxil olmayıb. Psixoloji problemlərinin olub-olmadığı da dəqiq bilinmir.

Cinayətkarın baxışları haqqında da məlumatlar ziddiyyətlidir. O, bir tərəfdən Respublikaçılar Partiyasının qeydiyyatda olan seçicisi olub və cinayətə respublikaçılara yaxın bir YouTube kanalının simvolları olan köynək geyinərək gedib. Digər tərəfdən, dörd il əvvəl Kruksun ActBlue təşkilatına 15 dollar bağışladığı da məlumdur. O, Demokratlar Partiyasının sol (proqressiv deyilən) qanadının, yəni Trampın və “trampizm”in qatı əleyhdarlarının təşəbbüslərini dəstəkləyib. Əgər məlum olsa ki, Kruks dörd il əvvəlki siyasi üstünlüklərinə sadiq qalıb, bu, respublikaçılara böyük hədiyyə olacaq. Onların bəziləri artıq bu cinayətdə demokratları günahlandırırlar. Republikaçılar iddia edirlər ki, demokratlar Donald Tramp barədə cəmiyyətdə mənfi rəy yaradıblar.

İstənilən halda, respublikaçı senator Derrik Van Ordenin də dediyi kimi, cənab Tramp hücumdan sağ çıxdı və “yenicə seçkiləri qazandı”. Bu mühakimə ilə yalnız sabiq prezidentin tərəfdarları deyil, həm də ekspert icmasının nümayəndələrinin böyük əksəriyyəti də razılaşırlar. Kampaniyanın demək olar ki, bütün aktiv hissəsində səsvermələrdə Co Baydeni qabaqlayan və 27 iyunda demokrat üçün fəlakətli debatdan sonra üstünlüyünü artıran respublikaçı iyulun 13-də də “əzabkeş, qurban” statusu qazandı.

İndi demokratlar seçki kampaniyasını bundan sonra necə aparacaqlarını düşünürlər. NBC telekanalı öz mənbələrinə istinadən iddia edir ki, sui-qəsd cəhdindən sonra Demokratlar Partiyası prezidentliyə namizədin mümkün dəyişdirilməsi ilə bağlı danışıqları təxirə salmaq qərarına gəlib. Ola bilsin ki, bu, Baydenin mövqeyini gücləndirmək üçün nəzərdə tutulmuş qəsdən sızmadır. İstənilən halda “əzabkeş, sistemə qarşı mübarizə aparan” Donald Trampı məğlub etmək çox çətin olacaq.

Əlbəttə, hadisə Amerikanı təşvişə saldı. ABŞ-ın siyasi elitasının sui-qəsd cəhdinə birmənalı şəkildə reaksiya verməsi də bu fikri təsdiqləyir. Digər tanınmış demokratlar, o cümlədən sabiq prezident Barak Obama, Nümayəndələr Palatasının sabiq spikeri Nensi Pelosi, Aşağı Palatada azlıqların lideri Hakim Ceffris və Senat çoxluğunun lideri Çak Şumer də Donald Trampa sui-qəsd cəhdini pisləyiblər. Eks-prezidentin Respublika Partiyası daxilindəki siyasi rəqibləri də kənarda qalmayıb. Belə ki, Donald Trampı Ağ Evin sabiq rəhbərinin sonuncu praymerizdə əsas rəqibi Nikki Heyli dəstəkləyib. Hətta cənab Trampın prezidentliyi dövründə vitse-prezident vəzifəsini icra edən və münsibətləri korlanan Mayk Pens də respublikaçı namizəd üçün dua etdiyini və hər bir amerikalını duaya qoşulmağa çağırdığını bəyan etməyə tələsib.

Sui-qəsd cəhdi beynəlxalq arenada da ciddi reaksiyaya səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında paylaşımında hadisəni pisləyib: “Prezident Trampa qarşı edilən hücum şok və dəhşət doğurur. Biz bu siyasi zorakılıq aktını şiddətlə qınayırıq. Prezident Trampın tezliklə sağalmasını arzu edirik”. Digər dövlət başçıları və liderləri də Batlerdəki hadisəyə mənfi münasibətlərini sərgiləyiblər. Hətta Rusiya da siyasi mübarizədə silahlı zorakılığa yer olmadığını açıqlayıb.

***SE LAY***
***XQ***


# Azərbaycan Universiteti

## Təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir

Sənədlərin qəbulu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin https://portal.edu.az/ saytı vasitəsilə elektron qaydada həyata keçirilir və 30 avqust 2024-cü il saat 18.00-da başa çatacaqdır.

Azərbaycan Universitetində təkrar ali təhsil yalnız ödənişli formada; təkrar ali təhsil almaq istəyən şəxs və ya onun işlədiyi idarə və təşkilatlarla bağlanmış müqavilə əsasında; qiyabi təhsil formasında (axşam və ya gündüz növbəsi, həftənin 6 günü) aşağıdakı ixtisaslar üzrə təşkil olunur:

– İnformasiya texnologiyaları
– Biznesin idarə edilməsi
– Marketinq
– Mühasibat
– Sosial iş
– Turizm işinin təşkili

Təhsil haqqı bütün ixtisaslar üzrə Azərbaycan vətəndaşları üçün illik 2000 (AZN) manat; əcnəbilər üçün isə 3400 (AZN) manatdır. Təhsil Azərbaycan və ingilis dillərində aparılır.

Qeyd edilən ixtisaslara qəbul olmaq istəyənlər lazımi sənədləri https://portal.edu.az/ saytı vasitəsilə təqdim etdikdən sonra office@au.edu.az elektron poçtuna göndərməlidirlər. Təqdim olunan sənədlər müvafiq tələblərə cavab verdiyi halda iddiaçılar təkrar ali təhsil almaq hüququnu qazanırlar.

Xarici ölkələrdə ali təhsil almış şəxslər və əcnəbilər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

Müraciət üçün aşağıdakı sənədlərin təqdim olunması lazımdır:

– Rektorun adına ərizə
– Ali təhsili haqqında sənədin (diplomun) surəti, diploma əlavə və akademik transkript
– Əmək kitabçasından çıxarış (zəruridir)
– İş yerindən arayış
– 3x4 sm ölçüdə 4 ədəd fotoşəkil
– Şəxsiyyət vəsiqəsinin surəti
– Sağlamlıq haqqında arayış

Daha ətraflı məlumat üçün:

Telefon – (+994 12) 431-41-12, 13,16 (118), (+994) (50) 268-38-40.

Ünvan – Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi 71.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 147 (30551) 16 iyul 2024-cü il, çərşənbə axşamı

# İspaniya – Avropa futbolunun kralı

## Mikelin qızıl qolu və Olmonun qələbəni xilas edən seyvi

**Bu Avropa çempionatının finalı bir-birinə əks olan iki komandanın oyunu ilə diqqət çəkirdi. Bir tərəfdə hücuma şığıyan, gözəl oyun nümayiş etdirən, romantik futbola inanan İspaniya, digər tərəfdə isə darıxdırıcı və həddən artıq rasional, oyunu heyətdəki ulduzların səviyyəsinə belə yaxın olmayan İngiltərə var idi. Belə bir final matçı üçün ideal cütlük idi. Necə deyərlər, tam harmoniya təşkil edirdilər.**



İspanların heyətində ən mühüm hadisə Yamalın artıq 16 yaşlı yox, 17 yaşlı vunderkind olması idi. Hələ yeniyetmə sayılacaq ulduz futbolçu final ərəfəsində ad gününü qeyd etmişdi. Qalan hər şey proqnozlaşdırıla bilən və anlaşılan idi: de la Fuente eksperimentlərin böyük fanatı deyil. Karvaxal və Le Norman diskvalifikasiyadan sonra start heyətində idilər, amma bunu dəyişiklik adlandırmaq olmazdı.

İlk 45 dəqiqədə matçın ingilis ssenarisi ilə getdiyi təəssüratı yaranırdı. Qaret Sautgeyt düzülüş seçimi ilə bir qədər təəccübləndirirdi. Baş məşqçi möcüzəvi 3-4-2-1 düzülüşündən imtina edib, "şirlər"in turnirə üzücü oyunla başladıqları 4-2-3-1-ə qayıtmışdı. Sanki qərar doğru idi - İngiltərə topu bilərəkdən rəqibə verir və yüksək sürətli, enerjili ispan hücumunun nəfəsini kəsirdi. "Qırmızı roho"nun enerjidayzerləri isə ümidsizlik içində qapı önünə mənasız asma ötürmələr etmək məcburiyyətində qalırdılar.

Birinci hissənin ortalarında ispanlar topa sahibolmada artıq 70:30 üstünlüyə malik idilər. Onlar 45 dəqiqənin əksər hissəsini topdan ayrılmayıb ingilis müdafiəsində boşluqlar tapmağa çalışırdılar. Amma heç nə alınmırdı. İnsafən, hər iki komanda təkcə müdafiədə deyil, keçid mərhələlərində də qüsursuz oynayırdı. Sürətli hücum etmək şansı yox idi. İspaniya çarəsizlikdən ümidsiz görünürdü. Amma hücumlarını bir an belə



dayandırmaq fikrində deyildi.

Yüksək səviyyəli futbol, amma qətiyyən qol vəziyyətləri yoxdur. Rəqibini birtəhər dolaşdırmaq üçün təcrübəli Karvaxal Sakanın balansını pozmağa qərar verdi: ingilis yıxıldıqdan sonra saqqallı ispan ona "ağlayan körpə" jestini göstərdi. Dərhal ötən Avronun finalında Kellininin çox gənc Sakanı boynundan tutub necə sürüklədiyi yada düşdü. Sonradan bu məqam İtaliyanın qələbəsinin simvollarından birinə çevrildi...

İlk hissədə bu matçı ən yaxşı səciyyələndirən iki məqam yadda qaldı. Birincisi, Stounsun öz cərimə meydançası qarşısından topu götürüb sürətlə hücuma şığıması oldu. İngilis müdafiəçi topu rəqibin cərimə meydançasına qədər gətirdi və onu faydalı olmayan şəkildə itirdi. Buna cavab olaraq ispanlar rəqibin bir neçə anlıq qırılmış strukturuna əks-hücum təşkil etdilər. Bu da ispanların istədiyi sonluğa gətirib çıxarmadı, amma əsl rok-n-roll oldu! İkincisi məqam isə bu idi ki, birinci hissədə rəqiblər hədəfə cəmi bir zərbə endirdilər.

Sautgeyt işlək mexanizmi ikinci hissədə də sındırmaq istəmədi. Niyə də sındırsın, nəticə verirdi. Yenə üç mərkəz müdafiəçisi, Saka sağ kənar müdafiəçisi rolunda, Lyuk Şou isə əks cinahda oynadı. Bu Lyukun fevral ayından bəri start heyətdə oyuna ilk çıxışı idi. O, bu mövqedə ideal seçim olmayan sağ ayaqlı Tripieri əvəzləyirdi.

Fasilə zamanı bütün İspaniya üçün əsl şok yaşandı – komanda oyununun dirijoru zədələnmiş Rodrini əvəz etmək lazım gəldi! Rodri meydançaya



çıxmayanda, düşünmək olardı ki, de la Fuentenin komandası çətinlikləri hətta bellə deyil, ekskavatorla kürəyəcək. Ancaq bu şok terapiyası yalnız İspaniya komandasına xeyir verdi: artıq ikinci dəqiqədə "Qırmızı roho" nəhayət İngiltərənin müdafiəsini qırmağı bacardı! Komandanın iki ən parlaq gənc oyunçusunun anlaşıqlı oyunu nəticə verdi - Yamal bu Avroda daha bir gözəl məhsuldar ötürmə etdi, Uilyams isə qol vurdu. İkinci hissənin elə ikinci dəqiqəsində İspaniya önə keçdi.

Bundan sonra oyun sanki alovlandı. Açığı, gözlənilən idi. İspanlar müdafiə yox, pressinqə davam etdilər. Bu yolla da topu meydanın mərkəzində ələ keçirir və bir-birinin ardınca hücumlar təşkil edirdilər. İngilis qapıçı Pikford cərimə meydançasında gah sağa, gah sola, gah da havaya tullanıb qapısını xilas etməyə məcbur olurdu. İngilislər qolun şokun-



dan ayılanadək, az qala qapılarında ikinci qolu görsünlər. Lakin Olmo əlverişli mövqedən fürsəti qaçırdı. "Şirlər" üçün çətin anlar olsa da, bu Avroda kambek etmək onlar üçün adi hal almışdı.

Bu qoldan sonra Sautgeytin reaksiyası dərhal özünü göstərdi. O, 60-cı dəqiqədə Keyni əvəzlədi. Deyəsən Harrinin lənətlənməsinə artıq baş məşqçi də inanırdı. Bellingem isə İngiltərəni ayağa qaldırmağa çalışsa da, onun zərbəsi dirəkdən yan keçdi. Ancaq bu, sadəcə bir epizod, qığılcım idi. Daha sonra ispanlar oyuna nəzarəti bərpa etdilər və Rodrinin ehtiyat oyunçular skamyasında olduğunu belə hiss etmədilər. Yamal bu matçda hər şeyi sona çatdırmağa yaxın idi, lakin onun sürətli zərbəsinin qola çevrilməsinə Pikford imkan vermədi.

İngiltərə nə qədər pis görünsə də, hesabda bir qolla geri qalmaq onlar üçün problem deyildi. Bu avronun qanunu finalda da işlədi. Sautgeyt yenə uğurlu əvəzetmə etdi və Palmeri meydana buraxdı.

Yamal artıq ikinci qol fürsətini qaçıranda aydın görünürdü ki, "Qırmızı roho" asanlıqla uğur qazanmayacaq. Çünki bu Avroda ingilislər çox vaxt öz rəqiblərini soyuqqanlı olmadıqlarına görə cəzalandırıblar. Elə belə də oldu. Bellingemin ötürməsindən sonra, 70-ci dəqiqədə meydana çıxmış "Cold" (soyuq) ləqəbli Koul Palmer uzaq məsafədən endirdiyi güclü zərbə ilə ispanların çatdığı tonqalı söndürdü - 1:1!

De la Fuente də bir qədər əvvəl öz gedişini etmişdi. Onun komandası ehtiyatla oynayıb əlavə vaxt gözləmək fikrində deyildi. Onlar 90 dəqiqə ərzində hər şeyi həll etmək istəyirdilər. Yamalın daha bir şansı yarandı və Pikfordla qarşı-qarşıya gəldi. Lakin bu duel də Pikfordun qələbəsi ilə başa çatdı.

Buna baxmayaraq, "Qırmızı roho" məqsədinə çatdı! İngilisləri sürətli hücumda yaxalayan ispanlar cərimə meydançasındakı böyük boşluqdan ustalıqla yararlandılar. Müdafiəçi Mark Kukurella sol cinahda topu qəbul etdi və Oyarzabalın Cordan Pikfordla üz-üzə qaldığı qapı xəttinə doğru kəskin zərbə endirdi. O, özü Kukurellaya qol öncəsi ötürmə etmişdi. Mikel Oyarzabal Stounzu qabaqlayıb İspaniyanı mütləq Avropa çempionu edəcək qızıl qolu vurdu: 2:1.

Epizodun təkrarından sonra qolun ləğv oluna biləcəyi ehtimal edilirdi - Oyarzabal ingilis müdafiəçisi Con Stounzla təxminən eyni xəttdə idi. Ofsaydı dəqiq müəyyən etmək üçün texniki yardım lazım idi. Amma VAR heç bir qayda pozuntusu aşkar etmədi və sonradan epizodun yayımında Mikelin düzgün mövqedə olduğu təsdiqləndi. Stounzun dizi ispaniyalının ayaqlarından bir qədər irəlidə idi.

Oyarzabal bu Avroda ilk dəfə idi ki, qol vurdu. Amma necə dəyərli qol idi. Hücumçu bütün turnir boyu əvəzedici kimi çıxış etmişdi və ilk dəqiqələrdən yalnız qrup mərhələsinin son turunda Albaniya ilə oyunda, Luis de la Fuentenin heyətdə kütləvi rotasiya həyata keçirdiyi zaman meydana çıxmışdı. Bütün digər görüşlərdə ehtiyat oyunçular skamyasından meydana çıxan Mikel finalda vurduğu "qızıl qoldan" əvvəl Gürcüstanla 1/8 finalda yalnız məhsuldar ötürmə ilə yadda qalmışdı.

Əlbəttə, bu, hamısı deyildi. Bu finalın daha bir qəhrəmanı Dani Olmo oldu. Əsas vaxtın son dəqiqəsində Dani Olmo ingilislərin ikinci həmlədə başla qapıya vurduqları topu Olmo elə başı ilə də qapı xəttinin üzərindən çıxarıb qələbəni xilas etdi. O, təkbaşına turnirin bombardiri ola bilərdi, lakin belə bir xilasetmə istənilən qoldan daha dəyərlidir! Bundan sonra ispanlar öz qapıları qarşısında ingilislərə heç bir şans vermədilər. İngiltərə finalda uduzdu. İndi bütün dünya mətbuatının və azarkeşlərin Sautgeyti "məhv etməyə" haqqı çatır.

İngilis azarkeşləri də, yəqin, etiraf edərlər ki, İspaniyanın Avro-2024-dəki qələbəsi layiqli və ədalətli oldu. De la Fuentenin komandası turnirdən uğurla keçdi və bütün matçlarda qalib gəldi. Üstəlik, ispanlar demək olar ki, bütün favoritlərlə qarşılaşıb, hamını öz yolundan kənarlaşdırıblar. Siyahı həqiqətən çox qibtə ediləsidir: Xorvatiya, İtaliya, Almaniya, Fransa, İngiltərə. Ona görə də İspanlar qeyd-şərtsiz bu turnirin ən yaxşısı idi. Hücuma önəm verən balanslaşdırılmış oyun təkcə gözəl tamaşa olmadı, həm də əla nəticə verdi. Üstəlik, İspaniya dörd qələbə ilə Avropa çempionatları tarixinin ən titullu komandası oldu! Bir sözlə, həm bu turnirin, həm də Avropa çempionatları tarix boyu mütləq çempionlar!

Avro 2024-də finalda təkcə turnirin ən parlaq və ən emosional komandası britaniyalıların praqmatizmini və ustalıq səviyyəsini üstələyərək qalib gəlmədi. Finalda həm də milyonların sevimli tamaşasına çevrilmiş futbol qalib gəldi. Turnir boyu eşidirdik ki, bu Avropa çempionatı darıxdırıcıdır, komandalar çılpaq nəticəyə üstünlük verirlər, ona görə də əyləncəni, həyəcanı qurban verirlər. Bəlkə də belədir, həqiqətən də son onillikdə bu tendensiya çox nəzərə çarpır.

Amma sevindirici hal budur ki, futbolu rəqəmsal matrisalara nə qədər sığışdırmağa çalışsalar da, o milyonların sevimli oyun olaraq qalır. Bu oyunun özünün izaholunmaz, bəzən ziddiyyətli, lakin çox zərif məntiqi var. İspaniya millisi bu yay onun təcəssümü oldu.

Biz İngiltərənin yarımfinaldakı oyunundan sonra yazmışdıq ki, "Futbol evə qayıdır. Amma sən demə o İngiltərəyə deyil, İspaniyaya qayıdırmış. El futbol vuelve a casa! Futbol evə gəlir! – Minlərlə ispan azarkeşi indi Madridin küçələrində ürək dolusu bu ifadəni ucadan hayqırırlar. Haqları çatır, nə demək olar…

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

**Tarixi statistika**

## İspaniyanın üçqat rekordu



İspaniya yığması Berlində ingilisləri məğlub edərək tarixdə dördüncü dəfə Avropa çempionatında qızıl medal qazandı. 1964, 2008 və 2012-ci illərdə kuboku başı üzərinə qaldıran İspaniya altı finaldan üçündə qalib gələn Almaniyanı qabaqlayıb. İtaliya və Fransa hərəyə iki, SSRİ, Çexoslovakiya, Portuqaliya, Hollandiya, Danimarka və Yunanıstan hərəyə bir dəfə qitə kubokunu qazanıb. İngiltərə 58 il əvvəl doğma mundialın həlledici matçında almanlar üzərində qələbədən sonra başlayan kuboksuz seriyasını uzadıb.

*

İngiltərə millisinin baş məşqçisi Qaret Sautgeyt Avropa çempionatının tarixdə finalda iki dəfə məğlub olan ilk məşqçi oldu. Ona qədər almanlar Helmut Şön və Berti Foqts iki dəfə həlledici mərhələyə yüksələ biliblər. Amma onlardan birincisi dərhal Brüsseldə titul qazanıb, lakin Belqradda onu qoruya bilməyib, ikincisi isə Göteborqdakı uğursuzluğunu Londondakı qələbə ilə kompensasiya edib.

*



Dördüncü titul İspaniya komandasının yeganə unikal nailiyyəti deyil. Kuboka gedən yolda Luis de la Fuentenin komandası 7 qələbə qazanıb - altısı əsas vaxtda, biri isə əlavə vaxtda. 2016-cı ildə Fernando Santosun Portuqaliyası və 2021-ci ildə Roberto Mançininin İtaliyası da uduzmayıb, lakin italyan karyerasında iki heç-heçə edib, portuqallar isə bir qələbə və dörd heç-heçə ediblər. Avroda qrup turnirlərinin tətbiqindən sonra əsas vaxtda dörd dəfə və əlavə vaxtda bir dəfə rəqiblərini məğlub edən yalnız Mişel İdalqonun 1984-cü ildəki Fransa yığması 100 faizlik nəticə göstərib.

*

Məhz final matçının bitməsinə bir neçə dəqiqə qalmış ispanlar 40 il heç kimin qıra bilmədiyi İdalqonun komandasının rekordunu qıra bildi. Mikel Oyarzabalın qolu pireneylilər üçün bu turnirdə 15-ci qolu oldu. Təəccüblüdür ki, 7 matçda 10 oyunçu qol vurmağı bacarıb.

*

Başa çatan Avropa çempionatının 3 oyununda iştirak edən Xesus Navas karyerasında ikinci qitə çempionluğunu qazanıb. "Sevilya"nın müdafiəçisi iki dəfə kuboku qaldıran 14-cü futbolçu olub.

*

İl ərzində Çempionlar Liqası və Avropa çempionatını qazanmağı bacaran futbolçular sırasına Navasın "Real" Madriddə çıxış edən komanda yoldaşları Dani Karvaxal, Naço və Xoselu da qoşulub. Avro tarixində yalnız ikinci dəfədir ki, əsas kuboku daha əvvəl Çempionlar Liqasının Kubokunu qazanmış ölkə qazanır.

*✓ "SEDEF PHARMA" MMC-yə məxsus dərman vasitələrinin topdan satışı fəaliyyətinə aid, 25 yanvar 2017-ci il tarixli ,İN/L-73/2017/2 qeydiyyat nömrəli lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.*

*VÖEN – 3102046881.*

# Aranda yağmursuz və isti, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 16-da Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.**



Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 33-38° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 35-40 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 33-38°, bəzi yerlərdə 40°, dağlarda gecə 12-17°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Asəf Həsənov ailəsi ilə birlikdə Əlikram Abdullayevin ailəsinə əzizləri

**RAFİQ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi DİA-nın I tədris işləri üzrə prorektoru, professor Əlikram Abdullayevə əzizi

**RAFİQ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi qurumun şöbə müdiri Könül Hacıyevaya atası

**XANLAR ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3083
SİFARİŞ 1572
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00